www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 may 2015-ci il Çərşənbə № 114 (6142) Qiymətı 40 qəpik

**Xəbər**

## Öldürülən əsgərlə bağlı şok detallar

yazısı səh.11-də

**Gündəm**

### Bakı Avrasiya Birliyinə qoşulmağın şərtini açıqladı - öncə Qarabağ



Elmar Məmmədyarovun Rusiyaya qəfil səfərinin daha bir pərdəarxası; Azərbaycan XİN başçısı ölkənin işğalçı ilə bir iqtisadi qurumda təmsilçiliyini rədd elədi, ancaq...

yazısı səh.9-da

### Müsavatın qalmaqallı rayon təşkilatı yenidən qurulacaq

yazısı səh.6-da

### Siyasi şərhçidən Elmar Məmmədyarova sərt tənqid

yazısı səh.9-da

### Bakıda yanğınlar niyə artıb?

yazısı səh.12-də

### Rektor qızını döyən şəxs azadlıqda

yazısı səh.4-də

### Milli Şura meriyanın mitinq təklifini qəbul etdi

yazısı səh.6-da

### Politoloq Rusiya ilə sensasion razılaşmadan danışdı

yazısı səh.8-də

### Abutalıbov sökülən villa sahibləri haqda nə dedi?

yazısı səh.3-də

### Abituriyentlər və valideynləri mütləq bu yazını oxusun...

yazısı səh.14-də

### Masallı ziyalıları aclıq aksiyasına hazırlaşırlar

yazısı səh.3-də

### Polis generalı Röyanın "razborka"sından danışdı

yazısı səh.5-də

### "ABŞ mətbuatının yazdıqları AKP-nin işinə yarayacaq"

yazısı səh.8-də

## Daha bir şirkət rəhbəri qandallandı

# PİRVERDİYEVİN AZADLIQ "İŞIĞI"NA CİDDİ TƏHLÜKƏ!

Beynəlxalq Bank işi ilə bağlı istintaqa çağırılan "Azərenerji" rəhbərinə növbəti zərbə - həbsdəki şəriki ona qarşı ifadə verib; "City Devoloper" MMC-nin baş direktoru da bank borcuna görə təcridxanaya göndərildi; dövlət başçısının "bir adam da məsuliyyətdən qaça bilməz, xüsusilə dövlət məmuru" sözləri daha kimlərin sonunu gətirəcək?




yazısı səh.7-də

## Yanan binanı təmir edən şirkətin deputat rəhbəri danışdı - özəl müsahibə

**Ağalar Vəliyev:** "FHN-in laboratoriyasında poliuretanla bağlı bütün suallara aydınlıq gətiriləcək"; "Görünür, istehsal prosesində pozuntu baş verib, yanğına davamlı olması üçün üzlük materiala qatqılar əlavə edilməyib"

yazısı səh.4-də



### Abid Şərifov mediaya "müharibəsini" davam etdirir

yazısı səh.10-da



*Eldar İbrahimov:*

### "Kiminsə villasının mənə nə dəxli var?"

yazısı səh.5-də



Ağaşirin Tanrıverdioğlu

### AXCP-nin şöbə müdiri Əli Kərimlini istefaya çağırdı

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 114 (6142) 27 may 2015



## Obama Azərbaycan prezidentinə təbrik göndərdi

**ABŞ prezidenti Barak Obama Azərbaycan dövlət başçısı İlham Əliyevi 28 May- Respublika Günü münasibətilə təbrik edib. Obamanın məktubunda deyilir: "Azərbaycan müstəqilliyini qazandığı vaxtdan, Amerika Birləşmiş Ştatları Azərbaycanın təhlükəsizliyinə, demokratik və iqtisadi inkişafına güclü dəstək verir. Biz bunu ikitərəfli münasibətlərimizi, bir çox sahələrdə tərəfdaşlığımızı, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin, Əfqanıstanda sabitliyin təşviqini və Avropanın enerji təchizatının şaxələndirilməsini yüksək dəyərləndirdiyimiz üçün edirik.**

Tərəfdaşlığımız həmçinin xalqlarımız arasında əlaqələr sayəsində güclənir. Bütün vətəndaşların fundamental azadlıqların təmin edilməsi hər iki ölkənin təhlükəsizliyini möhkəmləndirəcək və hökumətlərimiz arasında daha sıx əlaqələndirməyə imkan yaradacaqdır.

Lütfən milli bayramınız münasibətilə ən xoş arzularımı qəbul edin".

## Prezidentdən əfv xahişi

**İnsan Hüquqları üzrə Birgə İşçi Qrupu əfvlə bağlı öz tövsiyələrini Əfv Komissiyasına təqdim edib. Bu barədə "Trend"ə İşçi Qrupun üzvü Sahib Məmmədov deyib.**

S.Məmmədov bildirib ki, müxtəlif səbəblərlə, yeni xəstəliklərlə, məhbusların cəzasının əhəmiyyətli hissəsini çəkməsi ilə bağlı təkliflərimiz var: "Onların içərisində ictimai fəaliyyəti olan adamlar da, adi vətəndaşlar da var. Siyahını təqdim etmişik və sənəd Əfv Komissiyasına istiqamətlənib. Sonrakı iş Əfv Komissiyasına məxsusdur. Hazırda qurumda bu istiqamətdə iş aparılır. 28 May Respublika Günü, o cümlədən qarşıda Qurtuluş Günü var. Mümkündür ki, bu ərəfədə addım atıla bilər. Amma bu barədə məlumatm yoxdur və proqnoz verməkdə çətinlik çəkirəm".

## Kəmaləddin Heydərov Sabunçuda yanğın baş verən əraziyə gəlib


Kəmaləddin Heydərov

**Sabunçu rayonu Qanbay Vəzirov küçəsində 500 kv.m sahədə baş vermiş yanğınla əlaqədar fövqəladə hallar naziri Kəmaləddin Heydərov və nazirliyin vəzifəli şəxsləri mayın 26-da hadisə yerində olublar.**

Ölkə.az-ın əldə etdiyi məlumata görə, hadisə yerinə baxış zamanı nazir ərazidə yerləşən yeni tikililərin təhlükəsizlik tələblərinə cavab vermədiyini bildirərək, sökülməsi barədə göstəriş verib.

Nazirin göstərişinə əsasən, sökülməsi nəzərdə tutulan evlərdə yaşayan ailələrə konpensasiya veriləcək. Bundan başqa, dəmir yolu vağzalı ilə Sabunçu qəsəbəsini birləşdirəcək yeni yolun çəkilməsi də təmin ediləcək.

Xatırladaq ki, Fövqəladə Hallar Nazirliyinin rəsmi saytının yaydığı məlumata görə, Bakı şəhəri, Sabunçu rayonunda 500 kv.m sahədə mazut qarışıqlı məişət tullantıları yanıb. Məlumatda bildirilir ki, yaxınlıqdakı tikililər və mazut gölməçəsi yanğından mühafizə olunub. Yanğın saat 09:07-də yanğınsöndürənlər tərəfindən söndürülüb.


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Qadın iş adamı qətlə yetirildi

**Mayın 26-na keçən gecə Kürdəmir rayonunda tanınmış iş adamı olan qadın vəhşicəsinə qətlə yetirilib.**



Kürdəmir şəhəri, Heydər Əliyev prospektində yaşayan 1954-cü il təvəllüdlü Sahibə Məhəmməd qızı Hacıəliyeva həyətində qətlə yetirilib. Onun bədənində çoxsaylı bıçaq xəsarətləri aşkarlanıb.

Virtualaz.org saytının Şirvan bürosunun müxbiri bu amansız qətlin bəzi təfərrüatlarını öyrənib.

Məlum olub ki, qətlə yetirilən Sahibə Hacıəliyeva yanacaqdoldurma məntəqəsinin sahibi olduğu üçün Kürdəmirdə "zapravka Sahibə" adı ilə tanınıb. Sonradan Həcc ziyarətində olduğu üçün ona Hacı Sahibə adı ilə müraciət olunub. Onun həyat yoldaşı Sədi Hacıəliyev bir neçə il əvvəl vəfat edib. Yeganə övladı olan oğlu yüksək balla BDU-nun hüquq fakültəsinə qəbul olunub. Hazırda həmin fakültənin sonuncu kursunda oxuyur.

Kürdəmirdə həm də ticarət obyektləri olan Sahibə Hacıəliyeva onu qətlə yetirən 25 yaşlı Şaiq Şahin oğlu İsrafilovun yaxın qonşusu olub.

Kürdəmir sakinləri rayon mərkəzində dönərxana işlədən Şaiq İsrafilovu sakit, başıaşağı bir gənc kimi tanısalar da əlavə edirlər ki, o, mayın 25-də - qətli törətməzdən bir neçə saat əvvəl bərk sərxoş imiş və Sahibə Hacıəliyevadan narazı olduğunu deyirmiş. Ş.İsrafilovun sözlərinə görə, Sahibə Hacıəliyeva nə vaxtsa və haradasa onun xətrinə dəyib, ağır söz deyərək acılayıb.

Məlumata görə, Ş.İsrafilov gecə saat 2-nin yarısında sərxoş halda Sahibə Hacıəliyevanın evinə gedərək qapını döyüb. Evdə tək yaşayan Sahibə onu tanıdığı üçün qapını açıb. Şaiq ona elə həyətdəcə bir neçə bıçaq zərbəsi vurub, amma qadının ölmədiyini görüb həyətdən götürdüyü bellə başına zərbələr endirib. Onun öldüyünə əmin olandan sonra isə polisə gedərək təslim olub.

Şaiq İsrafilovun atası da sahibkardır. "Şaiq" adlı restoranın sahibidir. Əmisi Rəhman Səlimov isə uzun illər hərbi komissarlıq sistemində çalışıb.



## İlham Əliyev Azərbaycanın ən böyük Aqua Parkını açdı

**Bakıda daha bir müasir istirahət və əyləncə mərkəzi - "Dalğa Beach-Aqua Park" istifadəyə verilib.**

AzərTAc-ın məlumatına görə, pezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 26-da Xəzər rayonunun Mərdəkan qəsəbəsində yeni inşa edilmiş "Dalğa Beach-Aqua Park" ailəvi istirahət mərkəzinin açılışında iştirak ediblər. "Dalğa Beach-Aqua Park"ın ümumi sahəsi 68 min kvadratmetrdir. Ərazisinə görə bu, Azərbaycanda ən böyük Aqua Parkdır. Xəzər dənizinin sahilində yerləşən istirahət mərkəzi nəfis tərtibatda, orijinal üslubda inşa olunub. İstirahət kompleksində ümumi sahəsi 12 min kvadratmetr olan 7 hovuz yaradılıb. Bu hovuzlarda qonaqlar süni dalğalar vasitəsilə sörfinqlə məşğul ola biləcəklər.

## Nizami Piriyev yeni vəkillə müqavilə bağlayıb

**Həbsdə olan iş adamı Nizami Piriyev vəkil Kamandar Nəsibovla müqavilə bağlayıb.**

Bu barədə APA-ya məlumat verən K. Nəsibov bildirib ki, N. Piriyevlə görüşmək üçün onun saxlandığı Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə məktubla müraciət edib. Vəkil yaxın günlərdə müdafiə etdiyi şəxslə görüşəcəyini deyib.

Qeyd edək ki, Nizami Piriyevin barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq törətmə) maddəsi ilə cinayət işi başlanılıb. Onun barəsində 3 ay 24 gün müddətinə həbs qətimkan tədbiri seçilib.

## "Bakı-2015": minik maşınları üçün duracaqlar müəyyən edildi

**İlk Avropa Oyunlarını izləməyə gələn tamaşaçıların minik avtomobillərini saxlaması üçün Bakıda rəsmi olaraq iki duracaq müəyyən edilib. Bunu "Trend"ə Nəqliyyat Nazirliyinin mətbuat katibliyinin rəisi Namiq Həsənov deyib.**

N.Həsənovun sözlərinə görə, həmin duracaqların yanında "ekspess" avtobuslar dayanacaq və Avropa Oyunlarının yarışlarına biletli olan şəxslər idman arenalarına pulsuz daşınacaq: "Parkinq üçün nəzərdə tutulan yerlərdən biri Füzuli meydanının yaxınlığında, bəzilərinin "Qış parkı" adlandırdığı Mərkəzi Parkın altındakı duracaqdır. Həmin duracaqda eyni vaxtda 3 min avtomobil saxlamaq mümkündür.

Digəri isə Fətəli Xan Xoyski küçəsindəki Gənclik Parkında yerləşən duracaq müəyyən edilib. Orada eyni anda 650 avtomobil saxlamaq mümkündür. Həmin duracaqlarda Avropa Oyunlarını izləmək üçün biletləri olan avtomobil sahiblərinə güzəştli tarif tətbiq olunacaq və avtomobilin duracaqda saxlanmasına görə müddətindən asılı olamayaraq onlardan 1 manat ödəniş alınacaq".

N.Həsənov əlavə edib ki, digər şəxslər də avtomobillərini həmin duracaqlarda saxlaya bilərlər, amma adi qaydada.

## Primadonnanın Afrikadakı səfir dostu kimdir?

### İlhamə Quliyeva bu haqda "Yeni Müsavat"a danışdı

**Xalq artisti İlhamə Quliyevanın qaradərili afrikalı bir uşağı himayəsinə götürmək istəməsi sosial şəbəkələrdə birmənalı qəbul edilməyib.**


İlhamə Quliyeva

Müğənni bu barədə ANS TV-də yayımlanan "Günəbaxan" verilişində açıqlama verərək onu tənqid edənlərə cavab verib. İlhamə Quliyeva onun bu addımını pisləyən şəxsləri məhkəməyə verəcəyi ilə hədələyib: "Mənim bir dostum Afrika ölkələrinin birində səfir işləyir. Onun xanımı ilə tez-tez zəngləşirik. Hər dəfə zəngləşəndə mənə oradakı uşaqların necə acınacaqlı vəziyyətdə yaşadığından bəhs edir. O xanım bir dəfə dedi ki, burada uşaqlar küçələrdə gözümüzün qabağında susuzluqdan, acından qırılır. Gündə təxminən 150 uşaq ölür. Dostumun xanımının bu sözləri ürəyimi ağrıtdı. Bu dəhşətdir. Onlar da bir canlıdır, onları da bir ana 9 ay bətnində gəzdirib, doğub. O xanıma dedim ki, vəsait göndərim, sən o uşaqlardan birini himayənə götür. Bütün xərcləri mən çəkəcəm. Buna imkanım var. O uşağın hər bir ehtiyacını göndərəcəm. O da bir canlıdır. Niyə də etməyim? Qaradır deyə etməyim? İndi bəziləri mənim bu hərəkətimə qara don geyindirirlər ki, İlhamə xanım öz uşaqlarımızdan birini övladlığa götürmür?"

Müğənninin bu açıqlamasından sonra çoxlarını bir sual maraqlandırdı: Primadonnanın Afrikadakı səfir dostu kimdir?

**Bu barədə "Yeni Müsavat"ın əməkdaşına danışan xalq artisti hiddətini gizlədə bilməyib:** "İndi də bəziləri öyrənməyə çalışır ki, həmin səfir dostum kimdir? Bu insanların nəyinə lazımdır axı? Mən o səfirin adını açıqlaya bilmərəm, ümumiyyətlə, buna ixtiyarım da yoxdur. Yalnız bircə şey deyə bilərəm ki, onun xanımı mənim yaxın rəfiqəmdir. Mən bu addımı insanlıq naminə atıram. Yenə də deyirəm, heç kəsi övladlığa götürməmişəm, sadəcə, vəsait göndərdim ki, o uşaq sağalsın. Tək yaşasam da kimisə övladlığa götürmək fikrim yoxdur".

❑ XALİDƏ



## Nəcməddin Sadıkov Rusiyaya getdi

**Azərbaycan müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov MDB üzvü olan dövlətlərin silahlı qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclasında iştirak etmək üçün mayın 26-da Rusiya Federasiyasının Soçi şəhərinə yola düşüb.**

Musavat.com-un Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, mayın 27-də keçiriləcək görüşdə nümayəndə heyətlərinin rəhbərləri müdafiə sahəsində əməkdaşlıq məsələlərini müzakirə edəcəklər.

## Ermənistanda partlayış: yaralılar var

**Ermənistanda yanacaq doldurma məntəqəsində partlayış baş verib.**

Azvision.az erməni KİV-nə istinadən xəbər verir ki, hadisə Armavir vilayətinin Zvartnos kəndində qeydə alınıb. Partlayış nəticəsində ən azı 3 nəfər yaralanıb.

Yaralı şəxslər İrəvanda Yanıq Mərkəzinə aparılıb.

İlkin məlumatlara görə, partlayışa səbəb kompressor stansiyası olub. Hadisə nəticədə "Volkswagen" markalı maşın partlayıb. Məlum olub ki, partlayan maşın Ermənistan parlamentinin sabiq deputatı Akop Akopyanın qohumuna məxsus olub. Partlayış zamanı Akopyanın oğlu və qardaşı da yaralanıb.

Akopyanın oğlu Armeninin vəziyyəti ağır olaraq qiymətləndirilir. Həkimlərin rəyinə əsasən onun bədəninin 40%-i yanıb.


Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

Telefon: (012) 434 93 01, 434 01 33

YENİ MÜSAVAT
N 114 (6142) 27 may 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Abutalıbov sökülən villalardan danışdı

## Tanınmışlar villaların dağıdılmasını deyil, müsadirə edilməsini istəyirlər




**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Səbayel rayonu ərazisində sökülən və bundan sonra söküləcək villalar, onların sahibləri barədə şok açıqlamalar verib. Modern.az-a açıqlamasında H.Abutalıbov deyib ki, prezidentin göstərişi ilə villaların söküntüsünə qərar verilib, indi də proses davam edir.**

Sənədlərdə villaların sahibi olaraq ayrı-ayrı adamların adları qeyd olunub. Amma bu günə qədər nə sənəd sahibləri, nə də onların arxasında duran şəxslər üzə çıxır: "Ona görə də biz söküb yerə qoyuruq ki, hamısına dərs olsun. Sənədlərdə adı olan şəxsləri çağırtdırmışıq, amma onlar gəlmək istəmirlər, bildirirlər ki, "nə edirsiz edin"".

**Mer bununla bağlı hüquq-mühafizə orqanlarına müraciət etdiklərini də açıqlayıb:** "Biz müraciət etmişik, araşdırmalar aparılır, lazımi ölçü götürüləcək".

Bakı şəhərinin icra başçısı onu da bildirib ki, villalar bir neçə şəxsin adına sənədləşib, onlar azərbaycanlıdır, adlar içərisində yüksək çinli məmurlar yoxdur.

**"Heç olmasa, bir neçəsinin adını çəkin" deyə təkid edəndə mer bildirib ki, onlar elə adamlardır ki, özləri üzə çıxmaq istəmir:** "İkincisi də Bakı Şəhər İcra Hakimiyyəti həmin ərazinin layihəsini təsdiq etməyib, nə razılaşdırma olub, nə də sərəncam var. Müəmmalısı da odur ki, adi adamların bu qədər vəsaiti ola bilməz. Deməli, onların arxasında müəyyən güclər dayanıb".

**Hacıbala Abutalıbov "tikinti işləri aparılan zaman hansı səbəbdən onlara mane olmayıblar" sualına cavabda etiraf edib ki, həmin şəxslərə mane ola bilməyiblər:** "Çünki onların arxasında elə-belə adamlar durmayıb. Sözsüz ki, məsələ dəqiq surətdə araşdırılacaq və onlar layiqli cəzalarını alacaqlar. Biz sökürük, qabağa çıxıb "dayanın!" demirlərsə, deməli, həddindən artıq imkanlı olan şəxslərdir".



Dəyəri milyonlarla manat olan və dövlətdən oğurlanan pullar hesabına başa gələn həmin villaların yerlə-yeksan edilməsi isə cəmiyyətdə birmənalı qarşılanmır. Bir çox siyasilər, ictimai xadimlər təklif ediblər ki, həmin villalar əgər ərazi üçün, insanlar üçün təhlükə mənbəyi daşımırsa, yaxşı olar ki, onlar sökülməsin dövlət onları müsadirə etsin və müəyyən təyinatlar üzrə istifadə etsin.

Məsələn, KXCP sədri Mirmahmud Mirəlioğlu bu cür təklifi irəli sürənlərdəndir. O deyib ki, bəlkə də həmin villaları sökməkdənsə dövlətin xeyrinə müsadirə etmək daha faydalı olardı.

Tanınmış hüquq müdafiəçisi Mehriban Zeynalova da təklif edib ki, villalarla bağlı daha optimal vasitəyə əl atmaq olar. Villaları söküncə, dövlətin balansına keçirərdilər və onlardan humanitar məqsədlər üçün istifadə edilərdi. Məsələn, o villaları kimsəsiz və zorakılığa məruz qalmış qadınlar üçün sığınacaq etmək olar.

❑ E.SEYİDAĞA

# "O zaman manat dollara nisbətən dəyər qazanacaq ki..."

## Vüqar Bayramov: "Avronun dollara nisbətən zəifləməsi isə manatın da yumşalmasına səbəb olacaq"




**Milli valyuta olan manat yenə dollar qarşısında dəyərsizləşir. Mayın 26-na olan məzənnəyə əsasən, 1 ABŞ dolları 1,0493 AZN-ə bərabərdir. Bir çox ekspertlərin məsələ ilə bağlı proqnozları bədbin deyil. Ekspert Vüqar Bayramovun sözlərinə görə, milli valyuta dollara nisbətən ucuzlaşıb, avro ilə müqayisədə isə bahalaşıb: "Manatın son günlərdəki rəsmi məzənnəsi göstərir ki, Mərkəzi Bank valyuta səbətində avronun payını artırıb. Praktik olaraq, dollar avroya nisbətən möhkəmlənən zaman manata nisbətən də güclənir. Və ya əksinə: dollarla müqayisədə dəyər itirən avro manat qarşısında da zəifləyir.**

Deməli, bu, artıq Mərkəzi Bankın çevik valyuta siyasətinə keçərək valyuta səbətində milli valyutamızın gələcək məzənnəsinə təsir edəcək dəyişiklik etdiyindən xəbər verir. Əslində bu, artıq manatın avronun məzənnəsində tədricən asılılığın yaranması anlamına da gəlir. Belə ki, dolların avroya nisbətən möhkəmlənməsi heç də ABŞ pulunun bütün digər valyutalara nisbətən də güclənməsi anlamına gəlmir. Məsələn, son 1 gündə avroya nisbətən güclənən dollar İngiltərə funt-sterlinqinə və eləcə də Kanada dollarına nisbətən mövqelərini qoruyub saxlaya bilməyib. Bu isə o deməkdir ki, manatın növbəti mərhələdə məzənnəsi həmçinin Avropa pulunun durumundan asılı olacaq. Əgər Avrozonada milli valyuta möhkəmlənəcəksə, o zaman manat da dollara nisbətən dəyər qazanacaq. Avronun dollara nisbətən zəifləməsi isə manatın da yumşalmasına səbəb olacaq".

**Ekspert deyib ki, bir müddət sonra ölkənin valyuta bazarına 200 milyon dollar əlavə vəsait daxil olacaq:** "Qitədə ilk dəfə təşkil ediləcək Avropa Oyunları milli valyutaya tələbin artması baxımından müsbətdir. Sözügedən oyunların Azərbaycanda keçirilməsi manata tələbin artmasına, eləcə də xarici valyuta təklifinin çoxalmasına səbəb olacaq. Avropa Oyunları zamanı ölkəmizə bütövlükdə 100 mindən artıq əcnəbinin gələcəyi gözlənilir. Beynəlxalq standartlara görə, hər bir turistin Azərbaycanda olduğu hər həftədə 1000 dollar xərclədiyini nəzərə alsaq, bu o deməkdir ki, oyunlar keçirilən müddətdə orta hesabla ölkənin valyuta bazarına 200 milyon dollar əlavə vəsait daxil olacaq. Ölkəyə gələn turistlərin xarici valyutanı milli valyutaya çevirməsi manata tələbin artmasına və xarici valyuta təklifinin çoxalmasına səbəb olacaq. Aprelin ikinci yarısından başlayaraq xarici valyutalara tələbin azaldığını nəzərə aldıqda Mərkəzi Bank iyun üçün proqnozlaşdırılan intervensiya xərclərinin bir hissəsinin turistlərin xərcləmələri hesabına qapaya bilər".

❑ RÖYA

# Masallı ziyalıları aclıq aksiyasına hazırlaşırlar

## İcra başçısı Rafil Hüseynov korrupsiya və mənimsəmələrdə, vətəndaşların şikayətlərinə laqeydlikdə suçlanır...

**Masallı rayonunda bir qrup ziyalı və ictimaiyyət nümayəndəsi iyunun 10-dan aclıq aksiyasına başlamaq niyyətindədir. Onların bu addımı atmasına səbəb kimi rayonun icra başçısı Rafil Hüseynovun dövlət büdcəsindən və Prezidentin Ehtiyat Fondundan rayona ayrılan vəsaitləri mənimsəməsi, əkinə yararlı torpaqların tikinti sahələrinə çevrilməsi və sakinlərin şikayətlərinə məhəl qoymaması göstərilir.**

Mətbuatın məlumatına görə, mayın 25-də Masallı Ziyalıları İctimai Birliyi mətbuat konfransı keçirərək bu barədə prezident İlham Əliyevə, nazirlərə, Milli Məclisin deputatlarına, eləcə də beynəlxalq təşkilatların və ölkələrin Bakıdakı səfirliklərinə müraciət ünvanlayıblar. Şikayətçilərin nümayəndələri dünən Prezident Administrasiyasında da olublar.

**İctimai Birliyin sədri Məmmədağa Eynullayev bildirib ki, Masallının təmir-tikinti layihələri üçün ayrılan külli miqdarda dövlət vəsaiti mənimsənilir:** "Rayon və kənd əhəmiyyətli təmir-tikinti layihələrinin tenderlərinin hamısının "qalibi" Xudayar Rəhmanov olur. Bu şəxs də icra başçısının yaxın adamıdır. İcra başçısı layihələr üçün nəzərdə tutulmuş dövlət maliyyəsini onun adına keçirməklə mənimsəyir. Yol tikintisi, su, işıq və kanalizasiya xətlərinin tikintisi plana və təlimata uyğun aparılmır. Hətta sənədlərdə kənd yollarına asfalt örtüyünün çəkildiyi göstərilsə də, kəndlərə yol çəkilməyib. Biz bu problemlərlə bağlı icra başçısının qəbulunda olmaq istəmişik. O, şikayətimizi dinləsə də, yenə öz bildiyini edir. İcra başçısı bizi - Masallı Ziyalıları İctimai Birliyinin üzvlərini təqib elətdirir, həbslə hədələtdirir. Odur ki, Masallıda insan hüquq və azadlıqlarının pozulduğu üçün etiraz aksiyasına başlayırıq".



Rafil Hüseynov

**Məsələ ilə bağlı Müsavat Partiyasının Masallı rayon təşkilatının sədri Xasay Səfəroğlu rayonda vəziyyətin gərgin olduğunu bildirdi:** "Hələ ki aclıq aksiyasına başlanılmayıb. İnsanlar arasında ənənəvi narazılıq şübhəsiz ki, mövcuddur. Yəqin ki, etiraz aksiyasının rezonansı olacaq. Bundan başqa məsələyə qarşı tərəfin reaksiyası da çox önəmlidir. Yenə də təzyiq vasitəsini seçəcəklər, yoxsa problemləri həll etməyə çalışacaqlar? Bunu yaxın günlərdə yəqin ki, müşahidə edəcəyik".

**Xasay Səfəroğlu birliyin səsləndirdiyi problemlərin Masallıda mövcudluğunu təsdiqlədi:** "Hətta problem deyilənlərdən daha artıqdır. İllərdir Müsavat Partiyası olaraq biz də bu qüsurları səsləndirmişik. Xüsusən son 3 ildə əvvəldən mövcud olan problemlərə yeniləri əlavə olunub. Hər zamankı kimi görülən işlərə ictimai nəzarət və şəffaflıq prinsipi demək olar ki, yox səviyyəsindədir. Xərclənən vəsaitlərlə müqayisədə görülən işlərin də keyfiyyəti çox aşağıdır. Vəziyyət pisləşdikcə maddi mənimsəmələr də ona uyğun artır. İstər çəkilən yollarda, istərsə də təmir-tikinti sahəsində keyfiyyətsizlik diqqət çəkir. İcra başçısı Rafil Hüseynov gələndən bəri başladığı "kanalizasiya əməliyyatı" 3 ildən çoxdur bitmək bilmir. Təkcə bu "əməliyyat" üzündən Masallının yolları qazılıb, bərbad hala salınıb və şəxsi avtomobilləri olan vətəndaşlara minlərlə manat zərər dəyib, insanların piyada hərəkətinə maneələr yaranıb. Bütün bunların kökündə vətəndaşa hörmətsizlik durur. Çəkilən yolların bir müddət sonra yenidən qazılması adi hala çevrilib. Bu da işlərin plansız və səriştəsiz aparıldığını təsdiq edir".

**X.Səfəroğlu son günlər başqa bir problemin də peyda olduğunu dedi:** "Məlum poliuretan siyasətinin saxta gözəllikləri Masallıdan da yan keçməyib. Üzlənən binalar artıq sökülməyə başlanıb. Sərf olunmuş xərclər haqqında isə danışan yoxdur. Bu baxımdan Masallı Ziyalıları İctimai Birliyinin qaldırdığı problemləri haqlı sayıram". Müsahibimiz onu da əlavə elədi ki, bu işlərə nəzarət etməli olan aidiyyəti qurumların Hüseynovun özbaşınalıqlarından xəbərsiz olduğuna inanmır.

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 114 (6142) 27 may 2015

# Yanan binanı təmir edən şirkətin deputat rəhbəri danışdı - özəl müsahibə

## Ağalar Vəliyev: "FHN-in laboratoriyasında poliuretanla bağlı bütün suallara aydınlıq gətiriləcək"; "Görünür, istehsal prosesində pozuntu olub, yanğına davamlı olması üçün üzlük materiala qatqılar əlavə olunmayıb"

**Binəqədi rayonunda yanan binanın təmiri "Azəraqrartikinti" ASC-yə həvalə olunub. ASC-nin rəhbəri, Milli Məclisin deputatı Ağalar Vəliyev "Yeni Müsavat"ın suallarını cavablandırıb.**



"Binanın təmiri bizə həvalə olunub. Hazırda binanın üzlük konstruksiyasının söküntüsü ilə məşğuluq. Alt konstruksiyanın söküntüsünü 3 gün müddətinə yekunlaşdıracağıq. Fövqəladə Hallar Nazirliyinin Dövlət Layihə İnstitutu tərəfindən həmin binanın layihə-smeta sənədləri hazırlanır, bina Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri tərəfindən müayinə olunur, binanın dayanıqlığı normal şəkildədir. Ancaq bəzi düyünlərdə bərpa-gücləndirmə tədbirlərinin keçirilməsinə də çox güman ki, ehtiyac olacaq. Layihə-smeta sənədləri bizə verildikdən sonra binanın hansı müddətə təmir olunacağını deyə bilərik. Hesab edirəm ki, binanı 4-5 aya tam təmir edib, təhvil vermək mümkün olacaq".

**Deputat bildirdi ki, binada poliuretan üzlükdən istifadə edilməyəcək:** "Nəinki həmin binada, ümumiyyətlə, respublikada aparılan tikintilərdə poliuretandan istifadə olunması bu gündən sonra qadağan olunub. Hazırda həmin binada üzlənmə işlərinin görülməsi üçün 3 material üzərində işlənir. Birincisi keremoqranit, ikincisi pəncərələrin kənarları aqlay daşı ilə üzlənib ətrafı suvaq vurulacaq və yüksək keyfiyyətli boya ilə üzlənə bilər, hansı ki, həmin boyaların istismar müddəti 20 ildən az deyil, üçüncüsü də sintofleks adlı materialdır. Həmin material İtaliyada, İspaniyada və Türkiyədə istehsal olunur. Ola bilər ki, bu materialdan da istifadə olunsun. Hazırda bu 3 variant üzərində işlənir, layihə-smeta sənədlərində nədən istifadə olunması nəzərdə tutulacaqsa, biz də o materialdan istifadə edib binanın üzlənməsini təmin edəcəyik".

**Deputat binadakı təmirin ən qısa müddətə və yüksək keyfiyyətlə həyata keçiriləcəyini də söylədi:** "Binanı yüksək keyfiyyətlə təmir etməyi öhdəmizə götürmüşük, binanın daxilindəki təmir işlərindən tutmuş, fasadı, damı yenidən qurulacaq".

**Poliuretan materialın keyfiyyətsizliyi haqda fikirlərə də deputatın münasibətini öyrəndik. A.Vəliyev üzlük materialı haqda bunları bildiyini açıqladı:** "Bu, çox tez alışan materialdır. Görünür, istehsal prosesində pozuntu olub. İstehsal zamanı yanğına davamlı olması üçün müəyyən qatqılar əlavə olunmalıdır. Yəqin həmin materiallardan istifadə edilməyib. Düşünürəm ki, FHN-in laboratoriyasında poliuretanla bağlı bütün suallara aydınlıq gətiriləcək. Amma bu material tez alışan, tez yanan materialdır".



Ağalar Vəliyev

> **"İcraçı sifarişçiyə sertifikat təqdim etməlidir ki, bu material yanğına davamlıdır. Heç bir icra başçısının, sifarişçi təşkilatın laboratoriyası yoxdur ki, bunun sertifikatına inanmasın. Desin ki, sənin sertifikatın saxtadır, sənə inanmıram, gedib öz laboratoriyamda yoxlatdıracağam"**

**Yanan bina ilə bağlı belə məlumatlar da vardı ki, guya binanın üzlənməsi Binəqədi rayonunun rəhbərliyi ilə razılaşdırılmayıb. A.Vəliyevdən Bakı şəhərində bir sıra mühüm tarixi əhəmiyyət kəsb edən binaların tikintisi, bərpası və yenidən qurulması ilə məşğul olan ASC-nin rəhbəri olaraq bu məlumatlara münasibətini də öyrəndik. Cavabı belə oldu:** "Heç kim, küçədən keçən gəlib binaları təmir edə bilməz. Rayon icra başçısının sifarişçi kimi binanın təmirində istifadə olunan materialdan xəbəri olmaya bilər. İlk görünüşdən görürsən ki, material gözəldir. Amma tərkibi haqda məlumat olmaya bilər. Hər bir materialın məişət sertifikatı olur. Bu, sifarişçiyə təqdim olunur. Bilinir ki, bu material harada istehsal olunur, bunun kimyəvi tərkibi nədir. Görünür, bunun istehsalında texnoloji proses pozulduğuna görə material belə tez yanır".

**Uzun illər tikinti sektorunda çalışmış deputat günahı icraçı təşkilatda gördüyünü də gizlətmədi:** "İcraçı sifarişçiyə sertifikat təqdim etməlidir ki, bu material yanğına davamlıdır. Heç bir icra başçısının, sifarişçi təşkilatın laboratoriyası yoxdur ki, bunun sertifikatına inanmasın. Desin ki, sənin sertifikatın saxtadır, sənə inanmıram, gedib öz laboratoriyamda yoxlatdıracağam. Mümkündür ki, sifarişçinin materialın tərkibindən xəbəri olmasın. Tikinti təşkilatı olaraq hazırda respublikada 125-dən artıq tikinti idarəmiz var, Azərbaycanın bütün regionlarında iş görürük. Heç yerdə bu materialdan istifadə etmirik".

**Deputat həmin materiala güvənmədiklərini də açıqlayıb. A.Vəliyev general Bəylər Əyyubovla yaxın münasibətləri haqda mətbuatda yazılanlarla bağlı bunları deyib:** "Bəylər Əyyubovla heç bir qohumluğum yoxdur. Yazırlar, yazsınlar. Mən 20 ildən artıqdır ki, prezidentin sərəncamı ilə ölkədə işlər görürəm, millət vəkiliyəm. Ümumi münasibət hamı ilə necə, mənimlə də elə. Bəylər müəllimlə qohumluğum yoxdur".

**Mövcud qanunlara görə deputatlar gəlir gətirən fəaliyyətlə, bizneslə məşğul ola bilməzlər. A.Vəliyev qanunda yazılanlarla razılaşırmı?**

"Mən Səhmdar Cəmiyyətin təsisçisiyəm. Ora özəl qurumdur. Mən rəhbər yox, təsisçiyəm, oranın icraçı direktoru var, biznes sahəsi ilə məşğul olan adam var, mən sadəcə millət vəkilliyimlə məşğulam".

**Bəs qanunda belə hal nəzərdə tutulurmu?**

**A.Vəliyev tam qanuni şəkildə fəaliyyət göstərdiyini deyir:** "Fəaliyyətim tam qanunidir, qanunsuz heç bir şey yoxdur".

Məlumat üçün deyək ki, Ağalar Vəliyev YAP-çı deputatlardandır. Parlamentin İqtisadi siyasət komitəsinin üzvüdür. 1957-ci il təvəllüdlü A.Vəliyev 1996-cı il iyunun 19-da mərhum prezident Heydər Əliyev tərəfindən "Azəraqrartikinti" Dövlət Şirkətinin prezidenti vəzifəsinə irəli çəkilib. 1998-ci ildən isə Ağalar Vəliyev həmin şirkətin bazasında yaradılmış respublika əhəmiyyətli "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsində çalışır. 2006-cı ildən dövlət investisiyalarının həcmi artdıqca, onun bölüşdürülməsində hökumət ona etibar etməyə başlayıb. Prezident İlham Əliyevin göstərişi ilə "Azəraqrartikinti" ASC-yə Bakı şəhərində bir sıra mühüm tarixi əhəmiyyət kəsb edən binaların tikintisi, bərpası və yenidən qurulması həvalə edilib. A.Vəliyev prezident İlham Əliyevin 9 aprel 2010-cu il tarixli sərəncamı ilə "Əməkdar mühəndis" fəxri adına layiq görülüb.

Qeyd edək ki, Bakıda binaların üzlüyünün dəyişdirilməsi, divarın qaşınması, inzibati binaların tikintisi və təmirinin 80-90 faizi məhz bu şirkətə həvalə edilir. Hökumət Evinin və Milli Məclis binasının təmiri, əlavə 13 mərtəbəli yeni korpusun tikintisini, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının tikintisi, Azərbaycan Tarixi Muzeyinin binasının yenidənqurulması, Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutunun, Kimya Problemləri İnstitutunun təmirini A.Vəliyevin rəhbəri olduğu ASC həyata keçirib.

Qeyd edək ki, mayın 19-da Bakının Binəqədi rayonunda baş verən yanğın nəticəsində 15 nəfər ölüb, 50-dən çox insan isə yaralanıb. Hadisə nəticəsində bina yararsız vəziyyətə düşüb. Ölkə başçısının sərəncamı ilə binanın təmiri üçün 3 milyon manat vəsait ayrılıb.

❑ E.MƏMMƏDƏLİYEV



# Rektor qızını döyən şəxs azadlıqda

## Ülkər İsayeva: "Heç vaxt məhkəmədə onun əleyhinə ifadə verməmişəm"

**Rektor qızını döyən şəxsin azadlığa çıxdığı xəbəri yayılıb. Axar.az-a daxil olan məlumatda deyilir ki, Xəzər Universitetinin rektoru Hamlet İsaxanlının qızı Ülkər İsayevanı martın 8-dən 9-na keçən gecə, saat 4 radələrində küçənin ortasındaca döyən qardaşlardan biri - Zaur Məmmədov barəsində seçilən 2 aylıq həbs-qətimkan tədbirinin müddəti başa çatıb. Martın 18-də həbs edilən Z.Məmmədovun azadlığa buraxıldığı, zərərçəkmişin isə şikayətini geri götürdüyü bildirilir. Məlumatda işin məhkəməyə göndərilmək üçün hazır olduğu və rektor qızını döyənin bundan sonrakı cəzasını cərimə ödəməklə başa vuracağı da qeyd olunub. Bildirilir ki, tərəflər məsələni öz aralarında danışıq yolu ilə həll etmək qərarına gəlib və ona görə də istintaq Z.Məmmədovun həbs müddətinin uzadılması barədə məhkəməyə təkrar müraciət etməyib. Ü.İsayeva isə atasının rəhbəri olduğu ali məktəbdə pedaqoji fəaliyyətini davam etdirir.**

Vəkil A.Məmmədov bu mövzuda danışmaq istəmədiyini, məsələnin artıq bağlandığını bildirib. Ülkər İsayeva azvision.az-a açıqlamasında bundan xəbərsiz olduğunu deyib. Ü.İsayeva həmçinin bildirib ki, o, Zaur Məmmədovdan şikayətçi olmayıb.

"Mənim Zaur Məmmədovun azadlığa buraxılması haqda heç bir məlumatım yoxdur. Heç vaxt məhkəmədə onun əleyhinə ifadə verməmişəm. Həmçinin Zaur Məmmədovdan şikayət etməmişəm. Məmmədovlar ailəsi ilə bizim heç bir düşmənçiliyimiz yoxdur. Mənim Zaurdan heç bir narazılığım yoxdur".

Xatırladaq ki, Ü.İsayeva tanınmış həkim Tərlan Əhmədzadənin gəlini olub. Ülkər İsayeva Tərlan Əhmədzadənin oğlu Aydınla ailə qurub. O, Aydın Əhmədzadə ilə 2014-cü ilin yayında Nəsimi Rayon Məhkəməsinin qərarı ilə boşanıb. Bu nikahdan onların bir qız övladı var. Məlum hadisədən sonra onların toyundan kadrlar da yayılıb.



Eldar İbrahimov

# “Kiminsə villasının “uçot”unu aparmıram, mənə nə dəxli var?”

## Eldar İbrahimov: “Onsuz da nazirliklərimiz çoxdur, elə olanlarımız bəsdir”

**Milli Məclisin Aqrar siyasət komitəsinin son iclasında torpaqların qanunsuz istifadə edilməsinə və zəbt olunmasına görə Cinayət və İnzibati Xətalar məcəllələrinə nəzərdə tutulan dəyişikliklərlə əlaqədar qanun layihələrinin müzakirəsi aparılıb.**

Komitə sədri Eldar İbrahimov çıxışında qeyd edib ki, əvvəllər torpaqların zəbt olunmasına görə ən azı 3 ilədək azadlıqdan məhrumetmə nəzərdə tutulurdu. Sonralar isə bu məsələlər bir qədər yumşadılıb və bununla da qanunsuzluqlar, hərc-mərcliklər başlanıb, cəzasızlıq mühiti yaranıb, kimin ürəyi nə istəyib, onu da edib. Ona görə də komitə sədri qanunvericilikdə belə bir sərtləşdirmənin nəzərdə tutulmasını vacib sayıb. E.İbrahimov deyib ki, Cinayət Məcəlləsinin 314-2-ci maddəsinə təklif olunan dəyişikliyə görə vəzifəli şəxs tərəfindən dövlətin müstəsna mülkiyyətində olan və özgəninkiləşdirilməsi qanunla qadağan edilən torpaq sahələrinin bələdiyyə mülkiyyətinə və ya xüsusi mülkiyyətə verilməsi haqda qərar qəbul etmə 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, 5 ildən 8 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq. E. İbrahimov onu da deyib ki, qanunsuzluğa yol vermiş vəzifəli şəxslər daha çox müddətinə azadlıqdan məhrum etmə ilə cəzalandırılmalıdır. Komitə sədrinin bunun ardınca dedikləri ictimai müzakirəyə səbəb olub. “Axı hamı bilir ki, vəzifəli şəxslərin icazəsi olmadan bu işlər görülə bilməz. Ona görə də onlarla bağlı qanunvericilikdə sərtləşdirmənin nəzərdə tutulması çox vacib addımdır. Elə bir neçə gün öncə Binəqədi rayonunda baş vermiş dəhşətli yanğınla, faciə ilə bağlı çıxışında da dövlət başçısı bu məsələlərə, torpaqların zəbt olunmasına toxundu, çox yaxşı qeyd etdi ki, bu cür qanunsuzluğa yol vermiş adamlar, vəzifəli şəxslər cəzalandırılmalıdır. O, çıxışında hətta, ”Dostluq" parkı deyilən ərazidə qanunsuz şəkildə villaların tikilməsinə toxunaraq dedi ki, oradakı ərazini zəbt edən və qanunsuz villa tikənlərin kimliyi də bilinmir və bunlar aradan qaldırılmalıdır. Mən də cənab prezidentin dediklərinin tərəfdarıyam. Vəzifəli şəxsin icazəsi olmadan kim gedib torpaq zəbt edə, orada, ev, villa tikə bilər? Ancaq cənab prezidentin də dediyi kimi, kimdən soruşursan, deyir mənimki deyil, mənim xəbərim yoxdur... Axı necə xəbərin yoxdur, necə xəbərin olmaya bilər? Axı əslində hamı bilir ki, o villalar, o qanunsuz, hasarlanmış torpaqlar kimindir. Həmin villalar göydən gəlib yerə düşməyiblər ki? Həmin villaların kimlərə məxsus olduğunu onların sahibləri də, elə o ətrafda yaşayan sadə insanlar da bilirlər. Amma onlar, qanunsuzluğa yol verənlər özlərini bilməməzliyə, görməməzliyə vururlar ki, bunların da qarşısı alınmalıdır" deyə, E.İbrahimov bildirib.

*Bəzi mətbuat orqanları bu fikrə diqqət çəkərək deputatın hətta ölkə başçısının xəbərsiz olduğu villa sahiblərini tanıdığını deməklə prezidenti çətin vəziyyətdə qoyduğunu yazıb. Bütün bunlarla əlaqədar Eldar İbrahimovla danışdıq.*

***- Eldar bəy, torpaqların zəbt olunmasına görə Cinayət və İnzibati Xətalar məcəllələrinə nəzərdə tutulan dəyişikliklər qanunsuz zəbtetmələri dayandıracaqmı?***

- Mən ona nə deyim? Biz qanun qəbul edənik. Qanunu qəbul edirik, ardınca icra strukturu bu qanunla necə işləyəcək, onlardan soruşmaq lazımdır. Mən nə deyə bilərəm?

***- Bu arada Milli Məclisə qanunların icrasına nəzarət etmək üçün əlavə səlahiyyətlərin verilməsi barədə təşəbbüslər də səsləndi. Ehtiyac varmı?***

- Yox. Milli Məclisin heç bir əlavə səlahiyyətə ehtiyacı yoxdur.

***- Mətbuatda sizin komitə iclasında dedikləriniz fərqli şəkildə şərh olunub. Qeyd edilib ki, prezident sökülən villaların sahiblərini tapa bilmədiyini desə də, Eldar İbrahimov “hamı bilir ki, o villalar kimindir” söyləyib...***

- Eldar İbrahimov başqa nə deyir ki? Demişəm ki, hamı bilir, sadəcə olaraq, yalan danışırlar. Məgər o villaların yan-yörəsindəkilər, qonum-qonşular bilmirmi onların sahibi kimdir? Bunu demişəm də, burda nə var? Mən də konkret olaraq onların sahibinin kim olduğunu bilmirəm. Amma onu bilirəm ki, torpağı verən var, bələdiyyəsi var, nə bilim daha kimlər var... Məgər onlar bilmirlər kimə torpaq veriblər? Bunu hamısı bilir.

***- Elə isə onlarda bu cürət hardandır ki, hətta ölkə başçısından da villa sahiblərini gizləyirlər?***

**“Onların öz işləridir, ya kiməsə verərlər, ya sökərlər, dağıdarlar, biz nə deyə bilərik...”**

- Vallah mən bir söz deyə bilmərəm. O işlərin içərisində yoxam. Amma sadəcə olaraq, özümün inamıma görə deyirəm ki, bir yerdə bir villa tikilibsə, onun qonum-qonşusu, torpağı ona verən, onun tikintisinə icazə verən var, necə ola bilər ki, heç kəsin xəbəri olmasın? Mən o məntiqi deyirəm.

***- Mətbuatda gedən xəbərlərə görə, sökülənlər arasında Lerikin icra başçısına məxsus villa da var...***

- Dəqiq bilmirəm ki, kiminki sökülüb, kiminki qalıb. Mənim bu məsələlərdən xəbərim yoxdur. Kiminsə villasının “uçot”unu aparmıram. Mənə nə dəxli var ki, kim tikib, kim sökür... Amma çox sağ ol ki, mənim fikirlərimi düzgün qəbul etdiniz. Sadəcə, inamımla deyirəm, o villalar göydən düşməyib ki? Camaatın gözü qarşısında tikilib. İndi o adamlar qeyri-səmimilik göstərir, demirlər, yaxud aldadırlar, onların öz işləridir.

***- Hacıbala Abutalıbov özü də etiraf etdi ki, Bakıda nə baş verirsə, onun adına yazılır. Villaların icra hakimiyyətlərindən xəbərsiz, icazəsiz tikilməsi real görünürmü?***

- Nə bilim, deyirlər də.

***- “Dostluq” parkında 42 villanın sökülləcəyi deyilir...***

- Düzü, bilmirəm, heç maraqlanmıram da. Allah heç kimin evini yıxmasın. Amma qanunsuz ev tikən adam bilməlidir ki, bir gün onun evi sökülə bilər. Mən kiminsə ayağına daş dəyməsinə razı olan adam olmamışam, razı da deyiləm. Amma kimsə qanunsuzluq edib, indi sökürlər, mən nə deyə bilərəm? Mən qanun qəbul edənəm.

***- İndiki maliyyə böhranı şəraitində həmin villalardan aidiyyəti üzrə istifadə etmək bəlkə daha normal olardı, nəinki sökmək, razısınızmı?***

- Bəlkə də olardı, əlbəttə. Ancaq deyə bilmərəm. Bu, icra strukturunun işidir, mən onların işinə müdaxilə etmirəm, edə də bilmərəm. O baxımdan ki, konstitusiya ilə mənim buna ixtiyarım da yoxdur. Konkret olaraq bizim icra strukturuna göstəriş verməyə ixtiyarımız yoxdur. Onların öz işləridir, ya kiməsə verərlər, ya sökərlər, dağıdarlar, biz nə deyə bilərik...

***- Deputat həmkarlarınızdan biri təklif edib ki, tikinti sahəsində qanunsuzluqların qarşısını almaq, faciəvi hadisələrin baş verməsinə imkan verməmək üçün Tikinti Nazirliyi yaradılsın. Bu təşəbbüsü necə qarşılayırsınız?***

- Sən də bilirsən, mən də, onsuz da nazirliklərimiz çoxdur. Elə olanlarımız bəsdir. İlin-günün bu vaxtında hər şey üçün durub nazirlik yaradacağıq?

***- Elə isə Binəqədidəki faciənin başqa formada təkrarlanmaması üçün nə təklif edirsiniz?***

- Bunun üçün aidiyyəti nazirliklər var da. İşləri ilə məşğul olmalıdırlar.

***- Sonuncu toplantıda ölkə başçısının sərt fikirləri oldu. Cəzalandırmalar daha yuxarı müstəviyə keçə bilərmi?***

- Mən də ölkə başçısının dediyi sərt fikirləri dəstəkləyirəm, komitə iclasında da dedim. Tamamilə doğru deyir. Əlbəttə, istər deputat, istər məmur, istər sadə insan olsun, biz özümüz də hər şeyi fikirləşməliyik də. Cəzalandırmalara gəldikdə, müvafiq qurumların işidir. Bu barədə heç bir söz deyə bilmərəm. Yalnız onu deyə bilərəm ki, kaş belə hadisə olmayaydı.

❑ Elşad PAŞASOY

# Polis generalı Röyanın “razborka”sından danışdı



Röya Ayxan

## Səhlab Bağırov: “Qanun pozuntusu olubsa, mütləq onu törədən şəxs və ya şəxslər cəzalanacaq”

**“İndicə həmin məsələ ilə bağlı mediada yayılan materialları oxuyuram. Qanun pozuntusu olubsa, mütləq onu törədən şəxs və ya şəxslər cəzalanacaq”.**



Səhlab Bağırov

Bunu aznews-a açıqlamasında Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırov müğənni Röyanın onu internetdə təhqir edən şəxsi “razobrkaya” çağırması, baş verənləri videoya çəkib internetdə yerləşdirməsi ilə bağlı məlumatı şərh edərkən bildirib.

**S.Bağırovun sözlərinə görə, polisin zərərçəkmişlə qarşı tərəfi üzləşdirməsində qeyri-qanuni heç bir əməl yoxdur, təhqiqat müddətində polis tərəfləri üzləşdirə bilər.** “Lakin bu, polisin qarşısında olmalıdır. Polis şikayətçiyə onu təhqir edən şəxsin kimliyi barədə məlumat verə bilər. Lakin zərərçəkmiş bunun üçün yazılı şəkildə müraciət etməlidir. Şifahi şəkildə polisin kiməsə məlumat ötürməyə səlahiyyəti çatmır” deyə, general bildirib.

**Səhlab Bağırov hər hansı şəxsin videosunu gizli şəkildə paylaşmağın da qeyri-qanuni olduğunu deyib:** “Video gizli çəkilib paylaşılıbsa, bu, qeyri-qanuni əməldir. Kimliyindən asılı olmayaraq, hər kəs qanunlarımıza hörmətlə yanaşmalıdır”.

Qeyd edək ki, vəkil Adəm Məmmədov məlum video ilə bağlı Röyanın həbs edilməsini tələb edib. Mətbuatda, sosial şəbəkələrdə vəkilin bu məsələdə fəallıq göstərməsinin kimlərinsə təşəbbüsü və göstərişi əsasında olduğu barədə müzakirələr gedir.

**“Yeni Müsavat”ın əməkdaşı yaranan müzakirələr barədə vəkil Adəm Məmmədovla danışıb. Vəkil müraciəti haqda bunları dyeib:** “Bu yalnız və yalnız mənim öz təşəbbüsümdən irəli gələn məsələdir. Məlum videonu izlədikdən sonra bərk hiddətləndim və vətəndaşlıq borcum olaraq məsələyə öz mövqeyimi bildirdim. Bu məsələdə təkcə mən deyil, digər hüquqşünaslar, o cümlədən bütün Azərbaycan cəmiyyəti öz münasibətini bildirməlidir. Əks təqdirdə, cəmiyyətə bu dəb halını ala bilər. Bu isə cəmiyyətdə xoşagəlməz problemlərin yaranmasına gətirib çıxara bilər. Buna görə çalışmalıyıq bu məsələnin üzərinə gedək ki, gələcəkdə hər hansı bir məşhur və ya nüfuzlu bir şəxs kimisə bu dərəcədə aşağılamasın.

Doğrudur, şəxsən mən Röya xanımın səsinin vurğunu və pərəstişkarlarından biriyəm. Lakin unutmamalıyıq ki, biz hüquqi bir dövlətdə yaşayırıq. Əgər kimsə birinin şəxsiyyətinə toxunubsa, qarşı tərəf məsələni hüquq-mühafizə orqanlarına həvalə etməlidir. Röya xanım bu məsələni öz bildiyi kimi həll etməyə çalışıb, yəni özü məhkəmə qurub".

Xatırladaq ki, Röya Ayxan “İnstagram”da onu təhqir edən Elnur adlı şəxsi polis vasitəsilə taparaq daha sonra iki nəfərlə birlikdə həmin şəxslə görüşüb söyüşlə bağlı sorğu-sual edib. Müğənni olayları gizlincə videoya çəkdirərək sonradan görüntüləri öz “İnstagram” səhfəsində paylaşıb.

❑ XALİDƏ

YENİ MÜSAVAT
N 114 (6142) 27 may 2015



# S.Lavrov nə deyəcəkmiş?

Hüseynbala SƏLİMOV

**Bəlkə də ondan başlamaq daha düzgün olardı ki, bu yazını beynəlxalq filoloqlar günündə yazmalı olduq. Ona görə yox ki, filoloq və filologiya sözləri dəqiq elmlərin adamlarının dilində bir qədər ironik səslənir...**

Düzdür, son illərə qədər bizdə "filoloji siyasət" ifadəsi çox dəbdə idi, az qala hamı öz opponentini neytrallaşdırmaq üçün bu ifadədən istifadə edirdi...

Amma zaman göstərdi ki, heç birimiz siyasətdə söz deyə bilmədik-kiminin buna ümumiyyətlə imkanı olmadı, olanların isə dediklərini özlərindən başqa bir kimsə eşitmədi...

Ona görə də filoloq və filologiya sözlərini bir tərəfə qoyaq, keçək əsas mətləbə. O məsələyə ki, bilavasitə Qarabağ problemilə bağlıdır. Bəli, Riqadan narazı dönən xarici işlər nazirimiz dərhal Moskvaya üz tutdu.

Riqada nə baş verdi, nə baş vermədi, bunu özümüz üçün yəqinləşdirə bilmədik. Başa düşdüyümüz və seyr etdiyimiz budur ki, Ermənistanın prezident səviyyəsində təmsil olunduğu sammitdə biz nazir və bir də məmurla təmsil olunmuşduq...

Olsun. Bunu riqadakılar problem etmədi və gəlin biz də etməyək. Mənim üçün daha çox xarici işlər nazirimizin sammitdən sonrakı müsahibəsi maraqlı göründü. Dediyinə görə, guya S.Lavrov Qarabağla bağlı nəsə maraqlı bir şey deyibmiş. Bunu aydınlaşdırmaq üçün nazir Moskvaya yollanacağını dedi...

Gözlədik. Bütün xəbər proqramlarını izlədik. Amma özümüz üçün bir şey yəqinləşdirə bilmədik - S.Lavrov faktiki olaraq yeni bir şey demədi. O şeyləri ki, o, dedi, onları biz azı yüz dəfə eşitmişik...

Ona görə də bir daha filologiya sözü yadımıza düşdü və belə başa düşdük ki, Rusiyanın da xarici işlər naziri lap əməlli-başlı filologiya ilə məşğuldur...

Əslinə qalanda, axı nə baş verib ki, biz Qarabağ problemində ciddi bir dönüşə ümid edək? O sözləri ki, hər gün, hər saat deyirlər, onlar az qala 30 ilin siyasi-diplomatik ştamplarıdır...

Bəli, S.Lavrov yeni heç nə demədi. Mən bu adamın "səmimiyyət"ini Ermənistanda bir rus əsgərinin bir ailəni qətlə yetirməsilə bağlı yaranan problem vaxtı gördüm. Ermənilər bir az dikbaşlıq edir və əsgərin Rusiyada yox, Ermənistanda mühakimə olmasını tələb edirdilər...

Qərəz, həmin vaxt S.Lavrov ermənilərin həbs etdiyi iki azərbaycanlıdan birinin adını çəkdi - o azərbaycanlının ki, əslində Rusiyanın vətəndaşıdır...

Amma sonradan S.Lavrov bunu büsbütün unutdu. Neçə dəfə deyildi ki, a balam, girovlardan birinin özü, digərinin isə həyat yoldaşı Rusiya vətəndaşıdır. Amma Rusiya diplomatları eşitmədilər və indi də eşitmirlər...

Ona görə də S.Lavrova ümid bəsləməyə dəyməz. Ən azı ona görə ki, o, Rusiyanın xarici işlər naziridir. Düzdür, bizim hakimiyyət təmsilçiləri Rusiya amilinə həmişə böyük önəm verirlər. Amma Rusiya ölkəyə münasibətdə heç vaxt bu gözləntiləri doğrultmur...

Azərbaycanda təhlükəsizliyin iki meyarı var-biri dövlətin və millətin təhlükəsizliyi, o birisi isə hakimiyyətin təhlükəsizliyidir. Azərbaycan üçün ən əsas məsələ ikinci-hakimiyyətin təhlükəsizliyi olub...

Nə etmək olar? Bizim hakimiyyət də belə hakimiyyətdir-ölkəyə qarşı olanları görmür, özlərinə qarşı olanları isə ölkəyə qarşı olanlar kimi təqdim edirlər...

Adını da qoyublar "müstəqil siyasət". Elə müstəqillik də özlərinə sərf edən bir biçimdə məqbul sayılır və bunu bir azacıq keçmək tələb olunanda dərhal təşvişə düşür, min cür bəhanələr uydururlar.

Mən razıyam, siyasət və diplomatiya adamlarına şans vermək lazımdır ki, onlar nəsə edə bilsinlər. Amma, əzizlərim, 22 il keçib və bu müddət ərzində biz hələ dostumuzu-düşmənimizi tanıya bilməmişik, ondan qala, problemi həll etmək ola...

Biz jurnalistik və heç bir siyasi ambisiyamız yoxdur. Dediklərimiz də bir jurnalist və vətəndaş mövqeyidir. Amma 22 il bir igidin ömrüdür. Bundan da artıq şans olarmı?..

Demirəm ki, asandır. Yox, asan deyil. Amma hakimiyyətə gələn irəlicədən də bilməlidir ki, asan olmayacaq...

Əslində, vallah, bizim çox islah mükəlifətimiz və ondan da islah cəmiyyətimiz var- insanlar səbr edir və gözləyirlər...

Başqa yerlərdə belə deyil- hamı tələb edir... Amma bizimkilər səbr edir. Ona görə də, heç olmasa, insanlara həqiqəti deyin- məsələn, deyin ki, Qarabağ probleminin həll olmamasını istəyən bir nəfər və bir ölkə varsa, o da S.Lavrov və bir də Rusiyadır...

# Milli Şura meriyanın mitinq təklifini qəbul etdi

## Aksiya mayın 30-u keçiriləcək; iyun ayında mitinqlər qadağan oluna bilər

**Bakı Şəhər İcra Hakimiyyəti Milli Şuranın mayın 31-nə təyin etdiyi mitinqlə bağlı müraciətə mitinqin mayın 30-da keçirilməsinə razılıq verməklə münasibət bildirib.**

BŞİH-in cavabında bildirilir ki, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun müddəalarına riayət olunmaqla 30 may 2015-ci il tarixdə saat 15.00-dan 17.00-dək Bakı şəhəri, Yasamal rayonu, M.Seyidov küçəsi, 3155-ci məhəllədə yerləşən Yasamal Rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul" stadionu) mitinqin keçirilməsinə razılıq verilir.

Mitinqin təşkilatçılarından isə xahiş olunur ki, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna əsasən ayrı-seçkiliyə, ədavətə və ya zorakılığa çağırışlarla müşayiət olunan, milli, irqi və ya dini ədavəti təbliğ edən və təhqiredici şüarlardan istifadə olunmamasına ciddi nəzarət edilsin. Həmçinin gələcəkdə planlaşdırılan mitinqlərin şənbə günlərinə təyin olunması məqsədəuyğun olunduğu bir daha qeyd olunub.

Qeyd edək ki, BŞİH bununla üçüncü dəfə idi mitinqlə bağlı müraciətə cavabında aksiyanın bir gün öncə keçirilməsini təşkilatçılara tövsiyə edirdi. Bundan əvvəl Milli Şura bir dəfə mayın 3-də mitinq keçirmək üçün BŞİH-ə müraciət edib. BŞİH isə mitinqin şənbə günü- mayın 2-də mitinq keçirilməsinə razılaşdığı barədə təşkilatçılara cavab verib. Milli Şura bu cavabın qanunsuz olduğunu bəyan edib və mitinqi keçirməyib.

İkinci dəfə Milli Şura mayın 24-də mitinq keçirilməsinə razılıq verilməsi üçün BŞİH-ə məktub ünvanlayıb. BŞİH bu dəfə də mitinqin bazar günü deyil, şənbə günü-mayın 23-də keçirilməsinə etiraz etmədiyi barədə təşkilatçılara cavab göndərib. Milli Şura bu dəfə də cavabın qanunsuz olduğunu əsas göstərərək təklifi qəbul etməkdən imtina eləyib.

Belə görünür ki, Milli Şura bu ötür-ötür oyununun üçüncü raundunu pozmaq qərarına gəlib. Məhz ona görə də Bakı Şəhər İcra Hakimiyyətinin mitinqin mayın 31-də deyil, 30-da keçirilməsinə razılıq verməsi ilə bağlı dünən Milli Şuranın Koordinasiya Mərkəzi toplantı keçirib və müzakirə aparıb. AXCP sədrinin müavini Fuad Qəhrəmanlı APA-ya deyib ki, Milli Şuranın Koordinasiya Mərkəzinin toplantısında mayın 30-da mitinq keçirməklə bağlı məsələ müzakirə edilib. Bakı Şəhər İcra Hakimiyyətinin mitinqə mayın 30-u üçün icazə verməsini nəzərə alaraq, həmin tarixdə mitinq keçirmək məqsədəuyğun hesab edilib.



Mitinq mövzusunda "Yeni Müsavat"a daxil olan məlumatda isə deyilir ki, 30 may mitinqi müxalifət düşərgəsinin qarşıdakı bir ay ərzində keçirəcəyi tək razılaşdırılmış mitinq olacaq. Belə ki, Avropa Oyunları ilə əlaqədar iyun ayında kütləvi etiraz aksiyalarına qadağa qoyulacaq. İyun ayında kütləvi aksiya keçirmək üçün müraciətlərə BŞİH razılıq verməyəcək.

❑ E.SEYİDAĞA

# Müsavatın qalmaqallı rayon təşkilatı yenidən qurulacaq

## Başqan müavinindən "fiksiya siyahıları vahid mərkəzdən idarə olunur" bəyanatı

**Müsavat Partiyasının Suraxanı rayon təşkilatının bütün seçkili orqanlarının buraxılması barədə Müsavat Divanının qərar qəbul etməsindən 15 gün keçsə də bu rayon təşkilatı ilə bağlı qalmaqal durmaq bilmir. Az qala hər gün mediada "Suraxanı rayon təşkilatından istefalar" başlığı ilə yazılar, bəyanatlar yayılır.**

İndiyə qədər mediada bu rayon təşkilatından "istefa verənlər"in ümumi siyahısı tutulsa ölkədəki bir çox partiyaların üzvlərinin ümumi sayı qədər edər.

Əslində isə xatırlatdığımız kimi, mayın 11-də Suraxanı rayon təşkilatının seçkili orqanları buraxılıb və yeni seçkili orqanların formalaşdırılması üçün 12 nəfərdən ibarət Təşkilat Komitəsi yaradılıb.

Sözügedən təşkilat komitəsinin işinin nə yerdə olduğu və istefalarla bağlı vəziyyəti öyrənmək üçün Müsavat Partiyası başqanının müavini Elman Fəttahla danışdıq. Elman Fəttah bildirdi ki, Suraxanı rayon təşkilatının ümumi yığıncağının keçirilməsi ilə bağlı yaradılmış 12 nəfərdən ibarət təşkilat komitəsi toplantısını keçirib, öz sədrini seçib: **"Yaxın zamanda Suraxanı rayon təşkilatının ümumi yığıncağının keçirilməsi gözlənilir".**

E.Fəttah onu da dedi ki, son zamanlar təşkil olunmuş "istefa" siyahıları əsasən fiksiyadan ibarətdir, Müsavat Partiyasına qarşı aparılan kampaniyanın tərkib hissəsidir və vahid mərkəzdən idarə olunur.

Elan olunan siyahılarda adları olan adamlarla partiya rəhbərliyinin əlaqə saxlayıb-saxlamadığı, onları dinləyib-dinləmədiyinə gəlincə, E.Fəttah qeyd etdi ki, bu işi Müsavat Partiyasının təşkilat departamenti həyata keçirir: **"Bu işin aparılması zamanı həmin siyahıların fiksiya olduğu bir daha sübuta yetirilib. Məsələn, Xətai rayon təşkilatında istefa siyahısı ilə bağlı araşdırma aparanda bəlli oldu ki, o siyahıda adı qeyd olunan 50 nəfərdən 30 nəfərin bu proseslə əlaqəsi yoxdur. Siyahıda 10-15 il öncə Müsavatdan xaric edilmiş, özü getmiş şəxslərin adları var idi. Hətta vəfat etmiş şəxsin də adı bu siyahıya daxil edilmişdi".**

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 114 (6142) 27 may 2015

# Daha bir şirkət rəhbəri qandallandı

**Beynəlxalq Bankdan külli miqdarda kredit götürüb qaytarmayan iş adamları ilə bağlı başlanmış istintaqda yeni mərhələ başlayıb. Həbs edilənlərlə bağlı rəsmi məlumatlar çox azdır və bu da bu işlə bağlı müəmmanı daha da artırır. Amma bu işdə çətinlik çəkən təkcə media deyil, hətta istintaqa cəlb olunanlar belə nə vaxt DİN Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırılacağını, barəsində məhkəmə qərarı verilib-verilməyəcəyini dəqiq bilmirlər. Təsadüfi deyil ki, prezident İlham Əliyev yanğınla bağlı müşavirədə iş adamlarının həbsindən danışarkən "Bir adam da məsuliyyətdən qaça bilməz, xüsusilə dövlət məmuru. Cinayət törətmisənsə, get, cəzasını çək" deyə, sərt mövqe ortaya qoyub.**




# Pirverdiyevin azadlıq "işığı"na ciddi təhlükə!

## Beynəlxalq Bank işi ilə bağlı istintaqa çağırılan "Azərenerji" rəhbərinə daha bir zərbə - həbsdəki şəriki ona qarşı ifadə verib; "City Devoloper" MMC-nin baş direktoru da bank borcuna görə təcridxanaya göndərildi; dövlət başçısının "bir adam da məsuliyyətdən qaça bilməz, xüsusilə dövlət məmuru" sözləri daha kimlərin sonunu gətirəcək?

Son günlər "Azərenerji" prezidenti Etibar Pirverdiyevin istintaqa cəlb edilməsi ilə bağlı xəbərlər intensivləşib. İlk olaraq "Yeni Müsavat" E.Pirverdiyevin mayın 19-da BMCMİ-yə çağırılması barədə xəbər yayıb. Xəbərdə bildirilirdi ki, E.Pirverdiyev idarədə bir neçə saat dindirilib. Məlumatda o da bildirilirdi ki, E.Pirverdiyevin rəhbərlik etdiyi qurum Beynəlxalq Banka olan 104 milyon manat məbləğində krediti qaytarmayıb. E.Pirverdiyev məhz bu borc məsələsinə görə istintaqa çağırılsa da, onun Bayraq Meydanı İdarəsinin sabiq rəhbəri, "AzİmporT" şirkətinin sahibi Rəşad Məmmədovun korrupsiya əməllərinə görə də başının ağrıya biləcəyi qeyd olunurdu. Çünki Bayraq Meydanının tikilməsi E.Pirverdiyevə həvalə olunmuşdu və R.Məmmədovun həbsindən sonra tikinti zamanı baş vermiş yeni korrupsiya faktları üzə çıxıb. Virtualaz.org saytı mötəbər qaynaqlardan məlumat əldə edib ki, Rəşad Məmmədov Etibar Pirverdiyevə qarşı ifadə verib. Söhbət on milyonlarla dollarlıq yeyinti faktından gedir. Mənbə bildirib ki, Rəşad Məmmədovun istintaqa verdiyi ifadə əsasında "Azərenerji" rəhbərinin də istintaqa çağırılacağı gözlənilir.

Saytın iddiasına görə, Etibar Pirverdiyev Rəşad Məmmədovla biznes ortağı olub. Dövlət Bayrağı Meydanı kompleksinin tikintisi layihəsini baş podratçı qismində Pirverdiyevin nəzarətində olan "Azenco" şirkəti həyata keçirib. "AzİmporT" şirkəti isə bu layihədə əsas podratçıdır.

Dövlət Bayrağı Meydanı kompleksinin yerləşdiyi ərazidəki obyektlərin, yaşayış binalarının söküntüsünü də "Azenco"nun sifarişi əsasında "AzİmporT" həyata keçirib. Yəni sökülən obyektlərə və evlərə görə dövlət büdcəsindən ayrılan kompensasiyalar bu iki şirkətin əli ilə mənimsənilib.

E.Pirverdiyevin nəzarətində olan, "Azərenerji" ASC-nin əsas podratçısı "Azenco" şirkətində də *(ASC-nin bütün iri infrastruktur layihələrini bu şirkət həyata keçirib)* vəziyyətin acınacaqlı olduğu haqda məlumat var. Şirkət milyardlarla manatlıq tikinti layihələrini həyata keçirsə də ötən il onun işçilərinin əmək haqqı ala bilmədiyi və bu üzdən aksiyaya hazırlaşdıqları məlum olmuşdu.

Və Rəşad Məmmədovun həbsindən az sonra elan edildi ki, "Azenco" şirkətinin bütün menecmenti - idarə heyətinin üzvləri, icraçı direktor və digərləri dəyişdiriləcək, şirkətin strukturu yenilənəcək. Bu barədə qərarlar mayın 30-da şirkətin səhmdarlarının ümumi yığıncağında qəbul edilməlidir. Ehtimal olunur ki, bu dəyişiklik şirkətin Pirverdiyevdən alınması məqsədi daşıyır.

Etibar Pirverdiyevin hakimiyyətdə nüfuzunu itirdiyini bu il fevral ayının 10-da prezidentin sərəncamı ilə "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin yaradılması və ölkə ərazisində elektrik enerjisini satışının "Azərenerji"dən alınaraq bu quruma həvalə olunması da təsdiqləyirdi. Xəbərlərə görə, E.Pirverdiyev son günlər barəsində yayılan və yazılan məlumatlardan da çox narahatdır. Mümkündür ki, bu narahatlığa əsas səbəb hakimiyyət rəhbərinin həm Beynəlxalq Bank, həm də Rəşad Məmmədovun korrupsiya əməlləri ilə bağlı tutduğu sərt mövqedən qaynaqlanır. Çünki "Azərenerji" prezidentinin korrupsiya əməlləri ilə bağlı ittihamlar mediada yeni deyil və E.Pirverdiyev heç vaxt bu kimi xəbərlərə reaksiya verməyib. İndi belə görünür ki, onunla bağlı məsələ kifayət qədər ciddidir və onun "işığı" bu "qasırğada" sönə bilər.

***

Bu arada məlum olub ki, "Bank Technique" Müşahidə Şurasının sədri Rövşən İsmayılov mayın 25-də axşam sərbəst buraxılıb. Redaksiyamıza məlumat verən mənbə deyib ki, "Bank Technique"də araşdırmalarla bərabər həm də təhvil-təslim başlayıb. Cahangir Hacıyevin yaxın adamları, o cümlədən vaxtilə onun müavini olmuş, 2012-ci ildən isə "Bank Technique" Müşahidə Şurasının sədri olan Rövşən İsmayılov və digərləri idarəetmədən uzaqlaşdırılacaqlar. Bu prosesin gedişində həbslərin olacağı da qaçılmazdır, çünki "Bank Technique" böyük məbləğdə və həm də girovsuz kredit verilib.

Kredit borcları qalmaqalı ilə bağlı daha bir nəfər həbs edilib. "City Devoloper" MMC-nin baş direktoru Ratmir Ələşrəf oğlu Bəkirov saxlanılıb.

Bu barədə iş adamının vəkili Kamandar Nəsibov APA-ya məlumat verib. K.Nəsibov bildirib ki, R.Bəkirov barədə Nərimanov Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Şirkət rəhbəri Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə ittiham olunur. Ona bu maddə ilə cinayət işi açılıb. Məlumata görə, məhkəmə qərarı ilə həbs edilənlərin əksəriyyəti borcunu qaytarmaq iqtidarında olmayanlardır. Borcunu vermək iqtidarında olmayanların bəziləri isə ölkədən qaçabilib. Bu sırada "Hafka" ləqəbli Hafiz Məmmədov və eks-deputat Dünyamin Xəlilov da var. İddialara görə, qaçanların hansı ölkədə gizləndikləri müəyyən edilir.

***

Həbsdə olan iş adamı Nizami Piriyevin döyülməsi ilə bağlı vəkilinin yaydığı xəbərə isə DİN-in mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov münasibət bildirib. E.Zahidov deyib ki, N.Piriyevin döyülməsi ilə bağlı məlumatların heç bir əsası yoxdur. **"Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq) maddəsi ilə qaldırılmış cinayət işi üzrə təqsirli bilinərək məhkəmənin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilən Nizami Piriyevin Müvəqqəti Saxlama Yerində (MSY) guya döyülməsi və işgəncəyə məruz qalması barədə yayılan məlumatların heç bir əsası yoxdur. Məqsədli şəkildə uydurularaq mətbuata göndərilən bu məlumatı qətiyyətlə təkzib edərək bildirmək istəyirəm ki, DİN-in tabeliyində olan bütün MSY-də, o cümlədən BMCMİ-nin nəzdində olan MSY-də saxlanılan şəxslər üçün müasir dünya standartlarına tam cavab verən şərait mövcuddur. Rəhbərliyin birbaşa nəzarətində olan saxlama yerlərində hər hansı qanunsuz hərəkətin törədilməsi mümkünsüzdür. Orada saxlanılan hər bir təqsirləndirilən şəxs, o cümlədən Nizami Piriyev qanunauyğun olaraq vəkillə təmin olunur. Bundan başqa, istər yerli, istərsə də beynəlxalq hüquq-müdafiə təşkilatlarının nümayəndələri mütəmadi olaraq müvəqqəti saxlama yerlərində monitorinqlər keçirirlər və hər dəfə də onlar öz hesabatlarında müsbət rəylərini qeyd ediblər"** deyə, DİN rəsmisinin açıqlamasında qeyd olunub.

Xatırladaq ki, N.Piriyev Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq törətmə) maddəsi ilə cinayət işi açılan N.Piriyev 3 ay 24 gün müddətinə həbs edilib.

İş adamı Beynəlxalq Bankdan götürdüyü külli miqdarda kredit borcunu geri qaytarmadığı üçün həbs edilib.

❑ **"Yeni Müsavat"**

# Özlərini kriminal avtoritet kimi aparanların ölkəsi



**Xalid KAZIMLI**

**Ölkə cəzasız şəkildə yaşayan, fırlanan zorakı adamlarla qaynaşır. Hər gün mediada neçə-neçə uyğun xəbər görürük. Beş bu qədər də mətbuata çıxmayan hadisələr var.**

Baş nazirin müavini jurnalistlə kriminal avtoritetlər tövrüylə danışırsa və media əhli buna təhəmmül etməyərək reaksiya verirsə, bu, qalmaqala, müzakirələrə səbəb olur. Ancaq tanınmış bir şəxsin idmançı oğlu gecə barında bir qadını sillə-təpik altına salıb, yerlərdə sürüyürsə, maşına basıb aparırsa, zorlamaq təşəbbüsü göstərirsə, buna o qədər də fikir verən olmur.

Burada artıq çoxları idmançının tərəfindədir. "Gecə saat 3-də düz-əməlli qadının barda nə işi var" kimi tirivial bir sualı yüzlərlə adam təkrarlayır. Yaxşı, deyək ki, o qadın "düz-əməlli" deyil, lap bar qadınıdır bu o deməkdir ki, qolunun zoruna güvənən biri onu zorla yatağına sala, bu istəyi alınmayanda girov götürə, bədən xəsarətləri yetirə bilər? Hətta bunu etdikdən sonra o, cəzasız qalmalıdır?

Tanınmış müğənni Röyanın hərəkəti də hüquqi dövlətlərdə heç bir dəftər-kitaba sığan iş deyil. Tutaq ki, bir məsuliyyətsiz gənc onu təhqir edib, bu halda onu cəzalandırmaq üçün dövlət var, hüquq-mühafizə orqanları var, qanunlar var. Biri səni təhqir edibsə, sən öz bildiyin üsullarla onu cəzalandıra bilməzsən. Bir adamı öz iradəsinin əksinə olaraq tutdurub harasa gətirməyin adı adam qaçırmaqdır, onu təkləmək, köməksiz vəziyyətindən istifadə edərək şərəf və ləyaqətini alçaltmaq cinayətdir. Hələ bir şəxs bunu bir neçə nəfərlə əlbir olaraq edibsə, üstəlik, öz hərəkətlərini videolentə alıblarsa, bu, mütəşəkkil cinayətkarlıq qrafasına daxil olur.

Bütün bu hərəkətlərə yol verən şəxs, nə qədər haqlı olsa da, qanun qarşısında cavab verməlidir. Əgər təhqiri içinə sindirə bilmədinsə, dövlətin o şəxsə verəcəyi cəza ilə qane olmadınsa və "düşmən"inin özün cəzalandırmaq istədinsə, bunu etdinsə, zəhmət çək, cavab ver. Hüquq-mühafizə orqanları bunu təmin etməlidirlər. Yoxsa bəzi imtiyazlı, məşhur, imkanlı adamların qanunun fövqündə olması kimi xüsusat yoxdur.

Ən pisi odur ki, cəmiyyətdə Röyaya haqq qazandıranlar, onun kriminal avtoritet kimi hərəkət edərək, qisas almasına, yaxud dəbdə olan dildə desək, "təhqir edən oğlanı sındırması"na haqq qazandıran xeyli adam var.

Bu, olduqca yanlış bir düşüncədir. Sabah həmin o "sındırılmış oğlan"ın bir avtoritet qohumu-qardaşı meydana çıxsa və qisas almaq üçün Röyanı və onu müşayiət edən cüssəli şəxsləri cəzalandırmaq istəsə, başlarına silah dayasa necə olacaq?

Yəni hər özünü zorlu sayan adam öz üzərinə məhkəmə funksiyası götürüb kimisə mühakimə edə, sonra isə ədliyyə işçisiymiş kimi öz hökmünü icra edə bilməz. Dövlət nə günədir?

Əgər dövlət belə məsələlərə müdaxilə edərək özbaşınalıq edən hər kəsi yerində oturtmursa, özünü cəzasız mühitdə hiss edərək qabağına çıxanı basıb-döyən, döydürən adamları cəzalandırsa, bu halda heç bir hüquqi dövlətdən söhbət gedə bilməz. Dövlət cəngəllik qanunları ilə, mafiya qaydaları ilə idarə olunmamalıdır.

Çox təəssüf ki, bu ölkədə yüzlərlə, hətta minlərlə adam var ki, özlərini qanunların fövqündə hiss edirlər. Onlar küçədə , yolda istədikləri sürətlə avtomobil idarə edə, hətta qabaqlarına çıxanın belindən keçib gedə bilərlər. Bilirlər ki, cəzalanmayacaqlar. Yüzlərlə belə fakt var ki, imkanlı, mənsəbli şəxslərin özləri və övladları ölümlə nəticələnən qəza törədiblər, yaxud da kimisə ölümcül döyüblər, amma onlara "bunu niyə elədin" deyə sorğu soran olmayıb.

Bir imkansız, tərəfsiz adam kiməsə cavab qaytaranda qanunlar bütün sərtliyi ilə işə düşür, amma harın bir gənc adam öldürür, cəzasız qalır.

Keçən il döyülən və döyülmə anı videolentə alınmış jurnalisti döyən də, döydürən də qısa müddətdən sonra bəlli oldu, amma sifarişçi cəzasız qaldı. Dövlət o adama heç nə etmədi. Hakimiyyət baş tutmayan qətlin sifarişçisini himayə etdi.

O vaxtdan bəri xeyli o cür hadisə baş verib və heç birində qanunlar işləməyib.

Xalq bundan çox narazıdır. Əgər qanunlar hamı üçün eyni olsa, onun sərtliyinə dözmək olar. Ancaq qanunlar kasıba sərt, varlıya pilə kimi yumşaq olanda, bir az pullanan hər kəs özünü situasiyanın hökmranı sayır.

YENİ MÜSAVAT
N 114 (6142) 27 may 2015



# Amaşovun Abidə məktubu haqda

Zamin HACI
zaminhaci@gmail.com

"Ancaq indi müxtəsər surətdə bunu deyə bilərəm ki, Məşhədi-müqəddəsdə bir abid peyda olub, bunun ismi-şərifi Şeyx Nəsrullahdır"

*(Mirzə Cəlil, "Ölülər")*

**Yapistlərin dediyi "davamlı inkişaf konsepsiyası" bilirsinizmi nədir? Bilmirsinizsə, bunu biznesmen Nizami Piriyevin örnəyində tam anlamaq mümkündür. Piriyev yapizmin iqtisadi inkişaf simvolcuqlarından, rejimin "iqtisadiyyatı güclü olan dövlət hər zada qadirdir" afyorizminin canlı örnəklərindən biri idi. O səviyyədə ki, hətta 2009-cu ildə Britaniya kimi eşşək boyda dövlətin keçmiş baş nazirini - rüşvətxor dılğır Toni Bleyeri Lökbatan yaxınlığındakı Mətanət, üzr istəyirəm, Metanol zavoduna (günahın hamısı o Əliverdiyevadadır, hər yerdə gözümüzə görünür), açılış mərasiminə sürüyüb gətirmişdi. Rejim forslanırdı ki, bax, görürsünüz, bizi bəziləri repressiv, insan haqlarını pozan-zad adlandırır, bəs Bleyer niyə bizimlə əməkdaşlıq edir? Halbuki, Bleyer demokratiya rəmzi idisə o zaman Səyavuş Novruzovu sürrealizmin banisi saymaq olardı.**

Elə Britaniya mətbuatı da o vaxt Bleyeri biabır edən yazılar verdi, nəticədə Toni müəllim Bakıda yediklərini qusmalı oldu. Yanılmıramsa, hətta ona verilən 200 min dollar rüşvət-qonorarı da hansısa xeyriyyə fonduna bağışlamağa məcbur edilmişdi.

Bəs bunlar niyə yadıma düşdü? Dünən xəbər lentində gözümə dəydi: Nizami Piriyevi bank kreditləri, iqtisadi maxinasiyalar, necə deyərlər, "maliyyə xəyanəti" üstündə tutublar, adam içəridən vəkili vasitəsilə mesaj göndərib ki, mənə kömək edin, hər gün döyülürəm, işgəncə altındayam.

Təsəvvür edin, adam Bleyerlə oturub-dururdu, indi isə prokurorluq-polis-çekist orqanlarındakı *(istintaqı kimin apardığını bizə deyən yoxdur)* qolu zorba, boynu yoğun gənclər tərəfindən işgəncələrə məruz qalır. Bəlkə Bleyerə müraciət edək, bu dəfə də dostunu xilas eləmək üçün Bakıya gəlsin? Dost yolunda boran olar, qar olar! Qoy bir-iki zopa da Bleyer yesin.

Sözgəlişi, bu yaxında hardasa belə məlumat da gözümə dəymişdi ki, ABŞ prezidenti Obamanın kredit borcu var imiş. Hardansa ipoteka krediti alıbmış. Dəli şeytan deyir ki, ölkəmizdəki son vurhavura Barak Hüseynoğlunu da qatasan. İstintaqla müəyyən edilə ki, vaxtilə konqresmen vəzifəsində ikən Bakıya səfər edən Obama bizim dövlət başçısından "Memar Əcəmi" metrosu tərəfdəki "Mızdonalds"ın sökülməməsini xahiş edərkən Beynəlxalq Bankdan müvafiq kredit almışdır. Kredit tərəfimizdən aşkar edilib götürülmüşdür. Yox, götürülməyibdir, bunu trafaret olaraq yazdım. Amma Barak Obamanın Beynəlxalq Banka kredit borcu səbəbindən ABŞ-dakı bəzi ermənipərəst dairələri müstəqil dövlətçiliyimizin üstünə qaldırıb qısqırtması necə də geopolitik bir plan olardı... Məncə bu, heç Beynəlxalq Avrasiya Minatəmizləmə, Hotelçilik, Qarpız Bostanı və Hətta Mətbuat Fondunun (BAMHQBHMF) şefi Umud müəllimin də ağlına gəlməzdi. İşləmirlər axı. Hamısı eləcə kredit alır. Fantaziya gücünü işə salıb özlərini yormaq istəmirlər. Guya hər şeyi bunların əvəzindən güc nazirliklərinin rəhbərləri eləməlidir. Bəs sizin dövlətçilik təfəkkürünüz hardadır?

Yenə sağ olsun, Mətbuat Şurasının sədri Əflatun müəllim dayanmadan çalışır, dövlətçiliyimizin binasını ucaldır. Misal üçün, bu günlərdə Abid Şərifova məktub yazmışdır. Məktubda Şərifovdan media qurumlarına hörmətlə yanaşmaq tələb edilir, Artur Rasizadə istefaya çağırılır. Sitat: "O nədir jurnalistə demisən? Utanmersanmı? Səni vəzifəyə qoyublar ki, jurnalistlərə, o cümlədən Mətbuat Şurasına xidmət edəsən. Təcili bir "KamAZ" qum gətir, şuranın qabağına tök. Yoxsa səni öz qəzetimdən biabır edərəm". Deyilənə görə, bu məktubu oxuyan Abid müəllim adını dəyişib Ateist qoyubdur. Amaşov məktubunu Füzulinin bu beyti ilə bitirmişdir: "Hiç abid anmadıləlin ki, gözdən qan töküb, Səcdədən durduqca təğyiri-müsəlla etmədi".

İndi söz əlaqədar təşkilatlarındır.

# Politoloq rəsmi Bakının Rusiya ilə sensasion razılaşmasından danışdı

**Qabil Hüseynli:** "Ortada ciddi bir sövdələşmənin olduğu müşahidə edilir, Rusiya indiyə qədər görünməmiş bir formada Azərbaycana istiqanlılıq nümayiş etdirir"

**Riqada keçirilən Avropa Birliyinin "Şərq Tərəfdaşlığı" Sammitində dərhal sonra xarici işlər naziri Elmar Məmmədyarovun Moskvaya səfər edib yüksək səviyyəli görüşlər keçirməsi, bu görüşlərdən sonra verilən rəsmi bəyanatlar ortaya bir sıra suallar çıxarıb.**

Azərbaycan-Rusiya münasibətlərində əslində nə baş verir? Bu yaxınlaşma Azərbaycanın üzünü Qərbdən, Avropa Birliyindən tam döndərməsi anlamı daşıyırmı?

**Politoloq Qabil Hüseynli** hesab edir ki, Avropa Birliyinin Riqa sammitindən dərhal sonra Elmar Məmmədyarovun Moskvaya səfər edib sıx görüşlər keçirməsi rəsmi Bakının tarazlaşdırılmış siyasəti mümkün qədər saxlamaq istəyi kimi şərh edilə bilər. Amma hər halda, politoloqlar bu fikirdədir ki, Rusiya ilə Azərbaycan arasında indiyə qədər görünməmiş bir hadisə baş verir: "Bu hadisə əgər reallığa çevrilsə, Rusiya-Azərbaycan münasibətlərini keyfiyyətcə yeni bir mərhələyə qaldıracaq. Ortada ciddi bir sövdələşmənin olduğu müşahidə edilir. Rusiya indiyə qədər görünməmiş bir formada Azərbaycana istiqanlılıq nümayiş etdirməyə başlayıb. Bu istiqanlılığın nümunəsi kimi hələ Riqa sammiti ərəfəsində Ermənistan tərəfinə ultimativ formada Azərbaycan torpaqlarını qaytarmaq barədə göndərilən mesajı qeyd etmək olar. Bunun ardınca Elmar Məmmədyarov Riqadan qayıtdıqdan sonra Moskvaya getməzdən əvvəl yenə də özünə xas olmayan tərzdə və həm çox ürəkli bir şəkildə "mən sizi əmin edirəm ki, Dağlıq Qarabağ problemi yaxın zamanlarda həllini tapacaq" bəyanatını verdi. Dumanın spikeri Sergey Narışkinlə görüşdə də Dağlıq Qarabağ probleminə toxunulub. Bu problemin çox tezliklə həll edilməsinin zəruriliyi qeyd edilib. Beləliklə, görünür ki, Elmar Məmmədyarovun səfərində hər iki ölkə üçün çox vacib olan məsələlər müzakirə edilib və hər iki ölkə üçün siyasi perspektivdə əhəmiyyəti olan məsələlərin həllinə start verilib".

**Hər iki ölkə üçün siyasi perspektivdə hansı əhəmiyyətli məsələlərin həllindən söhbət getməsinə gəlincə, politoloqun fikrincə, bu, Azərbaycan üçün Dağlıq Qarabağ problemi, Azərbaycanın ərazi bütövlüyü məsələləri ola bilər. Rusiya üçün isə Avrasiya İttifaqı, Gömrük İttifaqı və sair buna bənzər məsələlər ola bilər:** "İndiyə qədər Rusiya qoşunlarının sülhpərvər qüvvələr kimi Dağlıq Qarabağda yerləşdirilməsi məsələsi var idi, lakin bu məsələ indi gündəlikdə deyil. Çünki Azərbaycan bunun olmasını istəmədi. Amma Azərbaycanın Avrasiya İttifaqı və Gömrük İttifaqına qoşulması məsələsi gündəlikdə qalır. Deməli, belə bir proses baş verir-Azərbaycan Dağlıq Qarabağ probleminin açarını tapmış kimi görünür. Dağlıq Qarabağ probleminin mərhələ-mərhələ həllinə Moskva təminat vermiş kimi görünür. Rusiyanın bu sövdələşmədə əldə edəcəkləri kifayət qədər böyük görünür. Azərbaycan Avrasiya İttifaqına, Gömrük İttifaqına daxil ola bilər, üstəlik, Azərbaycan qaz məsələsində Rusiya ilə razılaşdırılmış siyasətin həyata keçirilməsində iştirak edə bilər və sair. Belə görünür ki, Rusiya postsovet məkanında ən böyük eksperimentlərindən birinə başlayır. Bu eksperiment silahlı eksperiment yox, sırf diplomatiya yolu ilə postsovet məkanında öz xeyirinə dəyişikliklər aparmaq xəttini həyata keçirməyi nəzərdə tutur".



**"Bəs qeyd olunan ehtimalların gerçəkləşməsi Azərbaycanın Qərbdən, Avropa Birliyindən tamamilə uzaq düşməsi, münasibətlərin kəsilməsi anlamına gəlmirmi" sualına politoloq belə cavab verdi:** "Bu, ilk baxışda belə təsəvvür yarada bilər. Amma Azərbaycan Qərbə ikili strateji tərəfdaşlıq haqqında müqavilə imzalamaq təklifini verib. Yəni Avropa Birliyinə assosiativ üzvlük haqqında deyil, ikili strateji əməkdaşlıq haqqında müqavilə imzalamağı təklif edib. Azərbaycan Avropa strukturlarının heç birindən çıxmır, Avropaya qarşı hər hansı bir siyasət yürütmək istəmir. Əksinə, Dağlıq Qarabağ problemi təkcə Rusiyanın iştirakı ilə deyil, Minsk prosesi çərçivəsində həll olunacaq. Yenə də Qərbə Azərbaycanın ehtiyacı olacaq. Sadəcə, Rusiya ilə yaxınlığın səviyyəsi müəyyən qədər qaldırıla bilər. Əgər Azərbaycanın ərazi bütövlüyü təmin ediləcəksə, zənnimcə, Rusiya ilə əməkdaşlığın səviyyəsini yüksəltməyə dəyər".

❑ Etìbar SEYİDAĞA

# "ABŞ mətbuatının yazdıqları AKP-nin işinə yarayacaq"

**Ekspert:** "Türkiyədə seçicilər bir qayda olaraq ən çox əzilən qüvvənin yanında olduğu üçün bu cür yazılar tərs təpki verir..."

**Xəbər verildiyi kimi, ABŞ-ın nüfuzlu "New York Tayms" qəzeti Türkiyədə qarşıdan gələn seçkilərə dair yazı həsr edib. "Türkiyə üzərində qara buludlar" adlı məqalədə müəllif iyunun 7-də keçiriləcək seçkiləri əvvəlki seçkilərlə müqayisədə daha "qaranlıq və qorxu" mühitində keçdiyini qeyd edir.**

Eyni zamanda yazıda prezident Ərdoğan tənqid olunub, prezidentin mediaya təzyiq göstərdiyi və demokratiyaya zərbə vurduğu iddia edilib. Məqalə müəllifi yazıb ki, AKP 7 iyun seçkilərində hakim mövqeyini daha da möhkəmlədib, paralel olaraq ölkədə demokratik sistemə böyük zərbələr vurub.

Yazıda həmçinin Ərdoğanı durdurmaq çağırışı edilib. Müəllif "Amerika və Türkiyənin NATO müttəfiqləri onu (Ərdoğanı) dağıdıcı yoldan dönməyə çağırmalıdır" deyə yazısında bildirib. Ərdoğanla Türkiyənin nüfuzlu iş adamı, Doğan Media Holdinqinə məxsus "Hürriyet" qəzeti arasında yaşanan çəkişməyə də məqalədə yer verilib.



Toğrul İsmayıl

Məqalə Türkiyədə böyük rezonans doğurub. Yerli media və siyasi ekspertlər onu Amerikanın Türkiyədə çevriliş etməsi çağırışı kimi dəyərləndiriblər. Məlum olduğu kimi, son illərdə Ankara ilə Vaşinqton arasında münasibətlər xeyli soyuyub. Habelə son illərdə beynəlxalq hüquq-müdafiə təşkilatları Ankaranı mətbuata təzyiqlərə görə dəfələrlə tənqid edib.

Amerikanın nüfuzlu nəşrinin Vaşinqtonu Türkiyə hakimiyyətini dayandırmağa çağırması Ankaranı qəzəbləndirib. Türkiyə prezidenti Amerika qəzetini tənqid edərək Türkiyənin daxili işlərinə müdaxilə etməkdə ittiham edib. "Qəzetsən, həddini biləcəksən" deyən Ərdoğan bu yazını Türkiyə hökumətinə yönəlmiş təzyiqlərin bir parçası adlandırıb.

**Təbii ki, nüfuzlu qəzetin bu yazısı Amerikada bəzi siyasi dairələrin fikirlərini əks etdirir. Ancaq Ankara İqtisadiyyat və Texnologiyalar Universitetinin dosenti, politoloq Toğrul İsmayılın fikrincə, bu məqalədən uzaqgedən nəticələr çıxarmaq olmaz. Ekspertin fikrincə, seçkiqabağı bu cür məqalələr Türkiyə cəmiyyətində əks reaksiyalar doğura bilər:** "Mənim qənaətimə görə, bu, sıradan bir məqalədir. Əlbəttə, nüfuzlu bir qəzetin bu şəkildə təqdimatı və çağırışı Türkiyənin daxili işinə qarışmaqdır. AKP-nin xalqdan ciddi dəstəyi var. Üstəlik, nəzərə almaq lazımdır ki, dövlətlərin daxili siyasətinə bu şəkildə müdaxilə çağırışı müstəqil ölkə üçün yolverilməzdir".

**Bu cür media orqanlarının Amerikanın siyasətini müəyyən etmədiyini xatırladan ekspert deyir ki, əslində belə məqalələr seçkiqabağı AKP hökumətinin işinə yarayacaq. Çünki Türkiyə cəmiyyətində AKP-yə xaricdən basqı olması imicini formalaşdırır:** "Təbii ki, "New York Tayms" Amerikanın siyasətini müəyyən etmir. Digər tərəfdən, belə bir məqalənin yazılması, əslində Türkiyədə AKP-nin işinə yarayacaq. AKP-nin məzlum obrazını yaradacaq. Türkiyədə isə seçicilər bir qayda olaraq daha çox əzilən qüvvənin yanında olduğu üçün bu cür yazılar tərs təpki verir. Seçkiyə az qalmış bu cür məqalənin gündəmə gəlməsi özü maraqlıdır".

**O ki qaldı Türkiyədə xarici ölkələrin təsiri ilə çevriliş planlarına, T.İsmayıl deyir ki, indi artıq o dövr deyil:** "Bu işi Amerikanın adına yazıb Türkiyəni 3-4-cü dərəcəli ölkə kimi təqdim etmək doğru deyil. Aydındır ki, Amerika güclü dövlətdir və uzun illərin müttəfiqi olaraq Vaşinqtonun Ankara üzərində təsiri var. Ancaq hərbi çevrilişlər xarici güclər hesabına olmur, bu, daha çox daxili siyasətdən qaynaqlanan məsələdir. Daxildən isə bunu heç bir qüvvə istəmir. Bu gün Türkiyədə siyasi partiyalar ordunun siyasətə müdaxiləsinə qarşıdır. Çünki hərbi çevrilişlər bütün partiyalara əziyyət verib".

❑ KƏNAN

# Siyasi şərhçidən Elmar Məmmədyarova sərt tənqid

**“Açığını deyim ki, xarici siyasət idarəsi başçısının çıxışları məndə ikrah doğurur. Verdiyi bəyanatlar, apardığı dəyərləndirmələr səthidir və bir çox hallarda sanki başqa ölkənin problemi kimi təəssürat yaradır. İfadə etdiyi dil və erməni təcavüzünün dünyaya çatdırılması daha çox biganəlik ifadə edir. Mətbuat xidməti isə poeziyadan uzaqlaşmaq istəmir”.**

**Elxan Mehdiyev:** ““Dağlıq Qarabağ münaqişəsi gec və ya tez nizamlanacaq” demək şikayətləndiyi beynəlxalq birliyin biganə yanaşmasından nə ilə fərqlənir?”

## XİN-dən reaksiya gəldi: “Ölkəmizdə fikir plüralizmi mövcuddur”



**Siyasi şərhçi Elxan Mehdiyev** bunu “Yeni Müsavat”a açıqlamasında bildirdi. Onun sözlərinə görə, xarici işlər naziri dövləti təmsil edir və onun dilindən çıxan söz də tarixə düşür, ölkənin siyasətini göstərir, müəyyənləşdirir: “Birincisi, bilmək lazımdır ki, onun ”Dağlıq Qarabağ münaqişəsi" adlandırdığı məsələ “Dağlıq Qarabağ münaqişəsi” çərçivəsindən 1993-cü ildən çıxıb və ermənilər Dağlıq Qarabağdan iki dəfə böyük ərazini də işğal edib. Üstəlik, nazirin səsləndirdiyi BMT Təhlükəsizlik Şurasının qətnamələri də bu işğalı təsbit edib. Bu baxımdan Azərbaycanın yeganə sözü və tələbi “işğal” və “işğal bitməlidir” olmalıdır. “Dağlıq Qarabağ münaqişəsi gec və ya tez nizamlanacaq” demək şikayətləndiyi beynəlxalq birliyin biganə yanaşmasından nə ilə fərqlənir? İşğal nizamlanmır. İşğala tətbiq edilən belə termin yoxdur. İşğalçıya ya təslim olurlar, tələblərini yerinə yetirilər, ya da onu məhv edirlər. Məmmədyarova görə, ortada kiçik bir münaqişə var və Ermənistan “konstruktiv” mövqe tutarsa, həll olunar, lakin onlar da hələ konstruktiv deyil".

**Siyasi şərhçi dedi ki, son günlər nazir daha da uzağa gedərək ermənilərə ağsaqqallıq edir və deyir ki, “Ermənistan rəhbərliyində sağlam düşüncəli insanlar olacaq və onlar başa düşəcəklər ki, qonşularla yaxşı münasibətlər ölkənin uğurunun təminatıdır”. E.Mehdiyev buna qəti etiraz etdi: “Məsələyə bəsit yanaşma ortadadır. Bu məsələ ermənilərin Osmanlı imperatorluğundan başlamış 150 illik tarixi, zorakı millətçilik üzərində qurulmuş milli davasıdır və bu torpaq davasıdır və erməniyə o təklif edilən ”Cənubi Qafqazda həyata keçirilən bütün ciddi layihələr" lazım deyil, ona torpaq lazımdır və onların bütün siyasəti də bu məqsədə xidmət edir. Bu cür çıxışları edincə, o, Avropa Birliyi tribunasından ermənilərin işğalçı olduğunu, etnik təmizləmə apardıqlarını desə, AB-dən dəstək alardı. Onun çıxışları və bəyanatları isə ancaq və ancaq işğalın uzanmasına xidmət edir. O biri tərəfdən anlayıram ki, işğal ərazilərindən olmayan şəxslər üçün Vətən işğalının nə olduğunu anlamaq çətindir".**

**Azərbaycanın AB-yə göndərəcəyi xüsusi rəyə gəldikdə isə E.Mehdiyevin fikrincə, bu, sadəcə, Azərbaycanın rəyi kimi sənəddə qalacaq və həmin rəyi erməni tərəfi öz rəyini göndərəcək:** “Bu rəyin də əhəmiyyəti yoxdur. Digər tərəfdən, Elmar Məmmədyarovın 10 il ərzində apardığı danışıqlar nəticəsində ortada Madrid prinsipləri deyilən ”sülh planı" var. Elə isə o plan harada qaldı? Beş rayon, sonra iki rayon söhbətini də yəqin ki, biz yox, bu danışıqları aparanlar edirdi. Təhlükəsizlik Şurasına gəldikdə isə əvvəlki amerikan həmsədri Kerri Kavanonun sözləri həmsədrlərin ümumi baxışını ifadə edirdi. Ona BMT TŞ qətnamələrini xatırladanda “onda gedin BMT məsələnizi həll etsin ” deyərək səsini ucaldırdı. İndikilərin də fikri eynidir".

**Siyasi şərhçi Azərbaycan XİN-in diqqətinə işğalçı ölkənin mütəmadi şəkildə yararlandığı xəritəni də xatırladıb:** “Hər gün Ermənistanın hava haqqında məlumatı bu xəritə ilə verilir və yeni nəsil üçün də bu ərazilərin hamısı Ermənistandır. Bəlkə nazir onun apardığı ”sülh prosesi"nə bu cür siyasətin necə təsir etdiyini həmsədrlərə anlatsın".

**E.Mehdiyevin irad və tənqidlərinə XİN-in mətbuat xidmətindən mövqe öyrəndik. Xidmət rəhbəri Hikmət Hacıyev “Yeni Müsavat”a bildirdi ki, bu, fərdi yanaşmalardır:** “Biz deyilənləri şərh etmirik. Ölkəmizdə fikir plüralizmi mövcuddur və mətbuat azaddır. Yalnız onu əlavə etmək istərdim ki, Azərbaycanın milli maraqları əsasında ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin təmin olunması, Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalının nəticələrinin aradan qaldırılması istiqamətində ardıcıl və məqsədyönlü iş aparılır”.

❑ **Cavid TURAN**

# Bakı Avrasiya Birliyinə qoşulmağın şərtini açıqladı - öncə Qarabağ

## Elmar Məmmədyarovun Rusiyaya qəfil səfərinin daha bir pərdəarxası; Azərbaycan XİN başçısı ölkənin işğalçı ilə bir iqtisadi qurumda təmsilçiliyini rədd elədi, ancaq...




**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun kifayət qədər qəfil sayıla biləcək Moskva səfəri başa çatdı. Həm də Avropa Birliyinin (AB) Riqadakı “Şərq Tərəfdaşlığı” Sammitindən dərhal sonraya təsadüf eləməsi ilə diqqət çəkən bu səfər başqa yandan, rəsmi görüşlərin kəmiyyət və keyfiyyət baxımından zənginliyi ilə də yadda qaldı.**

Söhbət ondan gedir ki, cənab Məmmədyarov vəzifəsinə uyğun olaraq təkcə rusiyalı həmkarı Sergey Lavrovla deyil, Dövlət Dumasının spikeri Sergey Narışkin və baş nazirin təhlükəsizlik və hərbi məsələlər üzrə müavini, qatı antiqərbçi kimi tanınan Dmitri Roqozinlə də bir araya gəldi.

Bu görüşlərin hamısında iki ölkənin strateji tərəfdaş olması haqda bəyanatlar qırmızı xətt kimi keçdi və ilk baxışda həm rəsmi Bakının, həm də Kremlin Qərbə, Avropaya özünəməxsus çatdırışı, mesajı təəssüratı yaratdı. Azərbaycan XİN-in Riqa sammitinin yekun bəyannaməsi ilə bağlı xüsusi tənqidi rəyinin də məhz Məmmədyarov Rusiyada olarkən, Moskva təmasları fonunda açıqlanması belə bir təəssüratı, yaxud qənaəti gücləndirdi.

***

Ancaq Elmar Məmmədyarovun Moskva ziyarəti Rusiyaya reveranslarla yanaşı, Kremlin özünə də Bakının bəzi mesajlarının çatdırılması ilə diqqət çəkdi. Yəni elə fikir yaranmasın ki, səfər iki ölkə arasında heç bir problemin olmadığının, hər şeyin rəvan getdiyinin və yaxınlaşma prosesinin də davam etdiyinin nümayişi olub.

Bu xüsusda Azərbaycan XİN başçısının səfər çərçivəsində “Rossiya 24" kanalına verdiyi müsahibə və müsahibə zamanı toxunduğu bəzi mühüm detallar onun səfərinin pərdəarxasına əlavə işıq salır. Bəlli olur ki, Bakı-Moskva əlaqələri silah ticarəti sahəsində uğurlu kommersiya əməkdaşlığından çox da uzağa getməyib və tərəflər arasında ciddi, həllini gözləyən problemlər də var.

Məsələn, müsahibədə nazir Azərbaycanın Avrasiya İqtisadi Birliyi ilə əməkdaşlığını istisna etmədiyini, lakin bunun müstəsna olaraq Qarabağ nizamlanmasından sonra mümkün olduğunu söyləyib. Sitat: “Belə bir deyim var: **”Heç vaxt heç vaxt demə". Azərbaycan rəhbərliyi bu məsələdə öz xarici siyasət doktrinasını ölkənin milli maraqlarından çıxış edərək qurur".**

Məmmədyarov sözünə davam edərək bildirib: **“Orada (Avrasiya İqtisadi Birliyində - red.) Avropa Birliyi ilə assosiasiya sazişində olduğu kimi, şərtlərdən biri azad ticarət zonası haqdadır. Avropa Birliyi ilə bu, mümkün deyil, çünki biz Beynəlxalq Ticarət Təşkilatının üzvü deyilik. Avrasiya İqtisadi Birliyinə gəlincə, burada Gömrük İttifaqı mühüm rol oynayır. Lakin Ermənistan tərəfindən torpaqlarımızın işğalı Gömrük İttifaqında bizim onunla birgə mövcudluğumuza imkan vermir. Əgər Ermənistan öz silahlı qüvvələrini ərazilərimizdən çıxarsa, o zaman sərhədlər açılar və əgər situasiya normallaşarsa, Azərbaycanla Ermənistan arasında iqtisadi münasibətlər yaranarsa, kim bilir sabah nə olacaq...”**

***

Bu, əslində elə rəsmi Bakının Avrasiya Birliyinə, Gömrük İttifaqına üzvlüklə bağlı Rusiya qarşısında aydın şəkildə qoyduğu əsas şərtidir, eyni zamanda ədalətlidir. Elmar Məmmədyarovun heç şübhəsiz, prezident İlham Əliyevin adından Moskvaya apardığı mesaj, şərt də budur ki, öncə Qarabağ, sonra Avrasiya Birliyi!

Yeri gəlmişkən, Azərbaycan XİN rəhbərinin Moskva səfəri Qarabağ məsələsində Kremlin ənənəvi mövqeyinin dəyişmədiyini göstərdi. Belə ki, Lavrov şablon ifadələrlə bir daha bəyan elədi ki, Moskva ixtilafın həllinə köməyini davam etdirəcək, ancaq öncə münaqişə tərəfləri özləri öz aralarında razılığa gəlməlidir.

Lavrovun Qarabağ açıqlaması sözsüz ki, Moskvanın münaqişənin həllini yenə tərəflərin üzərinə atmasının, məsələdə öz yaxasını kənara çəkməsinin növbəti, bariz təzahürü idi. Çünki hamı bilir ki, Rusiyanın marioneti və forpostu olan Ermənistanın problemin həllində heç bir söz sahibi deyil və İrəvan Moskvanın izni olmadan heç bir güzəştə getməz, onun diktəsindən kənara çıxmaz.

“Öncə münaqişə tərəfləri özləri razılığa gəlsin” ifadəsinin diplomatik dildən tərcüməsi də elə budur ki, Kreml hələ ki, nə Ermənistana təzyiq eləməyə, nə də işğal altındakı ərazilərin aqibəti ilə bağlı hansısa pozitiv hərəkətlilik göstərməyə hazırlaşır.

Demək, prezident Vladimir Putinin öz layihələrində açar ölkələrdən biri kimi gördüyü Azərbaycanı da tezliklə Avrasiya Birliyində gözləməyə dəymir.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 114 (6142) 27 may 2015

**Baş nazirin müavini, yanğınla bağlı yaradılmış Dövlət Komissiyasının sədri Abid Şərifovla jurnalistlər arasındakı gərginlik davam edir. A.Şərifovun bir neçə gün öncə jurnalistin "binaların yenidən üzlənməsi işinə hansı firma rəhbərlik edəcək" sualına cavabı ortalığı qarışdırsa da, dövlət rəsmisi sərt tonunu dəyişmək fikrində deyil.**



# Abid Şərifov mediaya "müharibəsini" davam etdirir

## Baş nazirin müavini bu dəfə "jurnalistin mənim cib telefonuma zəng etməyə ümumiyyətlə haqqı yoxdur" dedi

**Son olaraq A.Şərifov AzadlıqRadiosuna müsahibəsində bu məsələnin üzərinə yenidən qayıdıb və fikirlərinin doğru olduğunu deyib:** "Kim nə istəyir, yazsın. Məni belə şeylər maraqlandırmır. Mən boş-boş suallara cavab vermirəm. Jurnalistin nəyinə lazımdır, məgər jurnalistin başı çıxır ki, hansı şirkət nəyi bacarır? Məndən soruşur ki, hansı şirkətdir. Jurnalistin nəyinə lazımdır hansı şirkətdir?! Bunu hökumət müəyyən edir-hansı şirkət qabiliyyətlidirsə, mərifətlidirsə, inamlıdırsa, keyfiyyətli iş görürsə, ona tapşırır. Yoxsa 20 yaşında bir uşaq soruşur ki, bəs hansı şirkətdir... Nə istəyirsə, yazsın. Deyirlər ki, kobud! Nə etməliyəm? Jurnalist boş-boş sual verirsə, öpüb gözümün üstünə qoymalıyam, ay bala? Yoxsa siz bundan şou düzəldirsinizsə, düzəldin! Mənə isti-soyuğu yoxdur belə şeylərin. İş söhbəti etmək lazımdır, şou yox".

**A.Şərifov jurnalistin informasiya alma hüququ barədə də qəribə açıqlama verib:** "Jurnalistin mənim cib telefonuma zəng etməyə ümumiyyətlə haqqı yoxdur. Var sənin haqqın mənim cib telefonuma zəng etməyə? Sual verirəm. Yoxsa elə yerindən duran bütün günü sual verir, mən də bütün günü sizin zənglərinizə cavab verməliyəm? İşim-gücüm yoxdur? Belə çıxır, eləmi?"

Xatırladaq ki, A.Şərifova ilk etiraz Mətbuat Şurasının sədri Əflatun Amaşovdan gəlib. O, dövlət rəsmisini jurnalistlərlə davranışda həssas olmağa çağırıb.

İndi isə keçək A.Şərifovun açıqlamasının hüquqi şərhinə. Dövlət məmurunun jurnalist qarşısında informasiya vermə öhdəliyinə.

İnformasiya əldə olunmasının təşkili ilə bağlı qanunda informasiya sahibinin vəzifələri ayrıca göstərilir. Bildirilir ki, informasiya sahibi öz informasiya ehtiyatlarından hər kəsin sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə informasiya əldə etmək hüququnu bu qanunla müəyyənləşdirilmiş qaydada təmin etməyə borcludur. İnformasiya sahibi bu məqsədlə informasiya məsələləri üzrə vəzifəli şəxs təyin edir, yaxud struktur bölmə yaradır, informasiya xidmətləri göstərir. İnformasiya məsələləri üzrə vəzifəli şəxsin təyin olunmaması və ya struktur bölmənin yaradılmaması informasiya xidmətləri göstərməkdən imtina üçün əsas ola bilməz.



**Mehman Əliyev:** "Bu, hökumətin mediaya olan münasibətinin sübutudur"



**Arif Əliyev:** "Abid Şərifovun öz vəzifəsini başa düşməməsi və hələ də orda oturması qəribədir"

Keçək informasiya sahibinin vəzifələrinə. İnformasiya sahibi informasiya sorğusunu ən qısa zamanda və sorğuçu üçün ən münasib üsulla təmin etməlidir; sənədlərin reyestrini aparmalıdır; ictimai vəzifələrin yerinə yetirilməsi haqqında ictimaiyyətə müntəzəm məlumat verməlidir; açıqlamalı olduğu ictimai informasiyanı bu qanunla müəyyənləşdirilmiş qaydada və müddətdə açıqlamalıdır; sorğuçuya kömək göstərməlidir; informasiyanın əldə olunmasına qoyulan məhdudiyyətlər barədə sorğuçuya məlumat verməlidir; əldə olunması qanunla məhdudlaşdırılan informasiyaları qorumalıdır; həqiqətə uyğun olmayan, natamam və ya qeyri-dəqiq informasiya verməməli, şübhə yarandığı hallarda informasiyanın düzgünlüyünü və mötəbərliyini yoxlamalıdır.

İnformasiya məsələləri üzrə vəzifəli şəxs və ya struktur bölmənin funksiyalarına gəlincə, qanunda göstərilir ki, o, sorğuları diqqətlə araşdırıb qərarlar qəbul edir. Habelə sorğuları bu qanunla nəzərdə tutulmuş qaydada təmin edir; informasiya xidmətlərinin göstərilməsinə nəzarət edir; informasiya əldə edilməsi ilə bağlı informasiya sahibinə göndərilən şikayətləri araşdırıb qərar qəbul edir; informasiya xidmətləri göstərilməsi ilə bağlı digər vəzifələri yerinə yetirir; informasiya sahibləri informasiyanın əldə olunmasının təşkilinə görə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır.

Avropa İnsan Haqları Konvensiyasının 10-cu maddəsində (fikri ifadə etmək azadlığı) dövlət orqanlarından maneəsiz məlumat almaq azadlığı təsbit olunub. Elə həmin maddənin ikinci bəndində bu azadlıqların həyata keçirilməsinin milli təhlükəsizlik və ərazi bütövlüyü naminə, eləcə də iğtişaşın, cinayətin qarşısının alınması, sağlamlığın və mənəviyyatın qorunması, digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi, gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısının alınması və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilməsi ilə bağlı göstərişlər nəzərdə tutulub.

**Mövzuya münasibət bildirən REAL Hərəkatının İdarə Heyətinin üzvü Erkin Qədirli öz facebook səhifəsində bu haqda yazıb:** "Bu sözlərdə nə təhqir var, nə də hörmətsizlik. Belə sözlər yorğunluğun, darıxmağın göstəricisidir. 20 ildən artıq eyni vəzifədə çalışmaq? Adam 5 ildən sonra işini dəyişmək haqqında düşünmürsə, inkişaf etmir, deməli. Bu adamlar yoruliblar, darıxırlar. Vəzifədə qalmaqda məna görmürlər. Bizə, topluma, güc gəlmələrinə baxmayın. Özləri ilə bağlı qərarı vermək gücündə deyillər. Bu adamlar istefa verə bilmirlər".

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev isə hesab edir ki, A.Şərifovun bu davranışı ümumən hökumətin mediaya münasibətini ifadə edir. Onun fikrincə, bunun məntiqli ardıcıllığı ümumən Azərbaycan mətbuatına münasibətdə özünü göstərir:** "Niyə Azərbaycanda ən çox jurnalist həbs olunur? Niyə mətbuatın bütün iqtisadi dayaqları çökdürülür? Niyə mətbuatın informasiya əldə etmək hüququ məhdudlaşdırılır? Qanunlar var, amma işləmir. Biz bu informasiyanı Abid Şərifovdan küçədə soruşmalıyıq. Saytda bu məlumat olmalıdır. Hansı nazirlik bununla bağlı mətbuat konfransı keçirdi? Kim hesabat verib bununla bağlı? Bu, onu göstərir ki, hakimiyyətin informasiya siyasəti iflic vəziyyətdədir. Özləri bunun belə olmasında maraqlıdır. Ona görə də bu məsələdə Abid Şərifov kimi kənar şəxs axtarmaq və günahlandırmaq düzgün deyil. Hakimiyyətin mediaya münasibəti necədirsə, bu da nümunələrdən biridir".

**Müsahibimizin sözlərinə görə, jurnalistlər də bu mövzuda ancaq sakinlərin dedikləri, gördükləri və onlara verilən informasiya əsasında yazılar hazırlayıblar:** "Kimsə nəsə tapıb, kimdənsə nəsə eşitmişik. Ümumi sözlərdən başqa bir şey yoxdur. Hesabatlar, mətbuat konfransları yoxdur. Dövlət orqanlarında rəsmi informasiya yoxdur. Ona görə də Abid Şərifovun açıqlaması birbaşa hakimiyyətin mövqeyidir. Bunu uzatmaq lazım deyil".

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev də hesab edir ki, A.Şərifovun jurnalistləri sevməməsində gözlənilməz heç nə yoxdur. Onun sözlərinə görə, dövlətdə çox adam jurnalistləri sevmir:** "Amma Abid Şərifovun öz vəzifəsini başa düşməməsi və hələ də orda oturması qəribədir. İnanırdım ki, birinci gün jurnalistə verdiyi qəribə cavabdan sonra onun başını sığallamayacaqlar. Amma görünür, heç bir təzyiq görmədiyi üçün eyni qaydada davam edir".

**A.Əliyev bildirdi ki, jurnalistin günün ən aktual mövzusu ilə bağlı dövlət məmuruna zəng etməyə nəinki hüququ, həm də vəzifəsi var:** "İnsanların yarısı əsir kimi qalıblar öz evlərində. Bir hadisə baş verə, o, pəncərədən bayıra çıxa bilməz. Yüksək vəzifəli məmurun "mənim firmamdır" deməsi də bir ayrı mövzudur. Onun səviyyəsində olan məmur kommersiya ilə məşğul olmalıdır. Abid Şərifovun nə etdiyini, nə dediyini başa düşməməsi insanı təəccübləndirmir. Təəccüblüsü onun bunu təkrarlaması, bunu etməyə cəsarət tapmasıdır. Onu oraya qoyanda başa salmayıblar ki, belə məsuliyyətli dövrdə şok keçirmiş, faciə yaşamış insanlarla, informasiya almaq hüququ olan jurnalistlərlə belə davrana bilməzsən. Ukraynada bir qubernator jurnalistlərlə bu cür davranmışdı. Onu dərhal vəzifədən çıxardılar. Baxmayaraq ki, Ukraynada demokratiya etalonu var, söz azadlığı problemi də özünü göstərir".

❑ **Sevinc TELMANQIZI**



# Media yanğın sınağından çıxdı, amma...

## Ekspert: "Bu məsələdə informasiya axınında elə bir qüsur görmədim"

**Binəqədi rayonunda çoxmərtəbəli binada baş verən yanğın hadisəsi zamanı medianın peşəkarlığı da müzakirə mövzusu oldu. Ölkə üçün bir çox həssas məqamlarda jurnalistikanın lazımi həssaslığı nümayiş etdirməsi, fakta barmaqarası baxması... iddiaları bu dəfə səslənmədi. Xüsusən saytlar mövzunu sürətlə, peşəkarcasına işıqlandırmağa çalışdılar. Dezinformasiya çox nadir, o qədər də tanınmayan saytların ifasında özünü göstərdi. Və bir də hökumət qəzetlərini unutmayaq. Hadisənin ilk günlərində iqtidar mediasının manşetini Avropa Oyunları ilə bağlı xəbərlər bəzədi.**

Mənzərəyə ümumi baxanda görünənlər budur. Media ekspertlərinin də mövzu ilə bağlı yanaşması təxminən eynidir. "Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev bildirdi ki, yanğın hadisəsi baş verən zaman o, Avropa Birliyinin Riqada keçirilən sammitdə olub. Müsahibimiz hadisələrə kənardan, uzaqdan baxanda mənzərənin daha yaxşı göründüyünü dedi: "Bir jurnalist kimi lazım olan informasiyanı dolğunluğu ilə qəbul etmək mümkün idi. Onlayn da xəbər almaq olurdu. Bu məsələdə informasiya axınında elə bir qüsur görmədim".

**Amma A.Əliyev dedi ki, faktın araşdırılması baxımdan qüsurlar vardı. Belə ki, bu sahədə mövcud olan problemlər iqtisadi, siyasi və qismən ehtiyatlılıqla bağlı sona qədər araşdırılmadı, üzə çıxarılmadı:** "Mən həddi aşmadan, insanların hisslərinə hörmətlə yanaşmaq şərti ilə daha geniş və daha dərin araşdırmaya ehtiyac olduğunu nəzərdə tuturam. İlk növbədə bizi maraqlandıran məsələ kimin harada oturması deyil. Bir nömrəli məsələ bu cür hadisələrin təkrar olunmaması və təkrar olunaraq məsuliyyətin iş icraçıları üzərinə atılmamasıdır".

Televiziya mütəxəssisləri isə iddia edir ki, ölkə kanalları "yanğın sınağından" üzüağ çıxmadı. Buna səbəb onların "yuxarıdan" verilən göstəriş əsasında hərəkət etməsi oldu. Belə ki, hadisə baş verən saatlarda telekanallar musiqili-əyləncəli verilişlər yayımladılar. Yanğın yerindən canlı yayım, saatbaşı xəbər bülleteni yayımlamaq təcrübəsinə riayət edilmədi. Bundan başqa, həmin günün xəbərlərində də əsas vurğu yanğınsöndürənlərin "şücaətinə" yönləndirildi. Telekanalların siyasəti faciənin miqyasını kiçildib, hökumətin bu sahədə gördüyü işlərin təbliğatına geniş yer vermək idi. Bundan başqa, ATV kanalında Mətanət Əliverdiyevanın "faciəni elə faciə etməməliyik" açıqlaması da mavi ekranın bu faciədə tutduğu mövqeni nümayiş etdirirdi.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 114 (6142) 27 may 2015

# Öldürülən əsgərlə bağlı şok detallar

**Mayın 22-də Fövqəladə Hallar Nazirliyinin Biləcəridəki hərbi hissəsində 23 yaşlı Babaşov Tapdıq Əlizaman oğlunun müəmmalı şəkildə ölməsi haqda xəbər vermişdik. BDU-nun tarix fakültəsini qırmızı diplomla bitirən mərhumun mayın 25-də Şamaxıdakı ata yurdunda üç mərasimi keçirildi. Ailənin yeganə oğlu olan T.Babaşovun yas mərasimində iştirak etmək üçün Şamaxıya yollandıq.**

## FHN olayın qətl olduğunu təsdiqləyib; Tapdıq Babaşovun yaxınları onun işgəncəyə məruz qaldığını, öldükdən sonra 4-cü mərtəbədən atıldığını deyirlər; mərhumun sevdiyi qız gözüyaşlı qaldı...









Rastlaşdığımız mənzərə ağır idi. Hər kəs mərhumun vətənpərvərliyindən danışır, qatillərinin cəzalandırılmasını tələb edirdi. Artıq hadisənin qətl olmasına şübhə yox idi. Çünki FHN-də faktı təsdiqləyib, istintaq aparıldığını və bugünlərdə günahkarların cəzalandırılacağına söz veriblər. Ekspertiza da mərhumun döyülərək öldürüldüyü rəyini verib.

Tapdığın yaxınları onun idmançı olduğunu nəzərə alaraq, bu qətldə bir yox, bir neçə şəxsin iştirakını iddia edirlər. Bizimlə danışıqlarında yarım ay öncə mərhumun andiçməsində iştirak edən yaxın qohumları onun heç nədən şikayətinin olmadığını bildirdilər. Hətta öldüyü gündən bir gün öncə Tapdıq ailəsi ilə son dəfə danışıb. Hər şeyin yaxşı olduğunu, sentyabrda məzuniyyətə buraxılacağını söyləyib. İki saatdan sonra isə ailəsinə onun 4-cü mərtəbədən yıxıldığı xəbəri verilib.

Xəstəxanada həkimlər Babaşovun iki ayağının qırıldığını və tezliklə sağalacağını bildiriblər. Lakin sonradan ümid dolu sözlər faciəvi xəbərlə bitib. Baxışovlar ailəsinin əsas iddialarından biri də mərhumun hərbi hissədə öldürülərək, 4-cü mərtəbədən atılması ilə bağlıdır...

**Mərhumun anası ilə söhbət etməyə cəhd etsək də, alınmadı. Yeganə oğlunu itirən ana şokdan ayıla bilmir. Tapdıq Babaşovun dayısı İsaq Süleymanov bacısı oğlunun vətənə bağlı bir insan olduğunu bildirdi:** "Hədsiz dərəcədə vətənini sevirdi. Əsgərliyə getmək üçün nələr etdiyini onu tanıyanlar yaxşı bilir. Onun ödündə daş var idi. Komissiyadan keçəndə dedilər ki, sənə əsgərliyə getmək olmaz. Onu Çinə göndərdik. 15 gün müalicədən sonra qayıtdı. Təzədən komissiyadan keçdi. Hər şey normal idi. Əsgərliyə getdi. Xəbəri qəflətən eşitdik. Heç kəslə problemi olacaq insan deyildi. Andiçməsində yanına getdik. Xidmətinə görə elə sevinirdi ki. Hər şeydən razı idi. Sonuncu dəfə ölümü günü zəng edib. Deyib ki, narahat olmayın, Allah qoysa, sentyabrda məzuniyyətə gələcəm. Vətənə qulluq etməkdən hər danışığında qürur hissi keçirdiyini deyirdi".

**Mərhumun nəşini görən dayısı şok faktlar açıqladı:** "Qollarında qaraltı var idi. Bədənində salamat yeri yox idi. Üzü tamamilə yox dərəcəsində idi. Başı iki yerə bölünmüş, tikiş qoymuşdular. Ayaq dabanlarının hər ikisi tikişdə idi. Bir onu bilirəm ki, son zamanlar hərbidə tez-tez belə şeylər olur. Kaş bacım oğlu şəhid olardı. Buna çox sevinərdim. Bilərdim ki, Tapdıq vətən uğrunda şəhid olub. Amma heyf ki, özümüzünkülər öldürür. Yaxın günlərdə hər şey üzə çıxacaq. İstintaq başlayıb. Tutulan var. Amma kimliyi açıqlanmır. Tezliklə bütün Azərbaycan qatilin kimliyini biləcək. Tapdıq hamıya "qadan alım" deyirdi. Savadlı insan idi. BDU-nun tarix fakültəsini bitirmişdi. Öz hesabına qəbul olmuşdu. Axırı da bu oldu. Özünün bir problemi ola bilməzdi. Görünür, onu insana yaraşmayan hərəkətlərə məcbur etmək istəyiblər. O hərbi hissədə qalmayacaqdı. Orada iki-üç ay qalandan sonra döyüş bölgələrinə göndərilir. Özü deyirdi ki, bir aydan sonra bizi böləcəklər. Ola bilsin ki, kiminsə bununla problemi olsun, getmə vaxtı çatdığına görə öldürsünlər. Amma dəqiq fakt iki günə ortaya çıxacaq".

**İ.Süleymanov Tapdığın atasını iki il öncə itirdiyini söylədi:** "Ailədə üç övlad idi. Tapdıq atasını iki il öncə itirdi. Atası rəhmətə gedəndən sonra çətin günlər gördü. Çalışdıq ki, bu çətinliyi unutduraq. Özü deyirdi ki, dayı, narahat olma, atamın buraxdığı yarımçıq işləri tamamlayacam. Heyf ki, tamamlaya bilmədi. Anasının, bacılarının xoşbəxtliyi üçün çalışırdı. Ehtiyaclarının olmasına imkan vermirdi. Daim bacılarının yanında olurdu. İndi eşidirəm ki, istədiyi qız var imiş. Qarşılıqlı sevgiləri olub. Gələndən sonra toyları olmalı imiş. Kimliyini bilmirəm. Ancaq tarixmiz haqqında maraqlanırdı. 3 dil bilirdi - alman, ingilis, rus. Heç yerə işə götürmürdülər. Çünki əsgərliyə getməmişdi. Onun tələbə yoldaşlarının hamısı əsgərliyə getmişdi. Bu da istədi. Vətənini və tarixi çox sevirdi".

**Mərhumun dayısı FHN-də olan görüşlərindən də danışdı:** "Hər şeyin qısa müddətdə açıqlanacağını bildirdilər. Qətllə bağlı saxlanılan şəxslərin olduğunu söylədilər. İstintaq sirr olduğuna görə yaxın iki-üç gündə açıqlayacaqlar. Nazir müavini bacımı qəbul edib. Bugünlərdə nazir özü də qəbul edəcək. Xəbəri eşitmək hədsiz dərəcədə ağır oldu. Hələ də şokdayıq. Elə bilirik ki, bu dəqiqə gələcək. Anası iynə ilə ayılır, yatır. İnanmıram ki, bu ayrılığa o dözəcək. Bizə ilk dəfə yıxıldığını dedilər. Səhər tezdən xəstəxanaya getdik. Ora çatanda artıq rəhmətə getdi xəbərini eşitdim. Guya xəstəxanada komada olub. Sonradan gördüm ki, bizi aldadırlar. Çünki onun meyitini şəxsən özüm gördüm. Üzünü açıb baxdım. Tapdığı öldürüb, yuxarıdan yerə atıblar. Onun üzü, bədənində gördüklərim çox şeyi sübut etdi. İnsanlığa sığışmayan hərəkət idi. Bunu yalnız şərəfsizlər edə bilər. Bəlkə də erməni bunu eləməzdi. Amma bizim millətin şərəfsizləri edə bilər. Görüblər ki, ölüb, 4-cü mərtəbədən tullayıblar. İzi itirmək üçün. Əsgər heç vaxt belə hərəkət etməz. Çünki hamı evindən iki aydır çıxıb. Bunu edən zabitlərdir. Əsgərliyi qurtarıb, pula görə işləyən zabitlər. Heç bir savadı olmayan, çoban şərəfsizlər. Maaşa görə qalırlar. Əsgər yoldaşlarından heç kəsi tanımırıq. 30 günün əsgəri idi Tapdıq. Xəstəxanada ayağının qırılması, yıxılması sözləri bizdə şübhə yaradır. Onu xəstəxanaya ölü gətiriblər. Bədəninin hər yerində tikiş var idi. Ekspertizanın tikişini bilirik. Ekspertin başında, ayaqlarında nə işi var? Ekspert təsdiq etdi ki, öldürülüb".

**Tapdığın dayısı göstərilən diqqət və dəstəkdən razıdır:** "Rayon rəhbərliyi dəfn və üç mərasimində iştirak etdi. Hüquq mühafizə orqanları burada idi. Dəfndə iştirak edən nazir müavini dedi ki, qətl açılmasa, günahkar bizik. Bu sözün arxasında başqa şey durur. Hətta tutulan şəxs olduğunu da dedi. Yardım etmək istədilər. Amma bizə lazım deyil. Bir oğlumuz var idi, o da getdi. İndi bizə lazım olan, qətlin iştirakçılarının həbsidir. Onlar cavab verməlidir. Bu, bir şəxsin törədəcəyi iş deyil. Son olaraq, öyrənmişəm ki, o hərbi hissədə qulluq edənlərin 90%-i harınlamış şəxslərdir. Başqa şəxslərin bu hadisəni görməməsi mümkün deyil. Çünki bir dəqiqəlik qətl ola bilməz. Kasıb bir insanın övladı belə hadisə törətməz. Azərbaycanda günü-gündən harınlamış insanlar artır. Deyirlər ki, nazir balası harınlayır. Onlar heç əsgərliyə getmirlər. Demək, başqa səbəblər var. O, bir nəslin yeganə ümidi idi. Hamımız ona atası kimi baxırdıq. Bütün rayon bu dərdə şərik oldu. Çünki hamı onu sevirdi..."

**Tapdığın xalası Səmər Süleymanova onun vətənpərvərliyinin qurbanı olduğunu söylədi:** "Ondan elə xəbər eşitməyi ağlımıza gətirə bilməzdik. Çox savadlı, vətənpərvər insan idi. Bayrağımız daim olduğu otaqdan asılı olurdu. Bu cür zorakılığa heç nə səbəb ola bilməzdi. O, nəyinsə qurbanı oldu. Çünki çox alicənab idi. Orada nəyisə müdafiə edib. Haqsızlığa qarşı susan deyildi. İnanırıq ki, bu səbəb oldu. Meyitini biz görmədik. Anası çox yalvardı ki, nə olar, buraxın, qulağına səslənim, bəlkə oyandı. Deyilənə görə, beyni işləmirdi. Ölümünü iki gün bizə gec dedilər. Belə vicdansızlıq olmaz. Tapdıq idmançı idi. Üç adamın işi olmaz. Qrup şəklində öldürüblər. Ölü bilib binadan atıblar. İstintaq gedir, nəticəni gözləyirik. Bu cinayətin üstü açılacaq. İndiyə qədər əsgər cinayətlərindən heç birinin üstü açılmayıb. Yəqin ki, Kəmaləddin Heydərov bunun üstünü açacaq. İnanırıq. Bizə nazirlikdən dedilər ki, cinayətin üstünü açmasaq, cinayətkar özümüzük. Heç cürə təsəlli tapa bilmirik. Nə etsək də, Tapdıq qayıtmayacaq. Ailəsinə çox bağlı idi. Deyirdi ki, bir il gözləyin gələcəyəm. Anası onu 23 il böyüdüb vətənə əmanət etdi. 1 ay belə qorumadılar. Tapdıq bizə heç bir şey demədi. Andiçməsinə getməyimizə razı olmadı ki, bura qadın yeri deyil. Kaş gedərdik. Son dəfə görərdik. Bir ayın qurbanı oldu. Belə vətən olar? 23 il zülmlə oğul böyüt, bu da sonluğu. Yalnız anası ilə telefonla danışırdı. Çox utancaq, abırlı, heç kimə əziyyət verməyən idi. Taksi sürürdü. Nə qazandığını soruşanda deyirdi ki, gah xəstə, gah da imkansız olduğundan pul almadım, əvəzini Allah verər. Həmişə deyirdi ki, vətənin "vətən daşı" olmaq istəyirəm. Onu gözləri götürmədi. Nazir müavini bizə dedi ki, sizin övladı bu 4 gündə sizdən daha yaxşı tanıdıq. Bütün hərbi hissənin Tapdıqdan razı olduğunu söylədilər. Bəs buna nə oldu? Ana bu dərdə necə dözsün? Təzəcə diplomunu almışdı. Vinetkasını belə hərbi geyimlə çəkdirmişdi".

**Xalası göz yaşları ilə Tapdığın faciəli sonluqla bitən şəxsi həyatından bizə danışdı:** "Bir qız sevirmiş. Bizə deməyib. Həmişə deyirdi ki, sevdiyim qız haqqında danışmaram, başıma bir iş gələr, onun adına söz çıxar. Qıza çoxlu hədiyyələr verib. İndi üzə çıxır. Qayıdanda toyunu edəcəyini deyibmiş. Bu da belə oldu. Atasının dostlarından birinin qızı imiş. Ailəvi yaxın imişlər. Nazir müavininə dedik ki, birdən kasıb birinin uşağını bədbəxt edərsiz. Başqasının yalandan boynuna atılar. Kim edibsə, onu istəyirik. Tapdıq cəbhə bölgəsinə getmək istəyirdi. Çox narahatıq. Nazir müavini Tapdığın bacısına dedi ki, sənin ağlamağın ürəyimizi deşdi. Öz övladının da öldüyünü, ata olduğunu söylədi. Qatili tezliklə tapacağına söz verdi. Hətta dedi ki, tapmışıq, amma açıqlaya bilmərik. Bizi arxayın ediblər. Necə ola bilər ki, günün günorta çağı qətl olsun, heç kəsin xəbəri olmasın? İşdən gələndə mənə xəbər etdilər ki, Tapdıq yıxılıb. Sən demə, həmin an həyatda yox imiş. Xəstəxanada iki gün vaxtımızı aldılar. Bizə heç nə lazım deyil. Nə yardım, nə də maliyyə. Bizə o lazımdır ki, cinayətkar cəzalandırılsın. Gözümüzün qabağında qatili görmək istəyirik. Görək o, necə insandır, hansı tərbiyənin yiyəsidir. İnsan-insana belə qəsd edər?.."

❑ **Cavanşir ABBASLI**

**Fotolar müəllifindir**



# Bakıda yanğınlar niyə artıb?

**Paytaxt Bakı mayın 26-ı da səhəri yanğın xəbərləri ilə açdı. Təxminən bir neçə saat zaman fərqi ilə şəhərin müxtəlif istiqamətlərində yanğın hadisələri baş verdi. Yaşayış evlərinin, avtomobillərin, neft tullantılarnın eyni vaxtda alışması haqlı olaraq insanlarda suallar yaratdı. Xətai və Binəqədi rayonlarına yaşayış binalarının poliuretan üzlük səbəbindən yannmasından sonra insanların əksəriyyətində yanğınla bağlı fobiya yaranıb. Bunun ardından bir gün ərzində 4-5 yerdə yanğın olması əhalinin təhlükəsizlik məsələsini gündəmə gətirir.**

Yanğın xronologiyasına nəzər salsaq, bu qədər hadisənin ard-arda baş verməsi də qeyri-normal durum kimi təsir bağışlayır.

Belə ki, Bakıdan Xırdalana gedən 135 saylı marşrut avtobusu "Şamaxinka" adlanan ərazidə qəflətən alışıb yanıb, sərnişinlər təcili olaraq avtobusu tərk ediblər.

Paytaxtın Sabunçu rayonunda neft tullantıları olan ərazidə yanğın baş verib. Yanğınsöndürənlərin səyi ilə yanğının yaxınlıqdakı yaşayış evlərinə keçməsinin qarşısı alınıb. Suraxanı rayonu, Hövsan qəsəbəsi, O. Şabanov küçəsində fərdi yaşayış evində yanğın baş verib, FHN əməkdaşları yanğının söndürülməsinə cəlb olunub, bir nəfər dünyasını dəyişib.

Bakının Nəsimi rayonunda dəhşətli yanğın hadisəsi baş verib. Yanğın "İrşad" hoteli ilə üzbəüz məhəllədə baş verib. Hadisə zamanı üç maşın külə dönüb. Hadisə yerinə yanğınsöndürənlər çağırılsa da, onlar məhəlləyə girə bilməyiblər.

Xüsusən bir neçə gündən sonra Avropa Oyunlarının başlayacağını nəzərə alsaq, bu qədər yanğın Bakının təhlükəsiz şəhər imicinə necə təsir edəcək? Adətən paytaxtda yanğın və partlayışlar qış aylarında qaz sızması və ya elektrik xətlərindəki qısa qapanmalardan baş verirdi. İndi isə səbəbi məlum olmayan yanğınların bu qədər geniş miqyas alması insanları daha çox narahat edir. Bu narahatlığa səbəblər arasında hadisələrin təxribat və ya terror mesajı ola bilməsi ehtimalı da istisna deyil.



**Ərəstun Oruclu:**
"İlk növbədə terror və təxribat məqsədilə yandırma ehtimalı üzrə araşdırma aparılmalıdır"



**Azad İsazadə:**
"Yanğın hadisələrinin kütləvi hal alması insanlarda fobiya yarada bilər"

**Politoloq Ərəstun Oruclunun fikrincə, yanğınların təsadüfi səbəbləri də nəzərə alınaraq bu kimi hadisələrin araşdırılmasında terror və təxribat variantı istisna edilməməlidir:** "Bu hadisələrin ilk növbədə terror və təxribat məqsədilə yandırma ehtimalı istisna olunmamalıdır. Çünki əgər bu hadisələr terror və təxribat məqsədilə həyata keçirilibsə, ola bilər ki, bu hələ xəbərdarlıqdır. Deməli, bu hadisələr qarşıda daha ciddi aksiyaların həyata keçirilməsi barədə mesaj ola bilər. Bu baxımdan terror və təxribat ilkin versiya kimi araşdırılmalıdır. Şübhəsiz ki, paralel olaraq təsadüflər də nəzərə alınmalıdır. İstənilən halda səbəbi tapdıqdan sonra digər nüanslar ortaya çıxacaq".

**Ə.Oruclu onu da vurğuladı ki, Avropa Oyunlarına sayılı günlər qaldığı bir vaxtda bu qədər yanğının ard-arda baş verməsi paytaxtın imici baxımından yaxşı hal deyil:** "Bu hadisələr hətta təsadüf olsa belə, çox pisdir. Ona görə ki, bu hadisələr Avropa Oyunlarına gələcək insanlarda belə bir fikir formalaşdıracaq ki, bu şəhər təhlükəsiz deyil. Belə olan halda xeyli insan gəlmək fikrindən daşına bilər. Artıq milyonlarla manat xərc çəkilib, Avropa Oyunları üçün hər bir şərait qurulub, indi qalan son iş bu tədbirləri təhlükəsiz şəkildə başa vurmaqdır. Bunun üçün bütün resurslar səfərbər olunmalıdır".

**Politoloqun fikrincə, bu hadisələr siyasi hakimiyyətin də mövqeyini zəiflədir:** "Son baş verən bina yanğını və 16 nəfərin həlak olması cəmiyyətdə çox ciddi reaksiya doğurdu. Elə hakimiyyətin son addımları da bundan xəbər verir".

**Psixoloq Azad İsazadə isə bildirdi ki, bu cür hadisələrin kütləvi hal alması insanlarda fobiya yarada bilər:** "Ümumiyyətlə, bu kimi hadisələr həssas insanlara mənfi təsir edir. Ancaq insanlar arasında elə qruplar da var ki, bu məlumatları axtarır, bəd xəbərlərə meyllidir. İnsanlar bu cür məlumatları daha çox izləyirlər. Ona görə də ölümlə nəticələnən belə hadisələr və bu barədə informasiyaların cəmiyyətə ötürülməsi həssas insanlarda fobiya yarada bilər və gələcəkdə davranışlarında hansısa dəyişikliklərə səbəb ola bilər".

**Psixoloq bildirdi ki, son zamanlar yanğın hadisələrinin artması ondan xəbər verir ki, bu kimi hadisələr ilk növbədə hamımızı psixoloji baxımdan səfərbər etməlidir:** "Əksər avtomobillərdə alovsöndürən yoxdur, evlərin demək olar ki, heç birində yanğın balonları yoxdur. Bu hadisələr bizi məcbur edir ki, evlərimizdə bu cür təhlükəsizlik tədbirlərini görək. Müasir dünyada heç bir hadisədən yüz faizlik sığortalanmaq mümkün deyil. Biz yanğın və təbii fəlakətlərə hazır olmalıyıq. Yanğın zamanı davranış qaydalarını cəmiyyətə aşılamaq barədə maarifləndirmə tədbirləri həyata keçirmək mütləqdir. İnsanların əksəriyyəti yanğın zamanı nə etmək lazım olduğunu bilmir. Məlum məsələdir ki, yanğının qarşısını almaq üçün ilk növbədə pəncərəni bağlamaq lazımdır. Lakin bunun əksini edənlər də var. Əhali arasında bu təlimlər keçirilməlidir. Məktəblərdə, tələbələr arasında, iş yerlərində yanğın təhlükəsizliyi ilə bağlı təlimlər olmalıdır. Əgər insan bu barədə məlumatlı olsa, bu zaman təşvişə düşməz və təhlükəli yollara əl atmaz".

❑ **Nərgiz LİFTİYEVA**

# Qanunsuz mərcə "yox" deməyin vaxtıdır

## Onlayn virtual məntəqələr vasitəsilə milyonlarla manatlıq vəsait heç bir vergi ödənilmədən ölkə xaricinə çıxır

**Son illər populyarlıq qazanan mərc oyunlarında dövr edən maliyyə vəsaitlərinin tənzimlənməsi və vergi ödənişinin qanuni şəkildə həyata keçirilməsi böyük əhəmiyyət daşıyır. Təəssüf ki, eyni sözləri ölkə xaricinə onlayn şəkildə edilən pul qoyuluşları haqqında demək mümkün deyil.**

Hazırda Azərbaycanda bir çox onlayn mərc oynayanlar var. Bu cür onlayn oyunların fəaliyyəti ümumi dövlət siyasətinə ziddir. Bu virtual məntəqələr vasitəsilə milyonlarla manatlıq vəsait heç bir vergi ödənilmədən ölkə xaricinə çıxır. Bu rəqəm ildə ən azı 50 000 000 manata çatır. Həm də bu, yalnız görünən və bilinən miqdardır. Çünki "PayPal" adlanan ödəmə forması ilə köçürülən pulların bir çoxunun məbləği bilinmir.

Ölkə xaricində fəaliyyət göstərən kontorlarla iş vergidən yayınmaqdan əlavə bir sıra başqa mənfi nəticələrə də gətirib çıxara bilər. Belə ki, bu kontorlar müştərinin qazanc əldə etməsi üçün bir çox maneələr törədirlər. Xaricdə pul qoyuluşu edilən virtual məntəqələrdə müştəriləri gözləyən bir çox təhlükələr vardır:

***1.** Adi qeydiyyat zamanı hətta insanların şəxsi həyatının təfərrüatları öyrənilir. Şəxsiyyətin təsdiqi günlərlə yubadılır.*

***2.** Qeydiyyat zamanı ani diqqətsizlik hesabından əlavə xərcin çıxılmasına gətirə bilər. Bir çoxlarının əcnəbi dil bilməməsi səbəbindən tez-tez belə hallar baş verə bilər.*

***3**. Müştəriyə xəbər vermədən əmsalların azaldılması halları yaşanır.*

***4.**Ödəmələr gecikdirilir, ciddi süründürməçilik edilir.*

***5.** Uduşlara limitlər qoyulur və əgər limit keçilirsə, o pulun karta köçürülməsinə imkan verilmir.*

***6.** Pulun ümumiyyətlə verilməməsi təhlükəsi də var. Bu zaman heç bir yerə şikayət etmək, haqqını tələb etmək mümkünsüz olur.*

***7.**Bir dəfə böyük məbləğdə uduş olandan sonra qeydiyyatın dayandırılması, bir daha oynamaq şansı verilməməsi halları yaşana bilir.*

***8.**Qeyri-leqal kontorlar bir müddət sonra bağlana və müştərini pulsuz qoya bilir. Hətta bu barədə öz internet səhifələrində açıq-aşkar bilgi də yerləşdirirlər.*

***9.**Uduşdan komissiya xərcləri çıxıla bilər. Hesabdan pul çıxaran, yaxud ora pul əlavə edən zaman az da olsa, itki ola bilər. Ödənişlər adətən valyuta ilə edildiyindən aradakı məzənnə fərqi bəhanə edilərək xərc çıxıla bilər. Oyunçunun valyuta hesabı ilə plastik kart valyutası üst-üstə düşməyəndə belə hallar daha çox yaşana bilir.*

***10.**Təhlükəsizlik problemi yaşana bilər. Qeydiyyat üçün verilən elektron poçt vasitəsilə müştəridən xəbərsiz müxtəlif maliyyə maxinasiyaları mümkündür.*

Bunlar aysberqin görünən hissəsidir. Bu kontorların ilkin məqsədi müştərinin pul qazanmasına mane olmaqdır. Bunların qarşısının alınması çox vacibdir. Azərbaycanda bununla bağlı bəzi işlər görülsə də, lazımi səviyyədə deyil. İstər fiziki, istərsə də onlayn "qara bazar"a qarşı tədbirlər azdır.

"Bədən tərbiyəsi və idman haqqında" Qanunun 54-cü maddəsinə əsasən, qanunvericiliklə qadağan olunmayan "idman mərc oyunlarının keçirilməsindən daxil olan vəsaitlər" Azərbaycan idmanının maliyyələşdirilməsinə yönəldilir. Bu baxımdan əldə edilən maliyyənin kənara getməsinin qarşısının alınması ölkə səviyyəsində vacib xarakter alır. Məsələn, Azərbaycanın tək qanuni mərc operatoru "Topaz"ın, həmçinin onun elektron versiyası olan "Etopaz"ın əldə etdiyi gəlirlərdən ölkə büdcəsinə vergi ödəməsi, eyni zamanda qazanılan maliyyənin Azərbaycan Gənclər və İdman Nazirliyi vasitəsilə idman üçün xərclənməsini nəzərdən qaçırmamaq, mümkün olduğu qədər dəstək verilməsi lazımdır. Bundan başqa, elektron əməliyyatların Azərbaycanda aparılması rahatdır və bunun üçün bir çox kiosklar fəaliyyət göstərir ki, onlarla mübadilə zamanı gərəkli vergi də dövlət büdcəsinə ödənilir. Uduşlara dövlət təminatı verilir və qazanan şəxs iş günlərində pullarını istər kartlarına, istərsə də nağd şəkildə rahatlıqla rəsmiləşdirə bilirlər. Hər bir şəxsin hesabındakı vəsait onun özünə aiddir və istədiyi vaxt öz vəsaitini geri istəmək hüququ var.

Türkiyədə bu baxımdan dövlət nəzarəti yetərincə ciddidir. 2004-cü ildən ölkə xaricində yerləşən internet səhifələrinə qadağalar qoyulub, banklar heç bir əməliyyatlarda iştirak etmirlər, həmçinin plastik kart vasitəsilə əməliyyatlar aparmaq Mərkəzi Bank tərəfindən bloklaşdırılıb. 2013-cü ildə bu qanun daha da sərtləşdirildi. Türkiyə Böyük Millət Məclisinin qəbul etdiyi qanuna əsasən ölkə xaricində olan internet səhifələrinə pul qoyuluşu edən şəxslər təsbit olunduqları halda məsuliyyətə cəlb edilirlər. Bu, daxildəki maliyyənin ölkə xaricinə çıxarılmasını əngəlləmək məqsədini güdür. Dövlət orqanları mütəmadi olaraq xarici mənbəli internet səhifələrinə girişi bağlayır, bu istiqamətdəki qanunvericiliyin yenilənməsi, ondan irəli gələn məhkəmə və inzibati cəza mexanizminin hazırlığı, icraatının təmin edilməsini həyata keçirir. Hətta qanunvericiliyə xarici mərkəzli mərc oyunlarından gələn gəlirlərin toplandığı bank və kredit kartlarının xəbərdarlıq edilmədən bağlanılması kimi addımların atılması üzrə müzakirələr aparılır. Bir sözlə, qanunverici və icra orqanları vergidən bu cür yayınma hallarına qarşı mübarizəni bir an belə səngitmirlər.

Dünya nəhəngi Çində bütün xarici onlayn pul qoyuluşları qanunsuz sayılır. Belə bukmeykerlərə qarşı sərt tədbirlər görülür. İnternet səhifələrinə girişin qadağan edilməsi bu tədbirlər içərisindədir. Eyni təcrübə Avropa ölkələrində də, məsələn, Hollandiyada tətbiq olunur. Portuqaliya və Norveçdə isə yalnız dövlətin icazə verdiyi onlayn kontorda pul qoyuluşu etmək mümkündür. ABŞ-ın bəzi ştatlarında (Nyu-Cersi və Nevada), Almaniyanın Şlesviq-Holstayn əyalətində də mərkəzi ölkə xaricində olan kontora pul qoyuluşu etmək mümkünsüzdür. Bu istiqamətdə Fransada da çalışmalara start verilib. Bir sözlə, dünya özünün əlində olan pulunun başqa ölkələrə getməsinin absurd olduğunu qəbul edib.

Yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycanda bu istiqamətdə addımlar atılır. Ancaq hələ də böyük məbləğdə vəsaitlər vergi ödənilmədən ölkə xaricinə gedir. Bu pulu ölkə xaricinə çıxaran şəxslərin vergidən yayınmaqla yanaşı, başqa məqsədləri olduğu da istisna deyildir.

❑ **Reklam şöbəsi**

YENİ MÜSAVAT
N 114 (6142) 27 may 2015

**AXCP-nin Nərimanov təşkilatının təşkilati məsələlər üzrə şöbə müdiri Ağaşirin Tanrıverdioğlunun partiya sıralarından qovulması barədə xəbər vermişdik. Sabiq üzv redaksiyamıza gələrək, qurumdan xaric olunmasının səbəbləri ilə bağlı "Yeni Müsavat"a geniş müsahibə verdi.**

**Müsahibəsində A.Tanrıverdioğlu AXCP rəhbərliyinin ünvanına ağır ittihamlar səsləndirdi: "Qovulmağımla bağlı müxtəlif şər-böhtan kampaniyası aparırlar. Qeyd edim ki, siyasətdə olduğum zamanda daim gənclərin yanında olmuşam, gənclərin yüksək pillələrdə təmsil olunmasının tərəfdarı olmuşam.**

# AXCP-dən qovulan şöbə müdirinin sensasion müsahibəsi

## "Əli Kərimli, özündə cəsarət tap, istefa ver!"

Bunu bilən AXCP rəhbərliyi iradını öz "qulbeçə"ləri vasitəsilə mənə bildirib. Saxta profil tapdılar və dedilər ki, guya mənə məxsusdur. Amma sübuta yetirilmədi. Məni partiya əleyhinə çıxmaqda suçladılar. AXCP-nin mütləq əksəriyyəti bilir ki, Əli Kərimli Milli Şuraya sədr keçmək istəyir. Buna səbəb Avropa təşkilatlarından birinin Milli Şuranı yeganə müxalif qurum kimi tanıması ilə bağlı fikirləridir. Əli Kərimlinin qısqanclıq hissi imkan vermir ki, o kürsüdə Cəmil Həsənli otursun. Partiyadakı qruplar bunun əleyhinə çıxdı. Hazırda AXCP-də Fuad Qəhrəmanlı ilə Həsən Kərimovun başlarında durduqları iki qrup var. Fuad bəy partiyada heç kəs tərəfindən qəbul olunmur. Amma Əli bəy tərəfindən qəbul olunan yeganə adam odur. Heç kəslə məsləhətləşmədən partiyanı şəxsi sexi kimi Fuada ötürmək istəyir. Buna narazılığımı bildirdim. Bunu bəhanə edərək, Əli bəyin göstərişi ilə AXCP-dən xaric olundum. Ona xəbər veriblər ki, guya Ağaşirin regionlarda Fuadın əleyhinə təbliğat aparır. Məni çıxarsalar da, yüzlərlə mənim kimi partiyada cəbhəçi var. İstədiklərinə nail ola bilməyəcəklər. Kim azad sözün sahibidirsə, qovulur. Məmməd İbrahim Əli Kərimlinin söz gəzdirəni, işverənidir. Bunu bütün partiya bilir. Onun-bunun sözünü Əli bəyə çatdırır. Məndən də məlumat aparıb. Çıxarılmağıma kəskin etirazlar var. AXCP heç kəsin özəl mülkü deyil. Heç kəs deyə bilməz ki, sən cəbhəçi deyilsən. Bu əqidə qəlbimdədir. AXCP Əli Kərimlinin, Fuad Qəhrəmanlının, Məmməd İbrahimin ata-babasından qalmayıb. Böyük şəxsiyyətlərin miras qoyduğu partiyanı heç kim özəlləşdirə bilməz. Səhvlərini etiraf edənə qədər mübarizəmi davam etdirəcəm".

**"Məmməd İbrahim Əli Kərimlinin söz gəzdirəni, işverənidir. Bunu bütün partiya bilir. Onun-bunun sözünü Əli bəyə çatdırır. Məndən də məlumat aparıb"**

**A.Tanrıverdioğlu AXCP-ni məhkəməyə verdiyini, 156 min manat təzminat tələb etdiyini söylədi:** "Ya partiya rəhbərliyi səhvini etiraf edib, üzr istəyəcək, ya da məhkəməyə gələcək. 26 il ömrümü qoyduğum partiyadan 156 min manat təzminat tələb edirəm. Birbaşa Əli Kərimli cavab verməlidir, "qulbeçə"ləri yox. Dəfələrlə demişəm ki, xalqı aldatmayın. Hakimiyyətə güc göstərmək, iqtidara gəlmək taktikasını seçə bilmirsinizsə, çəkilin kənara. Əli Kərimli 2003-də Etibar Məmmədova dəstək verdi. Demək, öz gücü yoxdur prezident olmağa. 2008-i boşa verdi. 2013-də Cəmil Həsənliyə verdi. Sizin qəzet vasitəsilə Əlin bəyə sual verirəm, bu insanları hara aparırsan? Niyə etiraf etmirsən ki, gücüm yoxdur, hakimiyyətə gələ bilmirsən?! Yerini gənclərə verməlisən! Sifarişli insanlara sədrlik ötürmək olmaz. Bu insan icazəsiz mitinqlərin birinə də çıxa bilmir. Yalnız öz qulları ilə icazəli aksiyalara çıxır. Mən meydanda sürünəndə, Əli Kərimli pəncərədən əlində fincan çay içə-içə baxır. Onun partiya üçün məndən çox xidməti ola bilməz. AXCP-yə biznes kimi baxır. 2000-ci ildən partiya sədri olan şəxs, neçə seçkiləri ötürüb. Əli bəy, sən hakimiyyətlə işbirliyindən çıxandan, iqtidara güc göstərə bilmirsən. 1995-2000-ci illərdə hakimiyyətin razılığı ilə parlamentdə oturmusan. 2000-ci ildə özüm bunun şahidi olmuşam. Həmin ildə Əli Kərimli və komandasının parlamentə necə düşdüyünün şahidiyəm. Sadəcə, partiya xətrinə susmuşam".

**"Hazırda AXCP-də Fuad Qəhrəmanlı ilə Həsən Kərimovun başlarında durduqları iki qrup var. Fuad bəy partiyada heç kəs tərəfindən qəbul olunmur"**

**Sabiq partiya üzvü 2005-ci ilə qədər AXCP sədrinin hakimiyyətlə əlaqəsinin olduğunu söylədi:** "Axırıncı seçkisi 2000-ci ildə olub. 2005-də isə əlaqəsi kəsilib. Bunun içində olan kin-küdurəti, qəzəb, nifrəti görən adam bununla dostluq edə bilməz. Görün kimlər partiyanı tərk etdilər. Hamısı onun təkəbbürlüyünün nəticəsidir. AXCP ölkəmizin böyük ordusu idi. Hamısını Əli Kərimli dağıtdı. KXCP, BAXCP, Asim Mollazadə, Fazil Mustafa, Qulamhüseyn Əlibəyli və başqalarının ayrılmasının birbaşa baiskarı odur. Əli Kərimli hər şeyini partiyadan yüksək tutur. Neçə ildir oyunların içərisindəsən, Kərimli, cavab ver! Mənə fərqi yoxdur ki, necə uduzursan. Əsas səbəb odur ki, uduzursan, getməlisən. Niyə özündə cəsarət tapıb, partiya üçün canını qoyanlardan üzr istəyib, uzaqlaşmırsan? İndi bic siyasətlə Milli Şuranın başına keçmək istəyir. Fuadı sədr gətirmək istəyir. Nədir ki, o, hakim partiyanın yaxın adamıdır. Əli Kərimli bu yolla partiyadan qarantiya istəyir. Bunu Fuaddan başqa verəcək adam yoxdur. Fuad YAP-ın AXCP-dəki bağlı quzusudur. O, sədr gələn kimi, bir özü, bir də ətrafında 3-4 adam qalacaq. Hakimiyyətə bağlı olduğuna görə qəbul olunmur. Onun səsi həmişə dövlət saytlarından gəlir. Fuad üçün bunlar olar, Ağaşirin üçün olmaz? Onun beyninə sədrliyi də Əli bəy salıb. Oyunların hamısı bu iki şəxsin arasında oynanılır".




**Ağaşirin Tanrıverdioğlu Xalq Cəbhəsində baş verən pərdəarxası proseslər haqda müdhiş açıqlamalar verdi; "Əli bəy Milli Şuranın sədri olmağa hazırlaşır, öz yerinə də Fuadı gətirmək istəyir"**

**A.Tanrıverdioğlu AXCP daxilində yaxın olduğu qruplaşmanın adını da açıqladı:** "Həsən-Gözəl qrupunda olsaydım, partiyada qalardım. Gözəl Bayramlı Ali Məclis sədrliyinə iddialıdır. Ona görə bütün rayonlarda Ali Məclisə seçilən şəxsləri Həsən Kərimov öz nəzarəti ilə seçdirir. O da sədrliyi Gözəl xanıma ötürmək istəyir. Partiyanın döyünən ürəkləri həbsdədir. Tutulanlar bir qrupun üzvləridir. Mən də o qrupun yanında olmuşam. Bu gün də iddialıyam ki, AXCP-ni idarə edəcək bir şəxs var, o da Seymur Həzidir. Allah qapısını açsın. Fuad və Həsənin qruplaşmasında hakimiyyətlə bağlı o qədər insan var ki, həbs olunsam, təəccüblənməyin. Bunlar o sahənin də peşəkarlarıdır. Hazırda həbsdəki AXCP üzvlərinin tutulması partiya rəhbərliyinin ürəyindən oldu. Bununla kimlərəsə yol açıldı. Hakimiyyət Fuad qrupunun sədrliyə gəlməsini istəyir. Tutulanlarla bağlı hakimiyyətə məlumatı partiyadan ötürdülər. Seymur Həzi, Pərviz Həşimli, Asif Yusifli tutulur, sonra bu şəxslərə yaxın adamlar partiyadan xaric olunur. Bir dəfə gücləri yetmədi, ikinci dəfə məni min cür saxtakarlıqla çıxardılar. Bunların hamısının başında duran oyunçu Əli Kərimlidir. O, hakimiyyətə gəlmək barədə zərrə qədər düşünmür. Özünə yaxın olan zombiləşmiş qrupu saxlamaqla məşğuldur. Hansı nazirə 3 dəfə teleqram vursaq, bizi qəbul edər. Dəfələrlə Əli Kərimliyə zəng vurmuşam, mesaj yazmışam, cavab vermir. Hakimiyyətə gəlmək gücü olmayan Əli Kərimli, partiyadaxili qruplara nəzarət etməyi bacarır. O məhkəməyə Əli Kərimli gələcək. 156 minimi ondan alacam. "Azadlıq" qəzetinə müəyyən vaxtlarda kömək olmuşam. Bu iş icraata başlayan kimi, "Azadlıq" qəzetini də məhkəməyə verəcəm. Bütün mətbuat mənimlə maraqlanır, təkcə bu qəzetdən başqa. Telefonlarıma cavab vermirlər. Qərəzsiz qəzetdirsə, niyə məndən də müsahibə götürmür? Qəzet Əli Kərimlinin monopoliyasındadır. Onun icazəsi olmadan qəzetdə nöqtə, vergülün yeri dəyişə bilməz. Bu qədər qəzet üçün əziyyət çəkmişəm, qiymət vermirlərsə, məhkəmədə görüşərik".

**"AXCP-ni idarə edəcək bir şəxs var, o da Seymur Həzidir. Onun partiyadakı tərəfdarları sıxışdırılır, həbs edilir"**

**AXCP-dən qovulan üzv gələcəkdə istefaların və xaric olunanların sayının artacağını qeyd etdi:** "Bu proses davam edəcək. Kimlər Əli-Fuad cütlüyünün maraqlarına xidmət etmirsə, çıxarılacaq. Məclis üzvləri Həsən-Gözəl qrupundan deyilsə, çıxarılır. Hesab edirəm ki, Seymur Həziyə yaxın qrup partiyadan qovulacaq. Seymur bəy sədrliyə layiq insandır. Biz onu dəstəklədik. Amma dəstək olanlardan kol dibində gizlənənlər də var. Həsən bəy etiraf edəndən sonra, ən real namizəd Seymur bəy idi. Həbslər yenə gözlənilir. Partiyadan çıxartma ilə ürəkləri soyumaya bilər. Həbs olunsam, hakimiyyətdən yox, bunlardan görəcəm. Çünki sifarişçi bunlardır. Danılmaz faktdır. Həbsdə olanlar sübutdur. Məmməd İbrahim saxta profili iki saata yanımda qırdı. Kimin parolu oğurlanırsa, partiyanın işidir. Cəmil Həsənlinin də parolunu bunlar sındırmışdı. Öz rahat şəraitləri var. Bunları xalq yox, özləri maraqlandırır. Əksər partiya üzvləri 50 manat tapmır ki, evinə bazarlıq etsin, heç yerdən gəliri olmayan Fuad Qəhrəmanlı villada oturur. 20-30 minlik maşında gəzir. Məmməd İbrahim heç yerdə işləmir, 3 fərari oğlu ilə 500 manatlıq kirayədə qalır. Hardan alırsız bu pulları?! Bunların hamısı dövlət dairələrindən maliyyələşən adamlardır. Nərimanov şöbəsinin sədri Hacı Abbaslının ailəsi bilmir ki, bu, cəbhəçidir. Partiyanın mövcud vəziyyəti budur".

**Ağaşirin bəy AXCP-də baş verənlərin kökündə qurultayın dayandığından da söz açdı:** "Ali Məclis Həsənin, qurultay Kərimlinin marağındadır. Hansı rayona əl qoyublarsa, konfrans olub. Hansı rayonda imkan yoxdusa, narazıları çıxarılır. Dəfələrlə demişəm ki, maşınları minib rayonlarda şəkil çəkdirməklə məşğulsuz, Asif Yusiflinin övladı xəstədir, kömək edin. Fuad və Gözəl üstümə hücum çəkir ki, sənə hesabat verməliyik? Mən üzvlük haqqı verirəm. Bizlərin pulları ilə yaşıllıqlarda kabab yeyirlər".

**"Sizin qəzet vasitəsilə Əlin bəyə sual verirəm, bu insanları hara aparırsan? Niyə etiraf etmirsən ki, gücüm yoxdur, hakimiyyətə gələ bilmirsən?! Yerini gənclərə verməlisən!"**

**Sabiq üzv gələcəkdə təşkilat yaradacağı anonsunu verdi:** "Əgər öz əxlaqlarını belə nümayiş etdirsələr, yəqin ki, biz də təşkilatlanıb qərar verəcəyik. Elə partiya yaradacağıq ki, Fuad iki ömür yaşasa da, belə qurum yarada bilməz. Məhkəmə qərar versə, bunlar məndən üzr istəsə, o zaman partiya üzvü kimi qalaram. AXCP və "Azadlıq" qəzeti təzminatı ödəməlidir. Çoxlu cana doyan üzvlər var. Qurultayda bunları it kimi qovub, partiyaya qayıdacağıq. Kütləvi istefalar gözlənilir. Ox artıq yaydan çıxıb. İnsanları pulla ələ alırlar, Məmməd İbrahimə döndərirlər. Xalid Qarayev var. Nə iş gördüyündən xəbəri yoxdur. Amma Fuada xidmət edir. Xalid kimilər çoxdur partiyada. Partiya daxilində narazılıq qarşıdakı aylarda daha da güclənəcək. Milli Şura artıq özəlləşdirilib. Fuadla ilk davam Cəmil Həsənli şüarının yığışdırılması ilə bağlı oldu. Cəmil bəy AXCP-ni bataqlıqdan çıxardı. Çəkilən zəhmətə qiymət verən məxluq deyillər".

**A.Tanrıverdioğlu qəzetimiz vasitəsilə cəbhəçilərə səsləndi:** "Ayıq olun. Qruplaşmalar artıq rayonlara dağılır. Əli Kərimlidən siyasi qidalanan Fuad regionlara adamlar göndərir. Bu sarı tikanlardan özünüzü qoruyun. Qurultaya, Məclisə üzvlüyə namizəd verəndə, görün kimi verirsiz. Atdığınız yanlış addımlar partiyanı məhvə sürükləyir. Yerinizdə möhkəm durun. Mübarizəmiz qabaqdadır. Bunların hamısı silinib kənara atılası adamlardır. Qarşıdakı iki ildə qurultay gözlənilmir. Əli Kərimli partiyadan o zaman çəkiləcək ki, yığmaq mümkün olmayacaq. Deyəcək ki, mən idim idarə edən. AXCP-nin zəifləməsi bunlara sərf edir".

**Sabiq AXCP üzvü sonda partiyanın "Yeni Müsavat"a olan düşmən münasibətindən də danışdı:** "Keçən dəfə məni çıxarmaq istəyəndə sizə müsahibə verdim. Açıq şəkildə mənə dedilər ki, sən düşmən qəzetə niyə müsahibə vermisən?! Partiyada fanat qruplar var. Hazır vəziyyətdə "Yeni Müsavat"a müsahibə verən insanları gözləyirlər. Hakimiyyət qəzetinə müsahibə vermək olar, "Yeni Müsavat"a yox. Göstəriş Əli Kərimliyə məxsusdur. Fuada hakimiyyət qəzetlərinə müsahibə olar, "Yeni Müsavat"a yox. Bütün bunlar qısqanclıqdır. Əli Kərimli və ətrafının bir siyasəti var, kim bizimlə deyilsə, düşmənimizdir. Kim AXCP-nin üzvü deyilsə, "Azadlıq" qəzetində işləmirsə, nifrət edirlər. Partiya üzvünün əlində "Yeni Müsavat" görsələr, deyəcəklər ki, 40 qəpiyi hara vermisən. Məqsəd bu qəzeti sıradan çıxarmaqdır. Adicə Əli Kərimlinin keçmiş müşaviri Ramiz Tağı ilə dostluğum bunlarda mənə qarşı nifrət oyatdı. Çıxarılmağıma səbəblərdən biri də bu amil oldu. Açıqca deyirdilər ki, ya partiya, ya da Ramiz Tağı".

❑ **Cavanşir ABBASLI**

# Abituriyentlər və valideynləri mütləq bu yazını oxusun...

## İmtahanlar zamanı nələrə əməl etmək lazımdır?

**Dərs ili demək olar ki, başa çatmaq üzrədir. Bu ərəfədə ən çox həyəcan keçirənlər isə orta məktəb məzunlarıdır. Bir tərəfdən buraxılış imtahanı, digər tərəfdən ali məktəblərə qəbul imtahanlarının başlamasına sayılı günlər qalması onların həyəcanını artırır.**



Bir çox ölkələrdə təhsil müəssisələrində, hazırlıq kurslarında abituriyentlərlə xüsusi psixoloqlar işləyir və onlarda özünəinam yaratmağa çalışırlar. Təsadüfi deyil ki, hər il imtahan ərəfəsində istər Azərbaycanda, istər qardaş Türkiyədə, istərsə də digər ölkələrdə onlarla gənc imtahan uğursuzluğu səbəbindən intihar edir. Bütün bunların baş verməməsi üçün ekspertlər hazırkı dövrdə abituriyentlərə psixoloji dəstəyin vacib olduğunu vurğulayır.

**XXI əsr Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev bildirdi ki, abituriyentlərlə imtahan öncəsi psixoloji söhbətlərin aparılması çox önəmlidir:** "Şəxsən mən hələ indiyə qədər təhsil sistemi inkişaf etmiş hansısa ölkədə şagirdlərin və abituriyentlərin imtahanqabağı gərginlik keçirməsi haqqında faktlara rast gəlməmişəm. Bunun daha çox mental xüsusiyyətlə bağlı olması iddiası doğrulur. Bu, məktəb mühiti və ailələrdəki durumla daha çox bağlıdır. Əslində imtahanqabağı abituriyentlərin psixoloji durumunun yaxşılaşdırılması ilə məktəb psixoloqları məşğul olmalıdır. Ancaq məktəb psixoloqlarının peşəkarlığının yüksək olması barədə hələlik müsbət fikir söyləmək çətindir. Bu amil şagirdlərin imtahanlara hazırlaşmasından tutmuş, onların gündəlik davranışınadək özünü göstərir.

Azərbaycanda şagirdlərin böyük kəsimi imtahanlarda sarsıntı keçirir. Proqramı yüksək səviyyədə mənimsəyən və normal bilikləri malik olanlar imtahan öncəsi heç bir sarsıntı keçirmir. Təəssüf ki, faiz nisbətində bu tip abituriyentlərin sayı azdır. Yalnız zəif oxuyanlar, özlərinə inamı olmayanlar imtahanlardan qorxu hissi və sarsıntı keçirirlər. Hətta onların böyük bir qismi məscidlərə və nəzir qutularına üz tuturlar".

**Ekspert vurğuladı ki, abituriyentlərə imtahan suallarının çətinləşdirilməsini söyləmək olmaz:**"Bu amil uşaqlarda qorxu hissi yaradır. Bunu çox vaxt repetitorluqla məşğul olanlar bilərəkdən edirlər. Bu gün abituriyentlər bircə şeyi bilməlidirlər ki, indiki imtahan sistemində onlar canlı olaraq heç kimlə ünsiyyətdə olmurlar. Bu amil onlara imkan verir ki, bilikləri kağıza tələsmədən köçürsünlər və həyəcan keçirməsinlər. Bu, şübhəsiz ki, biliyi olanlara aiddir".

**Ekspert abituriyentlərin bəzi dərman firmalarının tələsinə düşməkdən qorunmasının da vacib olduğunu bildirdi:** "Bir çox hallarda televiziyalarda imtahanqabağı şagirdlərə hansısa preparatların qəbul olunması tövsiyə olunur. Bunun özü də yolverilməzdir. Bunun neqativ tərəfinin çoxsaylı şahidləri var. Maraqlıdır ki, abituriyentlərin böyük bir kəsimi də həyəcan və stress keçirməyi biliksizliklərini ört-basdır etmək üçün alibi kimi istifadə edirlər. Çox vaxt valideynləri də onlara bəraət qazandırır və deyirlər: "Həyəcan keçirdi və cavabları sürüşdürdü". "Stress keçirənlər" üçün bu ifadəni tez-tez eşidirik. Normal psixoloji məsləhətlər istisna olunduqda abituriyent öz xarakterinə güvənməlidir. Abituriyentin yeganə köməkçisi onun özünə güvəni olmalıdır. Elə məktəbin əsas vəzifələrindən biri uşaqlarda xarakter formalaşdırmaqdır. Bu olmadıqda həyəcan və stress həmişə olacaq".

**Psixoloq Azad İsazadə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, abituriyentlər adətən bu ərəfədə iki problemlə qarşılaşırlar:** "Birincisi, imtahan zamanı yaşadıqları həyəcan səbəbindən biliklərini lazımınca nümayiş etdirə bilməmək, ikinci isə hazırlıq vaxtı uzunmüddətli dövrdə beynin həddindən artıq yüklənməsi və yeni məlumatların çətin qavranılması. Bu problemin öhdəsindən gəlmək üçün vaxtaşırı istirahət etmək və təmiz havada olmaq lazımdır. İmtahana bir neçə gün qalmış fikri başqa istiqamətə yönəltmək və beyni dincəltmək lazımdır. Çünki 1-2 il ərzində öyrəndikləri kifayət etmirsə, bir həftəyə çətin ki, bu durumu düzəldə bilsinlər. Son günlərdə sadəcə təkrar etmək və bilikləri təzələmək lazımdır. Əgər abituriyentdə həyəcan həddindən artıq güclüdürsə, onu psixoloq yanına aparmaq lazımdır. Mən abituriyentlərin valideynlərinə məsləhət görərdim ki, uşaqların üzərindəki gərginliyi azaltsınlar. Təbii ki, hər kəs övladının ali məktəbə qəbul olunmasını istəyir. Ancaq abituriyentlərə izah etmək lazımdır ki, nəticə istənilən kimi olmasa, imtahandan kəsilsə belə, bu, problem deyil, çünki yeniyetmələr üçün bu durum inamsızlığa və depressiyaya səbəb ola bilər. Belə məqamda valideyn övladına dəstək olmalıdır. Önəmli məqamlardan biri də valideynlərin bu dövrdə abituriyentlər üzərindəki basqını azaltmasıdır".

**"Yeni Müsavat"ın mövzu ilə bağlı Təhsil Nazirliyinə göndərdiyi sorğunun cavabında isə deyilir ki, şagirdlər imtahanqabağı bir neçə sınaqdan keçirlər və bu sınaqlar vasitəsilə onlar imtahanlara, bir qayda olaraq, psixoloji cəhətdən hazır olurlar:** "Məlum olduğu kimi, imtahan zamanı otaqlarda nəzarətçi müəllimlər olur və bu müəllimlər nəzarət funksiyasını yerinə yetirməklə bərabər, həyəcan keçirən şagirdlərə diqqət yetirir, onların psixoloji sabitliyinin bərpasına pedaqoji üsullarla köməklik göstərirlər". Cavabda vurğulanır ki, buraxılış sinfi şagirdlərini diqqətdə saxlamaq, onların imtahanlara hazırlığı ilə maraqlanmaq, şagirdlərə psixoloji yardım göstərmək məktəb psixoloqlarının bilavasitə vəzifələrinə aiddir.

**Sonda bütün abituriyentlərə uğurlar arzulayırıq.**

❑ **Nərgiz LİFTİYEVA**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
✓ Əla tələffüz və güvənlə danışmaq
✓ Real ingiliscə söhbətlər

BONUS
English EXPLOSION
dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**
**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**
**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**
**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**
**Əlaqə telefonu: (055) 206-14-61**

**Təcili! Mehdiabadın gözəl mənzərəli və hündür yerində 3.5 sot torpaq sahəsi satılır.**
**Bütün sənədləri qaydasındadır. 1 sot qiyməti 7500 və 3.5 sot cəmi 26250 AZN.**
**(055) 740-25-64 ANAR**

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**
**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

YENİ MÜSAVAT
N 114 (6142) 27 may 2015

# Qadın hüquqları: Polşada qadınlar üçün mübarizə aparanlar...

**Azərbaycandan olan qadın təşkilatlarının nümayəndələrinin Polşadakı vətəndaş cəmiyyəti üzvləri və KİV-lə təşkil olunan səfər-görüşlərindən maraqlı təəssüratlarımı sizinlə bölüşmək istəyirəm. Polşa əslində postsovet ölkələri üçün çox əla bir örnəkdir. Həm demokratiyaya keçid baxımından, həm də Avropa dəyərlərinin aşılanması baxımından... Nəzərə almasaq ki, Polşa vətəndaşları daha çox qayda-qanuna, yeniliklərə və insan haqlarına hörmətlə yanaşırlar, bir çox baxımdan eyni mərhələləri keçmişik deyə bilərəm.**

Səfər zamanı Varşavadakı ilk görüşümüz təlim xarakterli oldu. Həmin görüşdə aparılan müzakirələrdə də bunun şahidi olduq. Polşa Haqların Antidiskriminasiya Assosiasiyasının sədri hüquq elmləri doktoru Karolina Kendziora ölkəsində qadın hüquqlarını müdafiə edən təşkilatlarla hökumətin qarşılıqlı əməkdaşlığını, Avropa Konvensiyalarının ölkədə tətbiqi, məhkəmə işləri barədə məlumat verdi. Dr. Kendziora qeyd etdi ki, Azərbaycandakı kimi Polşada da Konstitusiyaya xırda bir dəyişiklik etmək üçün QHT-lər aylarla mübarizə aparmalı olurlar. Amma sevindirici odur ki, Avropa İttifaqına qoşulmaqla Polşa üçün bəzi konvensiyalar və qanunlar məcburi qaydada tətbiq olunur, bu da vətəndaş cəmiyyətinin işini əhəmiyyətli dərəcədə yüngülləşdirir. Məhz 2011-ci ildə İstanbulda imzalanmış "Ailə məişət zorakılığı və qadınlara qarşı zorakılıqla mübarizə və onun ləğvi" ilə bağlı konvensiya da bu qəbildən olan sənədlərdəndir. Konvensiyanın tətbiqinə başlanandan sonra Polşada bu sahədə xeyli irəliləmə müşahidə olunmuş, statistikaya görə məişət zorakılığı zəminində olan hadisələrdə azalma müşahidə olunmuşdu.

Polşada fəaliyyət göstərən qadın təşkilatlarının hal hazırda ən çox mübarizə apardıqları sahə abortla bağlıdır. Bildiyimiz kimi Polşa, əhalisinin dini görüşləri çox qatı olan bir ölkədir. Və katoliklər abortu çox böyük günah hesab edirlər. Ölkədə qadın abortu sadəcə 3 halda etdirə bilər:

- təcavüz nəticəsində hamiləlik zamanı;
- uşağın qeyri-sağlam doğulacağı dəqiqləşəndə;
- hamiləliyin ananın həyatına və ya sağlamlığına zərbə vuracağı müəyyənləşəndə

Qadın təşkilatları isə bu qanunun dəyişməsini, dünyaya uşaq gətirib gətirməyəcəyinin hər qadının şəxsi qərarı olmasını istəyirlər. Zatən qadın təşkilatlarının apardıqları sorğuya görə ölkədə il ərzində 60.000 dən çox gizli abort baş verir ki, bu da məhz qadınların həyatı üçün təhlükədir.

Hüquq elmləri doktoru Karolina Kendziora bu məsələdə bizə Avropa məhkəmələrinə verilən işlər barədə də məlumat verdi. Uğurlu yekunlaşan işlərdən biri - Alisia Tişönsün Polşaya qarşı məhkəmə işi idi. A.Tişöns hamilə olarkən həkimlər onun dünyaya uşaq gətirməsinin təhlükəli olacağını, gözlərinin tutula biləcəyini deyir. Amma məhkəmə aborta icazə vermir. Nəticədə xanım Tişöns bir gözündə tamamilə, digərində isə 70% görmə qabiliyyətini itirir. Sağlamlığını itirsə də gənc ana haqlarını müdafiə edib, ona qarşı olan ədalətsiz qərar barədə məhkəməyə müraciət edib. Avropa məhkəməsi aborta icazə verilməməsi qərarını onun şəxsi həyatına müdaxilə kimi qiymətləndirib və Alisa Tişönsə 14.000+25.000 avro kompensasiya ödənilməsi qərarı qəbul edilib.

### Qadınlar Konqresi

Çox bəyənilən görüşlərdən biri də Polşanın Qadınlar Konqresində oldu. Qadınlar Konqresi ən uğurlu layihələr həyata keçirən çoxillik təşkilatlardan biridir. Siyasətçi, işgüzar, gənc qızlar arasında lider qadın yetişdirmək proqramları var. Qadın Konqresinin tərkibində kölgə kabineti var. İldə bir dəfə Polşanın baş naziri Qadınlar Konqresinin Kölgə Kabinetinin üzvlərini qəbul edir. Konqresin üzvlərindən biri artıq Hökumətdə ailədən sorumlu müşavir kimi təmsil olunur.

Konqresin prezidenti, tanınmış teleaparıcı Dorota Vorokomska Konqresin fəaliyyətində olan müxtəlif uğur hekayələri barədə məlumat verdi.

Qadın Konqresinə hər kəs üzv ola bilər. Hətta onlar birinci xanımları, tanınmış insanları Konqresə üzv qəbul edirlər. Bu həm Konqresin işinin reklamı, həm də ianə toplamaq baxımından çox effektlidir. Varakomska xüsusi qeyd etdi ki, Polşada dini tolerantlıq çox aşağı səviyyədə olduğundan feminizmlə katalokisizm düşüncələri tez tez münaqişələrə səbəb olurdu. Konqresin uğurlu fəaliyyəti nəticəsində bu gün onların tədbirlərində hər iki görüşün təmsilçiləri yanaşı otura bilir. Biz Dorota Vorokomskadan yük təcrübə mübadiləsi oldu.

Məsələn, Feminoteka təşkilatı öncə ilkin fəaliyyətinə qadınlar üçün yaradılan bir kitabxanadan başlayıb. Sonradan kitabxanaya müraciət edən qadınların problemlərinə yardım edərək böyüməyə başlayıb.

Xüsusi qeyd eləmək istərdim ki, Polşada qadınlar hüquqları uğrunda daha şüurlu və maarifləndirilmiş mübarizə aparırlar. Ona görə də qadın təşkilatlarının işi daha rahatdır.

Məsələn, "Qolubaya liniya" 2004-cü ildən yaradılan bir təşkilatdır. Cəmi 11 ildir fəaliyyət göstərməsinə baxmayaraq çox önəmli layihələr həyata keçirə bilib. Qeyd edim ki, Varşava şəhər bələdiyyəsi ailəiçi zorakılığa, qadına şiddətə qarşı mübarizə aparmaq üçün layihələrə donorluq edir. "Qolubaya liniya" da şəhər bələdiyyəsi ilə bu layihədə əməkdaşlıq edir. Hər 4 ildən bir keçirilən qrant müsabiqəsində şəhər bələdiyyəsinin verdiyi 1 milyon dollarlıq layihənin hal hazırkı tərəfdaşı olaraq Varşavada 5 sığınacağa nəzarət edirlər. Sığınacaqlar 250 qadının yerləşməsinə müsaiddir. Onların fəaliyyəti bir növ təcili yardım xarakteri daşıyır. Zorakılığa məruz qalmış qadına Qaynar Xəttə zəng edən andan təşkilatın himayəsinə keçir. Psixoloji, hüquqi yardımlarla yanaşı, qadınlara təlim keçilir, onların sosial və maddi təminatı təşkilat tərəfindən qarşılanır. Və bir dəfə də olsun təşkilatın Qaynar Xəttinə zəng edən qadınlar siyahıya alınır, sonrakı həyatında da nəzarətdə saxlanılır.

Polşada qeyri-hökumət təşkilatları ilə bağlı yenilikçi adlandırıla biləcəyimiz, ilk dəfə eşitdiyimiz məsələ vergi siyasəti ilə bağlı oldu. Hər il ölkədə ictimai faydalı təşkilatların siyahısı müəyyənləşdirilir. Və vergi ödəyicisi olan hər bir fiziki şəxs ödədiyi verginin 1%-ni istədiyi ictimai faydalı təşkilata pay verə bilir. Bu da QHT-lər üçün çox gözəl maddi dayaqdır. Hüquqi şəxslər isə QHT-lər üçün şirkətlərin büdcəsindən formalaşan layihə müsabiqələri keçirirlər.

Bizim ölkədən fərqli olaraq bu QHT-lərə elə dövlət dəstəyi hesab edilə bilər. Bu cür qanunların işlədiyi bir ölkədə təbii ki, işin nəticəsi də olar. Belə ki, ölkədə qadınlara qarşı zorakılığın azalması statistik göstəricilərdə də özünü göstərir. Qadın təşkilatları bunu Vətəndaş Cəmiyyətinin uğuru kimi dəyərləndirir.

### İctimai həyatda bərabərlik ailədə bərabərlikdən başlayır

Polşadakı görüşlər çərçivəsində biz məşhur "Karat" -qadın bərabərliyi uğrunda beynəlxalq koalisiyada, "Qadın hüquqları Mərkəzi"ndə, "Feminoteka", "Qolubaya Liniya", "Amazonki" kimi təşkilatlarda olduq. Çox böyük təcrübə mübadiləsi oldu.

təşkilatın bu qədər uğurlu fəaliyyətinin səbəbini soruşanda bildirdi ki, aramızda olan qadının təmənnasızdır, onlar bu işə ürəkdən bağlıdırlar, harda işləməklərindən asılı olmayaraq təşkilatın fəaliyyətinə çox məsuliyyətli yanaşır, buradakı vəzifələrini dəqiqliklə yerinə yetirirlər. "Şəxsən mənim özümə Prezident bir neçə dəfə hökumətdə təmsil olunmaq təklif edib, mənim isə cavabım "yox" olub. Çünki mənim məqsədim qadınların vəziyyətinin yaxşılaşması üçün mübarizə aparmaqdır, karyeramı qazanmışam. İnsanlar məni sevir, hörmət edir. Hər kəs vəzifə axtarsa problemlər həll olunmaz".





**❑ Aynur İMRANOVA**

*Yazı Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC) və D.Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətindən ibarət Koalisiya tərəfindən icra edilən və ABŞ Beynəlxalq İnkişaf Agentliyi tərəfindən maliyyələşən Counterpart İnternationalın rəhbərlik etdiyi Qadın İştirakçılığı Proqramı çərçivəsində keçirilən "CEDAW ƏMƏLDƏ" adlı layihəsi üçün hazırlanıb.*



## Aynur İmranova - araşdırmaçı jurnalist

*Prezident Yanında Dövlət İdarəetmə Akademiyasının bakalavr və magistr məzunudur. Avropa Siyasi Biliklər Məktəbini bitirib. Jurnalist fəaliyyətinə 1994-cü ildən "Müxalifət" qəzetində başlayıb. Ölkənin müxtəlif media qurumlarında çalışıb. Son illər biznes araşdırmaları ilə məşğuldur. Ölkədə bir çox korrupsiya və rüşvət, məmurların biznes şəbəkələri haqqında populyar araşdırmaların müəllifidir. Eyni zamanda genderə həssas jurnalistika, sosial mediadan uğurlu istifadə, araşdırmaçı jurnalistika mövzularında təlimçi kimi fəaliyyət göstərir.*

## Azərbaycanda qadın təşkilatlarının apara biləcəyi kampaniyalar: Polşa səfərindən çıxarılan nəticələr

**Polşadakı Qeyri-Hökumət təşkilatlarının təcrübəsindən Azərbaycanda fəaliyyət göstərən təşkilatların da öyrənəcəyi bir çox metodlar var. Əslində ötən yazılarımdan birində də qeyd etdiyim kimi, Polşadakı təşkilatlarda fəaliyyət daha asandır. Çünki əsasən, tanınmış və ictimai əhəmiyyətli işlər aparan təşkilatların maddi problemi yoxdur. Belə ki, hər il ictimai əhəmiyyət daşıyan təşkilatların siyahısı tərtib olunur. Və hər bir vətəndaş ödədiyi verginin 1 faizini o təşkilatlardan birinə bağışlamaq hüququna malikdir. Bizim QHT-lərin isə qrantlardan başqa ciddi maliyyə mənbələri yoxdur. Ona görə də yerli QHT-lər özlərini təsdiq etmək üçün sevdikləri və daha uğurlu bacaracaqları layihələri deyil, onlara donorlar təklif elədiyi mövzularda, onları qane edəcək formalarda layihələri işləməyə vadar olur.**

Polşada QHT-lərin fəaliyyət təcrübəsini öyrənərkən ən çox diqqətimi cəlb edən ictimai kampaniyalar oldu. İctimai kampaniyalar sayəsində ölkədə çox ciddi işlər görülüb, hətta qanun layihələrinin qəbuluna nail olunub.

Bu sistemi tətbiq etmək üçün QHT mütləq özünə ölkədə populyar olan KİV-lər arasından tərəfdaş media tapmalıdır. Tərəfdaş media ilə birlikdə aparılacaq ictimai əhəmiyyətli kampaniyanın ana xətti, şüarları və hədəfləri müəyyənləşməlidir.

Məsələn, Azərbaycanda bu gün ictimai əhəmiyyət daşıyan əsas qadın problemləri bunlar hesab edilə bilər: erkən nikahlar; təhsildən yayındırma; karyera yüksəlişində maneələr; qadına qarşı şiddət; insan alveri qurbanı olan qadınların cəmiyyətə qazandırılması və sair ...

Polşada qadınlarla bağlı aparılan ən genişmiqyaslı kampaniya abortla və doğumdan sonra körpənin ana qucağına verilməsi ilə bağlı olan kampaniyalar idi. Hər iki kampaniyanın genişmiqyaslı olmasının səbəbi siyasi yük daşımaması, bütün təbəqədən, cinsdən, peşədən asılı olmayaraq insanları narahat edəcək problem qoyuluşuna malik olmasıdır. Ayrıca bu kampaniyaya qadın və insan haqları sahəsində çalışan bütün Qeyri-Hökumət Təşkilatları qoşulmuşdu. Kampaniya tək tərəfdaş media tərəfindən deyil, başlayandan az müddət sonra bütün Kütləvi İnformasiya Vasitələri tərəfindən işıqlandırılmağa başladı.

Təəssüf ki, Azərbaycanda qadın və insan hüquqları sahəsində belə genişmiqyaslı kampaniyalar keçirilməyib. Ən çox yadda qalan "Xocalıya Ədalət" kampaniyası idi, o da müəyyən olunmuş hədəf əldə edilmədən dayandırıldı.

Təklif edərdim ki, erkən nikahlar mövzusunda belə bir genişmiqyaslı kampaniya təşkil olunsun. Öncə tərəfdaş media seçilsin, sonra tərəfdaş media ilə insanları sıxmayacaq, hər həftə dəyişdirilə biləcək şüarlar, kampaniyanın mənasını özündə ehtiva edən şəkillər seçilsin. Hər həftə bu mövzuda müsahibələr, reportajlar təşkil olunsun. Kampaniyanın ikinci həftəsindən ölkədə fəaliyyət göstərən digər qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri dəstək üçün dəvət edilsinlər. İkinci ay tədbirlər erkən nikahların daha çox təsadüf etdiyi bölgələrə səfərlərlə həsr olsun. Təbii ki, media dəstəyi ilə birlikdə. Üçüncü ay artıq kampaniyanın məntiqi sonluğu olaraq hökumətə müraciət edilsin. Bu prosesə millət vəkilləri cəlb olunsun. Lazım gələrsə, qanun layihələri və ya tədbirlər planı hazırlanıb təqdim olunsun. İctimai əhəmiyyət daşıyan geniş miqyaslı layihələrin özəlliyi o olmalıdır ki, kampaniyaların sonunda məntiqli nəticə əldə edilmiş olunsun.

Son olaraq xüsusi vurğulamaq istərdim ki, Polşa və Azərbaycan QHT- lərini müqayisə edərkən ən çatışmayan xüsusiyyət prinsipiallıqdır. Böyük əksəriyyət davamlı və uzunmüddətli işlərdən qaçırlar. Qısamüddətli layihələrə üstünlük verirlər. Hansı ki ictimai əhəmiyyət daşıyan böyük kampaniyaların aparılması zamanı stereotiplərin dağıdılması üçün davamlılıq və nəticə əldə edənə qədər ardıcıllıq çox önəmlidir. Bu proses uzun müddət sürsə belə...

**❑ Aynur İmranova**

*Yazı Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC) və D.Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətindən ibarət Koalisiya tərəfindən icra edilən və ABŞ Beynəlxalq İnkişaf Agentliyi tərəfindən maliyyələşən Counterpart İnternationalın rəhbərlik etdiyi Qadın İştirakçılığı Proqramı çərçivəsində keçirilən "CEDAW ƏMƏLDƏ" adlı layihəsi üçün hazırlanıb.*

YENİ MÜSAVAT

Son səhifə

N 114 (6142) 27 may 2015

# Telefon həyatını xilas etdi

Tüfənglə vurulan çinli adam telefonunun köməyi ilə ölümdən xilas olub. "İpone 5S" markalı telefonlar satışına görə Apple firmasının üzünü güldürməsə də, 25 yaşlı gəncin həyatını xilas edib. Adı açıqlanmayan gənc oğlanın sözlərinə görə, o binanın suyunu kəsən bir neçə nəfərlə mübahisə apararkən tüfənglə vurulub. Güllə oğlanın sinəsinə deyil, pencəyinin cibindəki telefona dəydiyi üçün gənc ağır yaralanmayıb. Sinəsindən yüngül xəsarət alan oğlanın heç bir həyatı təhlükəsi olmadığı bildirilib. Polislər oğlanın cibində telefon olmasaydı yaşaya bilməyəcəyini deyiblər. Hadisə zamanı tüfəngdən atəş açan 19 yaşlı oğlan həbs edilib.




## Sürücü son mənzilə sükan arxasında yola salındı



Porta Riqalı taksi sürücüsünün qızı atasının son istəyini yerinə yetirərək, qeyri-adi bir cənazə mərasimi təşkil edib. 73 yaşlı taksi sürücüsü Victor Perez Kardona uzun müddət imiş ki, xərçəng xəstəliyindən əziyyət çəkirmiş. O, ölmədən öncə son istəyini qızına bildirib. Yaşlı kişi dəfn edilməzdən əvvəl son dəfə maşınında sükan arxasında oturmaq istədiyini deyib. Qızı atasının son istəyini yerinə yetirmək üçün ona kostyum geydirib və çox sevdiyi maşınında sürücü yerində oturdub.

V.P.Kardona 15 ildir ki, Aguaa Buenosda taksi sürücülüyü ilə məşğul imiş. Yaşlı kişinin maşınının ətrafında toplaşan yaxınları ona son dəfə baxıb, vidalaşıblar.

## Türkmənbaşı qızıldan heykəlini qoydurdu

Türkmənistan prezidenti Qurbanqulu Bədirməhəmmədov paytaxt Aşqabadda 24 əyarlı qızıldan heykəlini qoydurub. Bir çoxları qızıl heykəl tələbinin xalqdan gəldiyini deyiblər. At üzərindəki 24 əyarlı qızıl heykəl böyük bir mərmərin üzərinə qoyulub. Bu, Bədirməhəmmədovun ilk heykəlidir. Məlumatlara görə, heykəlin açılışına gələnlər göyərçin uçurub, göy üzünə balonlar buraxıblar. Prezident ötən il heykəl məsələsi gündəmə gəldiyi zaman əsl məqsədinin xalqa xidmət etmək olduğunu, onlar nə istəsə onu edəcəyini deyiblər. Qızıl heykəl bir çoxlarına Türkmənbaşı olaraq tanınan Səfərmurad Niyazovu xatırladır. Qaz zəngini olaraq tanınan Türkmənistanda media azad deyil, xalqın xarici ölkəyə çıxması nəzarətdə saxlanılır. Niyazov günlərin, ayların, hətta ailə üzvlərinin belə adını dəyişdirmişdi. Ölkədə paytaxtdan başqa hər yerdə xəstəxanalar bağlıdır. Opera və sirklərə qadağa qoyulub.



## 30 il sonra ilk dəfə



İngiltərə sahillərinin yeni sahiblərini görənlər gözlərinə inana bilmirlər. Qeyri-adi böyüklükdə olan minlərlə dəniz anası hər gün bir az daha sahilə yaxınlaşır. 32 kiloqram ağırlığında və 1 metr 80 santimetr uzunluğunda olan bir dəniz anaları İngiltərə sahillərində yaşayanlar üçün ciddi problemə çevrilib. Suyun çox dərin yerlərində yaşayan bu canlıların sahilə çıxması mütəxəssisləri belə şoka salıb. Dəniz anaları insanları öldürə biləcək dərəcədə zərər verməsələr də "qurdeşən" adı ilə tanınan qaşıntı xəstəliyi yaradırlar. Qorxunc böyüklükdəki bu canlıların sahilə çıxmasının səbəbi isə suyun çox isinməsidir. Fotoqraf Steve Trevhella 1980-ci illərdən bəri ilk dəfə bu qədər böyük bir dəniz anasının sahilə çıxdığını deyib. Dəniz analarının nə vaxta qədər sahildə qalacağı və nə vaxt geri qayıdacaqları hər kəsin diqqət mərkəzindədir.

## Hacılar üçün qolbaq



Səudiyyə Ərəbistanında Həccə getmək istəyənlər üçün elektrikli qolbaq hazırlanır. Ölkə mediasından yayılan məlumatlara görə, yeni qolbaqları taxmaq ziyarətə gedənlər üçün məcburi olacaq. Yeni qolbaqda sahibinin bütün məlumatları toplanacaq. Suda da işləyə bilən saat namaz vaxtlarını xatırladacaq və qibləni göstərəcək.




**QOÇ** - İxtiyarınızda olan bu bazar günündə heç bir narahatçılığınız gözlənilmir. İşgüzar sövdələşmələrdə iştirak etsəniz, iyunun gəlişinə qədər hansısa probleminiz yaranmayacaq. Pulla bağlı ehtiyatlı olun.

**BUĞA** - Havaların istiləşməsi sizə mənfi təsir göstərməkdədir. Odur ki, var gücünüzlə sağlamlığınızı qoruyun. Nahardan sonra şəxsi işlərinizdə böyük dəyişikliklər mümkündür.

**ƏKİZLƏR** - Yaxşı olar ki, bürcünüzün "hakim" olduğu bu ərəfədə hisslərinizi cilovlayasınız. Əks təqdirdə, arzulamadığınız qalmaqala tuş gələcəksiniz. Yeni əlaqələr uğurdan xəbər verir.

**XƏRÇƏNG** - Ulduzların düzümü səfərə çıxmaq üçün münasib vaxt olduğunu bildirir. Maddi durumunuz imkan verirsə, bundan imtina etməyin. Ətrafınızda olan insanları real qiymətləndirməkdə yanılmayın.

**ŞİR** - Pulla bağlı problemləriniz olsa da, qalan məsələlərdə ovqatınız xoş olacaq. Xüsusən də münasibətlər zəminində cərəyan edənlərdən rahatlıq tapacaqsınız. Uzaq yola çıxmayın.

**QIZ** - Günün təhərindən asılı olmayaraq özünüzü bütünlüklə fəaliyyətə həsr etməlisiniz. Münasibət və alqı-satqı məsələlərinə isə həvəs göstərməyiniz məqsədəuyğun deyil. Axşam işgüzar söhbətlər aparmaq sizə səmərə verəcək.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvim sizə düşərli olacaq. Çünki ulduzlar xoş ovqat və qazanc əldə edəcəyinizi bildirir. Oturaq işlərə çox da həvəs göstərməyin. Aktivliyinizi artırın.

**ƏQRƏB** - Özünüzü lovğa və ya təkəbbürlü aparmayın. Bu gün sizə sadə görünmək lazımdır. Bu yolla özünüzə qarşı rəğbət oyada bilərsiniz. Günortadan sonra qarşınıza yaxşı adamlar çıxacaq.

**OXATAN** - Bəri başdan nəzərinizə çatdıraq ki, bu gün başlıca vəzifəniz sağlamlığınızı qorumaq olmalıdır. Digər məsələlərə isə ciddi yanaşmağa ehtiyac yoxdur. Əsas gücünüzü istirahətə verin.

**OĞLAQ** - İkitərəfli əməkdaşlıq çox uğurludur. Artıq adamlar planlarınızı poza bilər. Tanınmış şəxslərlə əlaqələrinizi dərinləşdirin. Günün ikinci yarısında yeni simalarla görüşləriniz mümkündür.

**SUTÖKƏN** - Təzadlı bir gün yaşayacaqsınız. Ətrafınızda cərəyan edən situasiyalar gah müsbət, gah da mənfi istiqamətə yönələ bilər. Belə məqamlarda dostlarınızla birgə olmağa çalışın.

**BALIQLAR** - Sürprizlərlə dolu bir gün yaşayacağınız güman olunur. Ola bilsin ki, bu təqvim taleyinizin ən yaddaqalan tarixinə çevrilsin. Hər cəhətdən buna hazırlaşın. Soyuqqanlı olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Yoldan 9 beyin tapıldı



Amerikanın bir kəndində küçəyə atılmış 9 beyin polisləri hərəkətə keçirib. Gouverneur kəndinin sahibləri tərəfindən tapılan beyinlər hər kəsi qorxudub. Hadisə yerinə gələn polislər beyinlərin professionallar tərəfindən çıxarıldığını deyiblər. Xüsusi qablarda olan beyinlərə baxan həkimlər onların insana deyil, heyvanlara aid olduğunu deyiblər. İt və qoyunlara aid olduğu bildirilən beyinlər təcrübələrdə istifadə edilirmiş.

Məlumat üçün bildirək ki, ötən il Texas Universitetindən təcrübələrdə istifadə edilmək üçün saxlanılan 100 insan beyni oğurlanmışdı.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.